Xalqın qəzeti!

# Xalq qəzeti

№ 120 (30236) 8 iyun 2023-cü il, cümə axşamı

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | veb-sayt: www.xalqqazeti.az

## Günün sözü

**Prezident İlham Əliyev:**

**Dünya miqyasında nadir ölkələrdənik ki, iqtisadi cəhətdən tam müstəqilik. Siyasi gücümüzü artırdıq, bu gün Azərbaycanla hesablaşırlar. Ən azı, regional təhlükəsizlik və inkişaf məsələlərində Azərbaycanın razılığı olmadan heç bir təşəbbüs həyata keçirilə bilməz.**

# Uğur diplomatiyası

*Yaxud ənənəvi diplomatiyaya əlavə edilmiş yeni çalarlar*



**Artıq Vaşinqtondan gələn xəbərlərdə də Azərbaycanın mövqelərinin dəstəkləndiyi açıq-aydın görünür, Brüssel də bizim məqsədlərimizlə razılaşdığını bəyan edir, Moskva da, digər güc mərkəzləri də. Təbii ki, Ermənistan və onun iki-üç himayədarı istisna olmaqla. Fikrimizcə, tezliklə rəsmi İrəvan da haqqa qayıdacaq, ona qəyyumluq edənlər də əbəs yerə zəhmət çəkdiklərini anlayacaqlar.**

Yəni otuz ilə yaxın müddətdə uğrunda çalışdığımız siyasi-diplomatik mənzərəyə tam nail olmaq üzrəyik. Bu, uğurdur. Həm də göydəndüşmə və ya kiminsə hədiyyə etdiyi uğur yox, bilavasitə əqlin, hissin, elmi təfəkkürün, siyasi uzaqgörənliyin, yorulmazlığın, müasir diplomatiya təcrübəsinin ən incə məqamlarına belə bələd olmağın nəticəsidir. Bu gün dünya ictimaiyyəti görür və etiraf edir ki, Bakının mövqeyi ədalətlidir, prinsipialdır, sülhsevərdir və bu ölkə istənilən dövlətlə əməkdaşlığa açıqdır.

Bəs biz bunlara necə nail olduq? Sadəcə, ənənəvi Şərq və Qərb diplomatiyalarının təməl prinsipləri üzərində yeni diplomatik fəaliyyət normaları yaratmaqla. Heç kəs unutmayıb ki, İkinci Dünya müharibəsindən sonra beynəlxalq aləmdə yaranmış siyasi-diplomatik nizam ancaq gücə əsaslanırdı. Kim güclüdürsə, onun sözü əsas götürülürdü. Ancaq İlham Əliyev sübut etdi ki, kim haqlıdırsa, hansı dövlətin mövqeyi ədalətlidirsə, onun dedikləri qəbul edilməlidir. Və cənab Prezident çoxsaylı bədxahlar ordusuna qarşı təkbaşına mübarizə apararaq Azərbaycanın səsini hamıya eşitdirdi, dövlətimizin haqlı olduğunu sübut etdi, xalqımızın böyüklüyünü ortaya qoydu.

*(ardı 4-cü səhifədə)*

# Qarabağ ermeniləri və "pariyalıq"dan çıxmaq perspektivi

**Azərbaycan–Ermənistan münasibətlərinin nizamlanmasına yönələn danışıqların intensivləşməsi fonunda həm rəsmi İrəvanın ayrı-ayrı təmsilçiləri, həm də ölkənin müxtəlif siyasi ekspertləri daha çox Qarabağ ermeniləri ilə bağlı məsələnin üzərində dayanırlar. Mövcud xüsusda onların Bakı ilə dialoqunda, ümumən hüquq və təhlükəsizlik müstəvisində hansısa beynəlxalq mexanizmlərin tətbiqi məsələsindən söz açırlar.**



Aydındır ki, belə bir mexanizm Ermənistanın Qarabağ kartından ən son tutacaq yeridir. Bir halda ki, əvvəllər qaldırılan status məsələsi tarixin arxivinə gömülüb, üstəlik, hazırkı vəziyyətdə Azərbaycan diktə edən tərəfdir, vurğuladığımız məsələdə üstünlüyə nail olmaq İrəvan üçün, həm də mənəvi əhəmiyyət daşımaqdadır. Baş nazir Nikol Paşinyan administrasiyası mövcud istiqamətdə, azacıq da olsa, uğur qazanıb, daxili ictimai rəyə Qarabağ ermənilərinin taleyinə biganə yanaşmadığını isbatlamaq və beləliklə, rəqiblərini susdurmaq niyyəti güdür.

*(ardı 3-cü səhifədə)*

## Minalar həyat və sağlamlığa ciddi təhdiddir



Səhifə ⇨ 4

## Ölkəmiz özü bilər



Səhifə ⇨ 6

## Sülhdən qorxanların "Şər nəğmələri"

**Təhlükəli təmayüldür. Özünün geosiyasi, hərbi-iqtisadi maraqlarını bəşəri dəyərlərdən üstün tutan tərəf indiki məqamda hətta sülhün özünü belə qurban verməyə hazır görünür...**



Azərbaycan nə istəyir? Ermənistan bizdən çox ehtiyac duyduğu sülhə gəlsin, Cənubi Qafqazda əmin-amanlıq mühiti bərqərar olsun, qarşılıqlı etimada söykənən qonşuluq münasibətlərinə start verilsin. Hazırda tərəflər arasındakı danışıqlar prosesinə vasitəçilik edənlərin də niyyət və məqsədlərinin buna yönəldiyi duyulur. Avropa İttifaqının, ABŞ-ın sülh yolunda göstərdikləri davamlı səylərini yalnız təqdir etmək olar. Bəs sülh dialoqunda əsas vasitəçilik missiyasını boynuna götürən üçüncü tərəf necə, bu fəaliyyətində axıradək səmimidirmi? Söhbət 2020-ci il noyabrın 10-da üçtərəfli Bəyanata imza atmaqla, üzərinə müəyyən öhdəliklər götürmüş Rusiyadan gedir. Təəssüf ki, yuxarıdakı sualı müsbət cavablandırmağa mane olan görünən və görünməyən amillər var.

*(ardı 6-cı səhifədə)*

## Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin Şuşa konfransı



Səhifə ⇨ 2

## Ermənistanın dərdi var, İrəvan xəstədir



Səhifə ⇨ 3

## Kreml Bakı və İrəvanı alternativ axtarmamağa çağırır

Səhifə ⇨ 6

## Rəqəmsallaşmaya keçid məhsuldarlığı artırır



Səhifə ⇨ 7

## "Avro-5" dizel yanacağının istehsalına başlanılıb




Səhifə ⇨ 7

## Erməni elmi saxtakarlığı: uydurma tarixdən siyasi iddialara

Səhifə ⇨ 9

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Zati-aliləri!**

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizə Sloveniya Respublikasının vətəndaşları adından və şəxsən öz adımdan səmimi təbriklərimi çatdırır, ölkənizin və xalqınızın inkişafı, rifahı ilə bağlı ən xoş arzularımı bildirirəm.

Ölkələrimiz arasındakı dostluq münasibətlərini məmnuniyyətlə qeyd edirəm. Sloveniya-Azərbaycan tərəfdaşlığı qarşılıqlı fayda əsasında əhəmiyyətli dərəcədə möhkəmlənib.

Sloveniya 2024-2025-ci illər üçün BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü kimi beynəlxalq sülhün, sabitliyin və xalqların birgəyaşayışının möhkəmlənməsi istiqamətində səylərini daha da artıracaqdır.

Zati-aliləri, ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

**Hörmətlə,**

***Nataşa Pirç MUSAR,***
***Sloveniya Respublikasının Prezidenti***

# Əli Əsədovun Beynəlxalq Mülki Aviasiya Təşkilatı Şurasının prezidenti ilə görüşü



**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov iyunun 7-də Beynəlxalq Mülki Aviasiya Təşkilatı (ICAO) Şurasının prezidenti Salvatore Şikitano ilə görüşüb.**

Nazirlər Kabinetinin mətbuat xidmətindən bildirilib ki, görüşdə Azərbaycanda mülki aviasiyanın inkişafı və aviasiya təhlükəsizliyi sahəsində görülmüş işlər barədə ətraflı fikir mübadiləsi aparılıb.

Ölkəmizdə aviasiya təhlükəsizliyi standartlarının ICAO standartlarına uyğunlaşdırılması təşkilat tərəfindən yüksək qiymətləndirildiyi diqqətə çatdırılıb.

İşğaldan azad edilmiş ərazilərdə istismara verilmiş hava limanlarının ICAO-nun beynəlxalq məkan indeksləri kataloquna daxil edildiyini bildirən Baş nazir bu bölgələrdə beynəlxalq aeroportların inşasının turizmin inkişafı baxımından vacibliyini vurğulayıb.

***"Xalq qəzeti"***

# Baş nazir Soçiyə işgüzar səfərə gedib




**İyunun 7-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Rusiya Federasiyası Hökumətinin sədri Mixail Mişustinin dəvəti ilə Müstəqil Dövlətlər Birliyi (MDB) Hökumət Başçıları Şurasının iclasında iştirak etmək üçün Soçiyə işgüzar səfərə gəlib.**

Nazirlər Kabinetinin mətbuat xidmətindən bildiriblər ki, Baş nazir, həmçinin Avrasiya Hökumətlərarası Şurasının iclasında və III Avrasiya Konqresində qonaq qismində iştirak edəcək.

Bundan əlavə, səfər çərçivəsində Əli Əsədovun xarici həmkarları ilə bir sıra ikitərəfli görüşləri də planlaşdırılır.

***"Xalq qəzeti"***

# Litva heyəti Baş Prokurorluqda



**İyunun 7-də Baş prokuror Kamran Əliyev "Avropa Qonşuluq Aləti" çərçivəsində reallaşdırılan "Azərbaycanda əmlakların bərpası və idarə edilməsi sistemində islahatlara dəstək" adlı "Tvinninq" layihəsi üzrə ölkəmizdə işgüzar səfərdə olan Litva Respublikasının Xüsusi İstintaq Xidmətinin rəhbəri vəzifəsini icra edən Yovitas Razkeviçiusun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Bu barədə Baş Prokurorluğun mətbuat xidmətindən məlumat verilib.

Baş prokuror Kamran Əliyev dövlətimizin başçısı İlham Əliyevin bu ilin mayında Litvaya rəsmi səfəri zamanı Baş prokurorluqlar arasında imzalanmış 2024-2025-ci illər üçün Əməkdaşlıq Proqramının gələcəkdə iki ölkənin hüquq-mühafizə orqanları arasında əməkdaşlığın davam etdirilməsi üçün geniş imkanlar yaratdığını bildirib. Həmçinin "Tvinninq" layihəsi çərçivəsində cinayət yolu ilə əldə edilmiş əmlakların bərpası sahəsində həyata keçirilən tədbirlərin müsbət nəticələr verdiyi deyib.

Yovitas Razkeviçius Litva tərəfindən Azərbaycanla əlaqələrə böyük önəm verildiyini və münasibətlərin müvəffəqiyyətlə inkişaf etdiyini vurğulayıb.

Görüşdə tərəfləri maraqlandıran bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Bölmələrimizin mövqeləri atəşə tutulub

**İyunun 7-si saat 13:35-dən saat 19:45-dək Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələrinin üzvləri tərəfindən Azərbaycan Ordusunun Xocavənd və Şuşa rayonları istiqamətlərində yerləşən mövqeləri atıcı silahlardan fasilələrlə atəşə tutulub.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, bölmələrimiz tərəfindən qeyd olunan istiqamətlərdə adekvat cavab tədbirləri görülüb.

Bundan başqa, qeyri-qanuni erməni silahlı dəstələrinin üzvləri kənd təsərrüfatı işləri adı altında Ordumuzun Ağdam, Xocavənd və Şuşa rayonları istiqamətlərində yerləşən mövqelərinin qarşısında uzunmüddətli fortifikasiya qurğularını quraşdırmağa cəhd göstəriblər.

Bölmələrimiz tərəfindən görülən təxirəsalınmaz tədbirlər nəticəsində aparılan işlər dərhal dayandırılıb.

***"Xalq qəzeti"***

## Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının ştatdankənar (fəxri) konsulu haqqında" Əsasnamə barədə" 1997-ci il 21 aprel tarixli 575 nömrəli, "Heyvanlar aləmi haqqında" Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi barədə əlavə tədbirlər haqqında" 2003-cü il 23 oktyabr tarixli 951 nömrəli, "Ovçuluq haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2004-cü il 26 may tarixli 69 nömrəli, "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" 2017-ci il 13 noyabr tarixli 1681 nömrəli və "Baytarlıq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 23 fevral tarixli 1010-VQD nömrəli Qanununun tətbiqi və "Baytarlıq haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 22 noyabr tarixli 316 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında" 2018-ci il 16 aprel tarixli 1921 nömrəli fərmanlarında dəyişiklik edilməsi barədə

# *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 21 aprel tarixli 575 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 9, maddə 480; 2014, № 9, maddə 1045; 2023, № 1, maddə 75) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının ştatdankənar (fəxri) konsulu haqqında" Əsasnamənin 11.1-ci və 12.1-ci bəndlərinə "Nazirliyinə" sözündən sonra ", Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinə və Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinə" sözləri əlavə edilsin.

**2.** "Heyvanlar aləmi haqqında" Azərbaycan Respublikası Qanununun icrasının təmin edilməsi barədə əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2003-cü il 23 oktyabr tarixli 951 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, № 10, maddə 556) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

2.1. üçüncü abzasdan "35-ci maddəsinin 1-ci və" sözləri çıxarılsın və həmin abzasda "hissələrində" sözü "hissəsində" sözü ilə əvəz edilsin;

2.2. beşinci abzasın sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz olunsun və aşağıdakı məzmunda altıncı abzas əlavə edilsin:

"Həmin Qanunun 24-cü maddəsinin birinci hissəsinin onuncu abzasında və 35-ci maddəsinin birinci hissəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanlarının səlahiyyətlərini Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi və Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi həyata keçirirlər.".

**3.** "Ovçuluq haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 26 may tarixli 69 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 5, maddə 342; 2014, № 12, maddə 1554) 2.4-cü bəndinə "səlahiyyətlərini" sözündən sonra "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi," sözləri əlavə edilsin.

**4.** Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 13 noyabr tarixli 1681 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 11, maddə 2020; 2018, № 5, maddə 896; 2020, № 4, maddə 405, № 9, maddə 1152, № 12 (I kitab), maddə 1460; 2022, № 8, maddə 856, № 10, maddə 1140) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

4.1. 3.0.11-1-ci yarımbənddə "məhdudiyyət və xəbərdarlıq təyinatlı tədbirlər görmək" sözləri "karantin və ya məhdudiyyət tədbirləri tətbiq etmək" sözləri ilə əvəz edilsin;

4.2. aşağıdakı məzmunda 3.0.33-23 – 3.0.33-26-cı yarımbəndlər əlavə edilsin:

"3.0.33-23. ərazisində heyvanların xüsusi təhlükəli xəstəliklərinin baş verməsi qeydə alınan xarici ölkələr və idxalı qadağan olunmuş mallar barədə məlumatların real vaxt rejimində aidiyyəti dövlət orqanının informasiya sisteminə ötürülməsini təmin etmək;

3.0.33-24. heyvan xəstəliklərinin diaqnostikası və profilaktikası üzrə baytarlıq tədbirlərinin həyata keçirilməsinə nəzarət məqsədilə hər bir heyvanı və ya heyvanlar qrupunu müşahidə etməyə imkan verən kənd təsərrüfatı heyvanlarının identikləşdirilməsini aparmaq;

3.0.33-25. heyvanlar üçün bioloji preparatlar istehsalı obyektlərinin baytarlıq qanunvericiliyinin tələblərinə uyğunluğunun uçotunu aparmaq üçün onların qeydiyyatını həyata keçirmək;

3.0.33-26. dövlət baytarlıq nəzarətinə cəlb edilən məhsulların istehsalı, tədarükü, saxlanması, emalı və satışı, habelə daşınması ilə bağlı dövlət baytarlıq nəzarəti obyektlərinin yerləşdirilməsinə, tikintisinə, bərpasına və istismara verilməsinə rəy vermək;".

**5.** "Baytarlıq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 23 fevral tarixli 1010-VQD nömrəli Qanununun tətbiqi və "Baytarlıq haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 22 noyabr tarixli 316 nömrəli Fərmanında dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 16 aprel tarixli 1921 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 4, maddə 672) 1.5-ci bəndi ləğv edilsin.

**6.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

6.1. "Baytarlıq haqqında" Azərbaycan Respublikası Qanununun 26.2-ci maddəsinə uyğun olaraq, heyvanlar üçün bioloji preparatlar istehsalı obyektlərinin baytarlıq qanunvericiliyinin tələblərinə uyğunluğunun uçotunu aparmaq üçün onların qeydiyyatı qaydasını üç ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

6.2. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 7 iyun 2023-cü il**

# Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin Şuşa konfransı

**Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə iyunun 7-də Şuşada "Yenidənqurma, sülh və inteqrasiya: Enerji, iqtisadiyyat, ətraf mühit və kapital" mövzusunda beynəlxalq tədbir keçirilib. Tədbirdə müxtəlif ölkələrdən 30-dan çox xarici nümayəndə iştirak edib.**



Mərkəzin həmsədri İsmail Serageldin və Azərbaycan Prezidentininin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov açılış nitqi ilə çıxış edərək, azad olunmuş torpaqlarımızda enerji məsələləri, ərazilərin minalardan təmizlənməsi, eləcə də keçmiş məcburi köçkünlərin öz doğma torpaqlarına qaytarılması ilə bağlı işçi qruplarının fəaliyyət göstərdiyini bildiriblər. Qeyd edilib ki, "yaşıl" enerji potensialı bölgəni davamlı inkişafa aparacaq.

Bosniya və Herseqovinanın sabiq Baş naziri Zlatko Laqumciyanın moderatorluğu ilə "Yenidənqurma, sülh və inteqrasiya" mövzusunda keçirilmiş birinci panel iclasında Amerika Xarici Siyasət üzrə Milli Komitəsinin prezidenti səfir Suzan Elliott, Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının 75-ci sessiyasının Prezidenti Volkan Bozkır, Xorvatiyanın sabiq Prezidenti Kolinda Qrabar-Kitaroviç və Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov çıxış edərək, azad olunmuş ərazilərimizdə böyük infrastruktur işlərinin görüldüyünü və bölgədə sülhün bərqərar olmasının inkişaf üçün vacibliyini vurğulayıblar.

İrqçiliklə Mübarizə üzrə Avropa Şəhərlər Koalisiyasının (ECCAR) prezidenti Benedetto Zakçirolinin moderatorluğu ilə keçirilən "Mədəni irs və ortaq dəyərlər" mövzusunda ikinci panel iclasda çıxış edən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri İsmail Serageldin, Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi Aydın Kərimov, ICESCO-nun sabiq Baş direktoru Əbdüləziz əl-Tüveycri və UNESCO-nun xoşməramlı səfiri Hedva Ser "yaşıl" enerji potensialının bölgəni davamlı inkişafa aparacağını vurğulayıblar. Çıxışlar zamanı Qarabağın gələcəyinin və burada ətraf mühitin bərpasının iqtisadi artıma töhfə verdiyi qeyd edilib, ərazilərin işğaldan azad olunandan sonrakı və bugünkü mənzərəsi arasında çox böyük fərqlərin olduğu söylənilib.

Moldovanın sabiq Baş naziri Kirill Qaburiçin moderatorluğu ilə keçirilən 3-cü panel iclasda "Kapital və iqtisadi inkişafın uyğunlaşdırılması" mövzusunda müzakirələr aparılıb.

Monteneqronun sabiq Prezidenti Filip Vuyanoviç, Xorvatiyanın sabiq Prezidenti İvo Yosipoviç, Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev işğaldan azad edilmiş ərazilərə investisiyaların qoyulmasının, böyük şirkətlərin işğaldan azad edilmiş ərazilərə cəlb olunmasının əhəmiyyətindən danışıblar. Diqqətə çatdırılıb ki, şirkətlərin "tax-free" xidmətindən istifadə edərək bu cür məskunlaşmalar üçün yatırımlar edə bilmə imkanları mövcuddur. Natiqlər, həmçinin işğaldan azad olunmuş ərazilərə qayıdış prosesindən, insanların əsas ehtiyaclarının ödənilməsi istiqamətində görülən işlərdən və qazanılan təcrübənin gələcəkdə məskunlaşma prosesində istifadə olunacağından danışıblar.

Gürcüstan Baş nazirinin keçmiş müavini Eka Tkeşelaşvilinin moderatorluğu ilə "Enerji və dayanıqlı inkişafın ekoloji çətinlikləri" mövzusunda keçirilən dördüncü panel iclasda Rumıniya parlamentinin üzvü, Rumıniya Baş nazirinin keçmiş müavini Ana Birçall, Maltanın sabiq Baş naziri Cozef Muskat, Bolqarıstanın sabiq Prezidenti Rosen Plevneliyev, Serbiyanın sabiq Prezidenti Boris Tadiç və Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (ANAMA) İdarə Heyətinin sədri Vüqar Süleymanov müasir dünyadakı ən son çağırışlarla əlaqədar bərpaolunan enerji mənbələrinin çox vacib məsələyə çevrilməsindən dnaışıblar. Azərbaycanın Avropa üçün bərpaolunan enerji resurslarının ən böyük tədarükçüsünə çevrildiyi qeyd edilib, ölkəmizin "təmiz enerji"nin Avropa ölkələrinə nəqlinə mühüm töhfə verməyə hazır olduğu diqqətə çatdırılıb.

# Macarıstanın müdafiə naziri ölkəmizdə

**Dünən Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə rəsmi səfərdə olan Macarıstanın müdafiə naziri Kristof Szalay-Bobrovnicskinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**



General-polkovnik Z.Həsənov macarıstanlı həmkarını Azərbaycan-Ermənistan şərti sərhədində və Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisində Ermənistan tərəfindən törədilən təxribatlar barədə məlumatlandırıb. Qanunsuz fəaliyyətlərin qarşısının alınması məqsədilə Laçın yolunun Azərbaycan-Ermənistan sərhədinin son nöqtəsində Azərbaycan tərəfindən sərhəd-keçid və nəzarət məntəqəsinin qurulduğunu diqqətə çatdırıb.

K.Szalay-Bobrovnicski ölkəsinin Azərbaycanın ərazi bütövlüyünü tanıdığını və strateji tərəfdaşlığa əsaslanan Azərbaycan-Macarıstan ikitərəfli münasibətlərinin bir çox sahədə, o cümlədən hərbi sahədə də uğurla inkişaf etdiyini qeyd edib.

Görüşdə Azərbaycan ilə Macarıstan arasında hərbi, hərbi-texniki və hərbi təhsil sahələrində əlaqələrin genişləndirilməsi, təcrübə mübadiləsinin inkişaf etdirilməsi məqsədilə qarşılıqlı səfərlərin əhəmiyyəti vurğulanıb.

# Qarabağ ermənilərи və “pariyalıq”dan çıxmaq perspektivi

## *Yaxud hüquq, azadlıq və təhlükəsizlik üçün Bakının uzatdığı əl*

*(əvvəli 1-ci səhifədə)*

Əlbəttə, Paşinyanın komandası yekdil deyil, xaricdəki müxtəlif siyasi dairələrə bağlı şəxslərdən təmsil olunub. Bu mənada həmin komandanın daxilində Qarabağ erməniləri ilə bağlı məsələni erməni avantürizminin davamına siyasi sərmayə kimi təsəvvürə gətirənlər də var. Məsələn, onlar düşünürlər ki, əgər mövcud istiqamətdə beynəlxalq mexanizmlər dövriyyəyə girsə, gələcəkdə o mexanizmlərə istinad edərək, yenidən bölgəyə sahiblənmək mümkündür. Hər halda Nikolun özünün də belə bir düşüncədə olmadığını söyləmək üçün heç bir əsas yoxdur. Nəzərə alsaq ki, Paşinyan gündə bir fikir dəyişmək təbiətinə malik qeyri-ciddi və səmimiyyətdən uzaq personadır, onun da eyni fikirdə ola biləcəyi istisna sayılmamalıdır.

Fakt budur ki, hazırda erməni siyasilərin Xankəndi–Bakı dialoqu kimi qabartdıqları məsələ müstəvisində beynəlxalq mexanizm yoxdur, üstəlik təcrübədə də bir müstəqil ölkənin öz tabeçiliyindəki xalqa xüsusi münasibətin çərçivələrini müəyyənləşdirən təcrübəyə rast gəlinmir. O zaman belə bir prosedurun Azərbaycana yanaşmada tətbiqi də mümkünsüzdür. Həm də ona görə mümkünsüzdür ki, buna razılıq verməmik.

İstər ölkəmizin Prezidentinin, istərsə də xarici siyasət rəsmilərinin fikirlərindən anlaşılan Bakının mövqeyinin qətiliyidir – Qarabağ erməniləri Azərbaycanın tərkibindəki digər xalqlar kimi yaşam hüquqlarına malikdirlər, onlara münasibətdə hansısa əlahiddə imtiyazın tətbiqindən söhbət açıla bilməz. Kim istəsə, ölkəmizin yurisdiksiyası altında ömür sürəcək, istəməyənlər bölgəni tərk edib getməyə məhkumdurlar.

***

Azərbaycan dövləti iki dəfə Qarabağın erməni icmasının nümayəndələrini Bakıya danışıqlara dəvət edib. Məlum olduğu kimi, dəvətlər geri çevrilib. Ancaq nəzəri baxımdan hesab edək ki, onlar paytaxtımıza gəliblər. Nəzəri baxımdan onu da düşünək ki, Azərbaycanla Ermənistan arasında sülh müqaviləsi imzalanıb. Bunun reallaşacağı təqdirdə, kimsə ümid etməsin ki, Qarabağ erməniləri qədim Hindistandakı kimi kasta halına gələcəklər.

Yeri gəlmişkən, məsələyə Hindistandakı tarixi iyerarxiya prizmasından yanaşsaq, hələlik Qarabağ erməniləri bizim gözümüzdə pariyalardır. Yəni toxunulmazlardır. Ancaq yada salaq ki, pariyaları toxunulmaz edən onların üstünlüyü deyil, murdarlığı idi. Bəli, Qarabağın erməni əhalisi də hazırda bölgədəki separatçıların tabeçiliyində olmağa razılıq verdiklərindən, buna müqavimət göstərmədiklərindən, nəzərimizdə murdardırlar. Belələrinə isə ölkəmizdə yer yoxdur. Ancaq humanistlik göstərib onları pariyalıqdan çıxarmaq istəyirik, şans veririk. Şans isə heç də həmişə ələ düşmür.

Bəli, Qarabağ ermənilərinin Bakıya dəvət edilmələri daimi ola bilməz. Azərbaycan Prezidenti İlham Əliyev də Laçında yerli əhali ilə görüşündə məsələ ilə bağlı qəti mövqeyini ortaya qoyub: "Biz oraya (Xankəndi - red) heyət göndərmişdik. Mənim nümayəndəm gedib onlarla (erməni azlığının nümayəndələri - red) birinci görüş keçirib və ondan sonra onları dəvət etmişik Bakıya ki, gəlin danışaq. Onlar bundan imtina etdilər. Bundan sonra ikinci dəfə biz onları dəvət etmişik Bakıya. Yəni, Qarabağda yaşayan erməni azlığının nümayəndələrini. Ondan da imtina etdilər. Daha üçüncü dəvət olmayacaq. Ya özləri boyunlarını büküb gələcəklər, ya da ki, indi hadisələr başqa cür inkişaf edəcək".

Hesab edirik ki, həm Qarabağ erməniləri, həm də Ermənistan rəhbərliyi dövlətimizin başçısının “hadisələr başqa cür inkişaf edəcək” fikrinə ciddi diqqət yetirməlidirlər. Həm də ona görə ki, cənab İlham Əliyev elə həmin görüşdə hər zamankı prinsipiallığı ilə bildirmişdi: “...Mənim sözüm qətidir, bunu hər kəs bilir, həm Azərbaycanda, həm dünyada, o cümlədən Ermənistanda. Nəyi deyiriksə, onu da edirik. Bir dənə də olsun sözümüz, necə deyərlər, havada qalmayıb, bu söz də havada qalmayacaq...”

***

Əlbəttə, hazırda Ermənistanda “Qarabağın müstəqilliyi”, eləcə də Qarabağ erməniləri ilə bağlı məsələnin beynəlxalq mexanizmlərinin olacağını düşünənlərin səsi daha çox çıxmaqdadır. Ancaq mövcud istiqamətdə reallıqları nəzərə alıb fikir bildirənlərə də rast gəlinməkdədir. Sonuncu kəsimin sırasında, ümumən Azərbaycan Prezidentinin hər sözünü və cümləsini havaya atmadığını deyənlər, dövlətimizin başçısının söylədiklərini yerinə yetirdiyini bildirib isterik duruma düşənlər də var, cənab İlham Əliyevin fikirlərindən rasional nəticə çıxaranlar da.

İsterik duruma düşənlərin bildirdiklərinə o qədər də önəm verməк lazım deyil. Çünki belələri bir qayda olaraq, vəziyyətin çıxılmazlığı görüntüsü yaradıb baş nazir Nikol Paşinyanı müqəssir sayır, Ermənistandakı mövcud iqtidarın hakimiyyətdən uzaqlaşmasının vacibliyi motivlərinə köklənirlər. İkincilərin



isə məsələlərə nisbətən soyuq başla yanaşdıqlarını görmək mümkündür. Belələrindən biri İrəvan Mətbuat Klubunun rəhbəri, politoloq Boris Navasardyandır.

B.Navasardyan bildirir ki, erməni xalqı həm Ermənistan, həm də Qarabağın erməni əhalisi üçün az-çox pozitiv nəticə əldə etmək istəyirsə, maksimal dərəcədə realist olmalıdır. “Başa düşmək lazımdır ki, kollektiv Qərb Qarabağ ermənilərinin hüquq və azadlıqlarına təminat baxımından beynəlxalq mövcudluğa dair məsələnin üzərində inad göstərməyəcəkdir. Məsələnin öhdəlik şəklində belə qoyuluşunu nə Brüssel, nə Vaşinqton, nə də digər Qərb paytaxtları tərəfindən görürük. Mənim baxışıma görə, gündəmdə qalan Azərbaycan tərəfindən mümkün təklifdir. Azərbaycanın öz konstitusiyasına əsasən Qarabağ ermənilərinin hüquq və təhlükəsizliyi baxımından hansı mexanizmi təklif etməsi əsasdır. Bu (konstitusiya - red), çox ümumidir, heç nə demir. Ölkə hansı konkret mexanizmləri, yaxud hansı konkret prosesləri həyata keçirmək istəyir? Bu mənada hesab edirəm ki, Bakıda iş aparılır. Ola bilər, bu iş ictimaiyyətə açıqlanmır. Ancaq aparılır və hansısa mərhələdə Azərbaycan danışıqlar prosesinin iştirakçılarına şərtlərini təklif edə bilər”.

Bəli, B.Navasardyanın məntiqini müəyyən qədər real saymaq mümkündür. O, çox doğru vurğulayır ki, (Fransa xaric) kollektiv Qərb tərəfindən Qarabağ ermənilərinin hüquq və təhlükəsizliyinə dair hansısa beynəlxalq mexanizmi nəzərdə tutan təklif irəli sürülmür. Aİ Şurasının rəhbəri Şarl Mişelin açıqlamaları da bunu göstərməkdədir. Ancaq demək olmaz ki, vasitəçilər Navasardyan və onun fikrini bölüşənlərin söylədiklərini düşünmürlər. Psixoloji baxımdan yanaşsaq, onlar bir tərəfdən Ermənistanın bu məsələdə hara qədər gedəcəyini gözləyirlər, digər tərəfdən isə Azərbaycanı qıcıqlandırmaq istəmirlər və hər növ, hazırkı qüvvələr balansı baxımından qızıl orta prinsipinə riayət edirlər. Erməni politoloqun detallarının azacıq təsvir etdiyi prosesə dair gözləntiləri mümkündür.

***

Danışıqların qarşılıqlı kompromiss məntiqinə yanaşsaq, vasitəçilərin Azərbaycanın vəziyyəti yumşaltmaq və belə demək mümkünsə, sülh yolunu rəvanlaşdırmaq üçün məhz Qarabağ erməniləri mövzusunda nələri təklif edəcəyini gözləmələri mümkündür. Bu, elə bir təklif olmalıdır ki, vasitəçilər Ermənistana onun da mövqeyinin nədəsə nəzərə alındığını söyləyə bilsinlər. Əlbəttə, əgər təklif olacaqsa, bu təklifin Bakının öz prinsiplərindən geri çəkilməsi kimi interpretasiyası da mümkünsüzdür.

Ancaq hələlik təklif yox, haqqında yuxarıda söz açdığımız dəvət var. Bir daha bildirək ki, söhbət Qarabağ ermənilərinin Bakıya dəvətindən gedir. Bu baxımdan Azərbaycan rəsmiləri vurğunu sosial məsələlər üzərinə qoyurlar, Qarabağın erməni əhali yaşayan hissələrində çoxdandır yığılıb qalmış problemlərin öyrənilməsini prioritet vəzifə kimi müəyyənləşdirirlər. Belə görünür, Bakıdan konkret təklif məntiqi məhz dəvət müstəvisində işə düşə bilər.

Sonda iki məsələyə diqqət yetirək. Birincisi, qeyd edək ki, vaxtilə, yəni sabiq Sovetlər Birliyi dönəmində Qarabağ erməniləri imtiyazlı təbəqə olublar. O dövrü xatırlayanlar bildirirlər ki, Xankəndidə və keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin müxtəlif yerlərində yaşamış ermənilərin əmək haqları respublikanın digər yerlərində yaşayanlardan yüksək olub. Bunun hansı prinsip əsasında gerçəkləşdirildiyi məlum deyil. Hər bir halda hazırda belə ayrı-seçkilik tətbiq oluna bilməz. Həm də ona görə ki, biz xüsusi yanaşmanın sonradan hansı “istəkləri” doğurduğunun, 30 ilə yaxın müddətdə torpaqlarımızın işğalda qaldığının şahidiyik. Bu mənada vasitəçilərin də Qarabağ ermənilərini bizə yenidən, loru dildə desək, şirin satmağa cəhd göstərmələri əbəsdir.

İkinci məqamı qabartmaqla isə söylədiklərimizlə əlaqədar bir növ ümumiləşdirmə aparmaq istərdik. Hazırda Azərbaycan-Ermənistan nizamlaması baxımından, danışıqlar masasına, müəyyən mənada dürtülmüş kimi görünən Qarabağ ermənilərinin hüquq və təhlükəsizliyi, habelə onların təhlükəsizliyi seqmenti gündəmə gətirilirsə, vasitəçilərin bu barədə söz açmadıqlarını, Ermənistan rəsmilərinin isə onun üzərinə gəldiyini görürük. Hesab edirik ki, mövcud məqam sülh prosesinin diplomatik əsəb davasını şərtləndirməkdədir. Hər bir halda Azərbaycanın davaya, daha doğrusu, özünün haqq davasına təmkinlə yanaşıb prinsiplərini qoruyacağı şübhəsizdir.

**Ə.CAHANGİROĞLU,**
**“Xalq qəzeti”**

---

# Ermənistanın dərdi var, İrəvan xəstədir

## *Aşot “intizarda”, Ararat “yol üstədir”*

**Ermənistanda əsəblər tarıma çəkilməkdə, səbr kasaları daşmaqdadır. Hazırda ölkədəki gərgin durumu şərtləndirən bir-birilə bağlı iki məqam var. Birincisi, sülh danışıqlarının hazırkı axarı, ikincisi isə ölkə rəsmilərinin həmin danışıqlar fonundakı açıqlamaları.**

Bilavasitə ikinci məqama diqqət yetirərkən, yada Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanın parlamentdə bir neçə gün əvvəlki çıxışı zamanı səsləndirdiyi fikirlər düşür. Mirzoyan bildirmişdi ki, Qarabağ erməniləri baş nazir Nikol Paşinyana və onun şəxsində Ermənistan hökumətinə bölgənin statusu ilə bağlı danışıqlar aparmaq mandatı verməyib. XİN rəhbəri özünün yarımçıq diplomatiyası ilə çalışmışdı ki, Qarabağdakı separatçı rejimin, eləcə də dünya erməniliyinin bölgə ermənilərinin taleyi ilə bağlı İrəvanın üzərinə yüklənmələrinin qarşısını alsın. Yəni, təxminən belə: mandatımız yoxdur, heç nə gözləməyin. Əlbəttə, məlumdur ki, söhbət heç də mandatdan getmir. Çünki Mirzoyan sözünə davam edərək demişdi ki, Ermənistan dövlətinin başlıca vəzifəsi Xankəndi ilə Bakının dialoq apara biləcək dəqiq platformasının və ya mexanizminin yaradılmasıdır.

Əlbəttə, erməni siyasi dairələri yaxşı anlayırlar ki, sülh danışıqlarının onların xeyrinə deyil. Gedişata etirazların Azərbaycan-Ermənistan nizamlamasının Qərb formatı çərçivəsində keçirilmiş görüşlərin nəticələrinə qəzəb bəsləmək fonunda ifadə edirlər və bildirirdilər ki, baş nazir Azərbaycanın Qarabağın da daxil olduğu 86,6 min kvadratkilometr ərazidəki suveren hüquqlarını tanımalı deyildi. Çünki bölgənin Ermənistana dəxli yoxdur və sair və ilaxır.

Lakin sonradan onlar valı dəyişdilər və tapıb çıxardılar ki, Paşinyanın Azərbaycanın ərazi bütövlüyünü 86,6 min kvadratkilometrdə tanıması Ermənistanın konstitusiyasına, ölkənin Müstəqillik bəyannaməsinə və digər sənədlərə ziddir. Görünür, Mirzoyan da bu səbəbdən parlamentdə büdcə müzakirələri zamanı çıxış edərkən, mandat məsələsini qondarıb məsuliyyətdən yaxa qurtarmaq fikrinə düşmüşdü. Yəni, demək istəmişdi ki, iqtidar konstitusiyaya zidd iş görmür.

Əlbəttə, vurğuladığımız məqam, daha dəqiq desək, erməni XİN rəhbərinin Xankəndi-Bakı dialoquna dəstək məntiqi manipulyasiya olmaqla, əslində Qarabağa status məsələsinə fərqli prizmadan yanaşmaq cəhdidir. Hər bir halda diqqətçəkən cəhət Paşinyanın Azərbaycanın Qarabağla birlikdə ərazi bütövlüyünü tanıdığını bildirməsindən sonra, onun buna ixtiyarının çatmadığını vurğulayanların, Mirzoyanın mandat söhbətindən sonra yenidən məsuliyyəti Ermənistan hakimiyyətinin üzərinə qoymalarıdır.

Məsələn, Ermənistanın üçüncü prezidenti Serj Sarkisyanın “Respublika” Partiyasının sədr müavini Armen Aşotyan bildirir ki, ölkənin XİN rəhbərinin bildirdikləri absurddur, manipulyasiyadır. O, fikrini əsaslandırmaq üçün 2020-ci ilin 44 günlük müharibəsindən əvvəlki dövrə ekskurs edir və Nikolun Qarabağdakı separatçı rejimin lideri Arayik Arutyunyanın “andiçmə mərasimində” söylədiklərini yada salır: “Arayik Arutyunyanın andiçmə mərasimi zamanı Nikol Paşinyan söz verdi: “2018-ci ilin “məxməri inqilabı” “Artsax”ın öz müqəddəratını təyinetmə hüququnun beynəlxalq səviyyədə tanınmasına töhfə verəcək”.



Əlbəttə, Paşinyan bildirə bilər ki, töhfə vermək istəyirdi, amma alınmadı. Mirzoyanın həyasızcasına yalan danışdığını deyən Aşotyan isə vurğulayır ki, Ermənistan əhalisi ölkənin baş nazirinə etimad göstərərkən, həm də ona Qarabağla bağlı inamını ifadə etmişdi və burada başlıca məqsəd bölgənin müstəqilliyinə nail olmaq idi. Paşinyan isə etimadı doğrultmadı. Deməli, buna görə hakimiyyətdən getməlidir. Hər halda aşotyanlar və onun kimilər belə deyir.

Əslində, erməni partiya funksionerini, müəyyən mənada haqlı saymaq mümkündür. Ona görə ki, Nikolun 44 günlük müharibədən əvvəl “Cəbrayıla yol çəkmək”, “Qarabağ Ermənistandır, nöqtə” və sair bu sayaq avantürist fikirləri olmuşdu. Hələ qeyri-ordinar hərəkətlər siyahısına Şuşada, Cıdır düzündə sərxoş olub yallı getməyi də əlavə etmək mümkündür. Paşinyan “dəmir yumruğ”un gücünü hiss etdikdən sonra ağlını başına yığdı. Həmin vaxtadək hər şey onun üçün, necə deyərlər, yağ kimi gedirdi.

Qeyd edək ki, A.Mirzoyanın məlum mandat bəyanatından sonra meydana bir sual da çıxırdı. Necə ola bilər ki, “Qarabağ xalqı”nın statusu ilə bağlı danışıq aparmaq mandatı olmayan Ermənistanın baş naziri Qarabağ ermənilərinin hüquq və təhlükəsizliyi ilə bağlı məsələləri Azərbaycanla danışıqlar müstəvisinə gətirməkdən dəm vurur? Bu mənada Ermənistanın Paşinyan iqtidarına əks mövqedə dayanmış qütbünün reaksiyası daha sərtdir. Sərtliyi özünə xas üslubda ifadə edən Aşotyanın sarsaqlamalarından belə nəticəyə gəlmək mümkündür ki, Mirzoyanın da təmsil olunduğu hakim komandanın danışıqlarda Qarabağ əhalisinin hüquq və təhlükəsizliyi məsələsini qabartması, guya, bu əhalinin haqlarını məhdudlaşdırmaqdır. “Nikol, sənin belə bir mandatın yoxdursa, nə haqqın var ki, “Artsax xalqı”nın Bakı ilə mümkün danışıqlar məzmununu hüquq və təhlükəsizliklə məhdudlaşdırırsan?”

Aşotyan kimi digər avantüristlərin gəldikləri bir qənaət də var. Amma bu qənaət çarəsizliyin göstəricisi olaraq özünü göstərməkdədir. Onlar Paşinyana da, Mirzoyana da, eləcə də hakim komandadakı digərlərinə təxminən belə bir sual ünvanlayırlar: əgər Ermənistan Azərbaycanla beynəlxalq gücə malik sənəd imzalamaq niyyətindədirsə və bu sənəd Qarabağ da daxil olmaqla, Azərbaycanın müstəqilliyinin tanınmasını özündə ehtiva edəcəksə, o zaman “Artsax xalqı” hansı geosiyasi gücün köməyi ilə öz müqəddəratını təyinetmə hüququnu müdafiə edə biləcək? Göründüyü kimi, erməni siyasi istebleşmentinin xəstəliyi keçmir. Əgər, xəstə təfəkkürləri bircə anlıq kənara qoysaydılar, Azərbaycan Prezidenti İlham Əliyevin fikirlərinə diqqət yetirərdilər. Dövlətimizin başçısı dəfələrlə bildirib ki, Ermənistana nə xaricdəki lobbi və diaspor təşkilatları, nə böyük kimi təsəvvürə gətirdiyi güclər kömək edə bilər.

**Ə.RÜSTƏMOV, “Xalq qəzeti”**

# Uğur diplomatiyası



(əvvəli 1-ci səhifədə)

Bəlkə də, oxuculardan kimsə Azərbaycanın bütün bunlara təkbaşına nail olduğu barədə söylədiyimiz fikirlə razılaşmayacaq. Məhz elə ona görə də xatırladaq ki, geridə qalan yetmiş ildə dünya diplomatları ancaq təmsil etdikləri ölkənin maraqları naminə fəaliyyət göstərirdilərsə, İlham Əliyev hamıya sübut etdi ki, əsl diplomatiya həm də bəşəri dəyərlərə xidmət etməlidir. Dövlət başçımız öz siyasi-diplomatik fəaliyyəti ilə bu düsturun həlli yollarını da göstərdi. Məhz elə ona görə də Azərbaycanın dostları gündən-günə çoxaldı və qardaş Türkiyə Cümhuriyyəti başda olmaqla, onlarca dövlət bizim haqq işimizi dəstəklədi və məqsədimizə çatdıq.

Biz həmin nümunəni necə göstərdik? Dünya ekspertləri Azərbaycan Prezidentinin koronavirus pandemiyası dövründə nümayiş etdirdiyi mənəvi zənginliyi də, siyasi əxlaqı da hələ unutmur. Dövlət başçımızın BMT tribunasından səsləndirdiyi islahat çağırışları da, ordusunu darmadağın etdiyimiz işğalçı dövlətə sülh əli uzatmağımız da hamının gözü qarşısındadır. Əslində biz ərazilərimizin 20 faizini viranəyə çevirmiş Ermənistanla heç bir danışığa getməyə bilərdik, ancaq sülh çağırışı etdik. İrəvan rəsmiləri bu humanist münasibəti, insani rəftarı anlaya bilməsələr də, dünya ictimaiyyəti gördü və alqışladı. Dünya siyasətçiləri və ekspertləri arasında Prezident İlham Əliyevin "Biz müharibə səhifəsini bağlamağa çalışırıq!"– tezisinin fərqinə varanlar çoxdur.

Bütün bunları xatırlatdıqdan sonra dövlət başçımızın təxminən doqquz il fərqlə səsləndirdiyi iki arqumentini, daha doğrusu, iki çıxışından seçdiyim fikirlərini yada salmaq istəyirəm. Birinci. Cənab Prezident 2014-cü il aprelin 25-də Praqada Avropa İttifaqının "Şərq tərəfdaşlığı" proqramının 5 illiyinə həsr olunmuş sammitdəki çıxışının sonunda dünya siyasətçilərinə Azərbaycan xalqı adından müraciət etmişdi: "Azərbaycan xalqı bir sual verir: Niyə Ermənistana sanksiyalar tətbiq edilmir? Niyə Avropa Şurasındakı Ermənistan nümayəndə heyəti səsvermə və söz hüququndan məhrum edilmir? Onlar digər bir ölkənin ərazilərini işğal ediblər, beynəlxalq hüquq normalarını pozurlar, BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsini kobud şəkildə pozurlar və heç bir sanksiya tətbiq edilmir, heç bir cəza verilmir. Qanunsuz, kriminal Dağlıq Qarabağ rejiminin qondarma nümayəndələri Avropa paytaxtlarına vizalar alırlar. Bu, dözülməzdir və buna son qoyulmalıdır".

O zaman "Xalq qəzeti" yazmışdı: "Təbii ki, son qoyulmalıdır və qoyulacaqdır. Biz buna əminik. Bu əminliyimiz isə dövlətimizin qüdrətindən, Prezidentimizin qətiyyətindən, xalqın iradəsindən və ən başlıcası bugünkü Azərbaycan həqiqəti olan "Xalq–İqtidar, İqtidar–Xalq" birliyindən qaynaqlanır. Biz inanırıq ki, Azərbaycan diplomatiyasının hücum taktikası tezliklə öz müsbət nəticələrini verəcəkdir".

İndi isə cənab Prezidentin bu il mayın 28-də Laçında – buraya qayıdan əhali ilə görüşdəki çıxışından bəzi məqamlara nəzər salaq: "Aprelin 23-də sərhəddə qoyulan sərhəd-buraxılış məntəqəsi bu gün Qarabağ bölgəsində yaşayan ermənilər üçün də bir dərs olmalıdır. Əfsuslar olsun, onlar bu günə qədər kiməsə arxalanırlar ki, kimsə gələcək onları xilas edəcək, kimsə gələcək Azərbaycanla müharibə aparacaq. Bunlar hamısı cəfəngiyyatdır. İkinci Qarabağ müharibəsi zamanı biz güclü iradə göstərmişik və əgər o vaxt heç kim bizə qarşı kənardan müdaxiləyə cürət etmədisə, bu gün bütün bu torpaqlara yenə də sahib olandan sonra kim gəlib ermənilərin yerinə bizimlə vuruşacaq? Birincisi, bu, qanunsuzdur. Biz öz doğma torpağımızdayıq və bu gün ermənilərin yaşadıqları Qarabağ bölgəsi bizim əzəli, hüquqi torpağımızdır. Sadəcə olaraq, biz hesab edirik ki, onlar özləri başa düşəcəklər, özləri gəlib Azərbaycan Bayrağı altında yaşamağa addım atacaqlar. Biz bunu gözləyirik. Ona görə hər hansı bir başqa addım atmırıq və hesab edirəm ki, iki il yarım ərzində baş vermiş hadisələr artıq onları da oyatmalıdır, bu yuxudan, bu xülyadan ayıltmalıdır".

"Xalq qəzeti" doqquz il əvvəl olduğu kimi yenə də öz münasibətini bildirir: "Biz əminik ki, daha heç kəs erməniləri müdafiə etməyəcək. İnanırıq ki, iki il yarım ərzində baş vermiş hadisələr artıq onları da oyadacaq, Ermənistan rəhbərliyi də, erməni kilsəsi də, onların ideoloqları da bu yuxudan, bu xülyadan ayılacaqlar. Çünki bunu zaman da tələb edir, Azərbaycanın yaratdığı yeni reallıqlar da".

***İttifaq MİRZƏBƏYLİ, "Xalq qəzeti"***

# Minalar həyat və sağlamlığa ciddi təhdiddir

**Ermənistan zaman-zaman azərbaycanlılara qarşı müxtəlif terror aktları törətmiş, günahsız insanların qətlinə və ömürlük şikəst qalmalarına bais olmuşdur. Faşist xislətli bu millətin mayası sanki terrordan tutulub. İşğalçı ölkə dünya ictimaiyyətinin yaddaşında XXI əsrin mina terrorunun yaradıcısı kimi qalıb. Düşünmək olardı ki, Vətən müharibəsindəki məğlubiyyətindən sonra Ermənistan bu qəddarlığından əl çəkəcək. Amma...**

İrəvanın mina terroru ilə beynəlxalq hüququ kobud surətdə pozması dünya birliyinin gözü qarşısında baş verir. Ancaq nüfuzlu beynəlxalıq təşkilatlar bu istiqamətdə də ikili mövqeyindən əl çəkmir, bu ölkənin beynəlxalq hüquq normalarına hörmətsizliyinə laqeyd yanaşırlar. Bu, danılmaz faktdır ki, Ermənistan "Müharibə qurbanlarının müdafiəsi haqqında" 1949-cu il 12 avqust tarixli Cenevrə konvensiyasını, 10 oktyabr 1980-ci il "Hədsiz zərərli sayıla bilən və ya seçimsiz nəticələrə malik ola bilən müəyyən adi silah növlərinin istifadəsinə qoyulan qadağalar və ya məhdudiyyətlər haqqında" Konvensiyanın İkinci Protokolunun tələblərini kobud şəkildə pozur. BMT-nin 1999-cu ildə qəbul etdiyi "Piyadalara qarşı minaların tətbiqi, ehtiyatının toplanması, istehsalı və verilməsinin qadağan edilməsi haqqında" Konvensiyanın müddəaları da Ermənistan tərəfindən açıq-aydın pozulur. Sözügedən konvensiyaya əsasən, münaqişə tərəfləri müharibə başa çatdıqdan sonra minalardan təmizlənəcək sahələrin xəritələrinin təhvil verilməsi, piyadalara qarşı minalardan istifadə etməyəcəkləri barədə öhdəlik götürüb. Təəssüf ki, İrəvan bu öhdəliyə də əməl etmir.

Otuz il ərzində Ermənistanın hərbi-siyasi rəhbərliyi bütün beynəlxalq konvensiyalara, hüququn norma və prinsiplərinə hörmətsizlik nümayiş etdirib. İşğal olunmuş ərazilərdə minalar elə quraşdırılıb ki, hadisə zamanı minaya düşən şəxsin sağ qalmaq ehtimalı olmasın. Bütün bunlarda məqsəd daha çox insan qətlə yetirmək üçün partlayışın dalğasını maksimum böyütməkdir. Ermənistan işğal etdiyi ərazilərdə hərbi təyinatı olmayan əraziləri də minalamışdı. Bu faktın özü Ermənistanın terrorçu xislətindən xəbər verir.

Azərbaycan torpaqlarını işğaldan azad etdiyi kimi, onu minalardan təmizləməyi də bacaracaq. Ermənistan isə nə qədər gec deyil, terrorçuluqdan əl çəkməli, səylərini təhlükəsiz, firavan, sabit region yaratmağa yönəltməlidir. Düşmənin bütün cəhdlərinə baxmayaraq, Azərbaycan öz ərazilərini minalardan təmizləyir, işğaldan azad edilmiş torpaqları təhlükəsiz, yararlı hala gətirir, soydaşlarımız doğma dədə-baba yurdlarına qayıdırlar. Bu işlərdə ərazilərin minalardan təmizlənməsində fəaliyyət göstərənlərin əməyi xüsusi qeyd edilməlidir.

Bugünlərdə Milli Məclis "Minatəmizləmə sahəsində xidmətlərə görə" Azərbaycan Respublikasının medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikası orden və medallarının təsis edilməsi haqqında" Qanununda dəyişiklik edib.

***Ə.BƏDƏLOV, "Xalq qəzeti"***

### *Ekspert rəyi*



**Nizami SƏFƏROV, Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü**

–Azərbaycan Respublikasının Prezidenti qanunvericilik təşəbbüsü qaydasında "Minatəmizləmə sahəsində xidmətlərə görə" Azərbaycan Respublikası medalının təsis edilməsi ilə bağlı "Azərbaycan Respublikasının orden və medalları haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini Milli Məclisin müzakirəsinə təqdim etmiş və qəbul olunmuşdur.

Dövlət başçısının belə bir zəruri təşəbüslə çıxış etməsi xüsusi rəmzi məna daşıyır. Müasir şəraitdə minalar və müharibənin partlayıcı qalıqları dünyanın bir çox regionlarında, ilk növbədə, mülki əhalinin həyat və sağlamlığına, inkişafa, tərəqqiyə ən ciddi təhdiddir. Azərbaycan dünyada minalarla çirkləndirilmiş ölkələr sırasında ilk yerlərdən birini tutur. 1991-ci ildən 2023-cü il mayın 2-dək Ermənistanın törətdiyi beynəlxalq cinayətlərin bariz nümunəsi olan minalanma fəaliyyəti nəticəsində 3377 nəfər vətəndaşımız zərər çəkmişdir. Onlardan 358-i uşaq, 38 nəfəri qadındır. 2020-ci ilin 10 noyabrından, yəni üçtərəfli Bəyanat imzalandığı tarixdən bugünədək 140 mülki şəxs və 161 nəfər hərbi qulluqçu, ümumilikdə, 301 nəfər mina partlayışları nəticəsində həlak olmuş və ya müxtəlif dərəcəli bədən xəsarətləri almışdır.

Göründüyü kimi, mənfur qonşu Azərbaycana qarşı hələ də mina müharibəsini davam etdirir. 2022-ci ilin avqust ayından başlayaraq Azərbaycan tərəfi Kəlbəcər və Laçın istiqamətində 3 minə yaxın mina aşkarlamışdır ki, bunların işarələnməsi birmənalı olaraq həmin sursatların 2021-ci ildə Ermənistanda istehsal olunduğunu sübut edir. Ümumilikdə, 44 günlük Vətən müharibəsi başa çatdıqdan sonra 77 min 890 hektar ərazi minadan təmizlənib, 87 min mina və partlamayan hərbi sursat aşkarlanıb.

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi bu istiqamətdə öz fəaliyyətini davam etdirir. Həmçinin dövlətimiz minatəmizləmə sahəsində bir sıra ölkələr və beynəlxalq təşkilatlarla səmərəli əməkdaşlıq edir. Minatəmizləmə Agentliyi Türkiyə Respublikası, Böyük Britaniya mütəxəssisləri, ABŞ-ın Aerokosmik Mühəndislik Korporasiyası, Cenevrə Beynəlxalq Humanitar Minatəmizləmə Mərkəzi və digər dövlətlərin müvafiq qurumları ilə əməkdaşlıq edir. Həmçinin Avropa İttifaqı, BMT-nın İnkişaf Proqramı və Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi ölkəmizdə məcburi köçkünlərin doğma yurdlarına təhlükəsiz qayıdışının dəstəklənməsi məqsədilə yeni layihəni icra etməyə başlayıb.

Minatəmizləmə mühüm fəaliyyət növüdür və bu sahədə fəal iştirak edən, səmərəli əməkdaşlığa əhəmiyyətli töhfə verən, dövlətimizin beynəlxalq əlaqələrinin inkişaf etdirilməsinə və möhkəmləndirilməsinə görə Azərbaycan Respublikasının vətəndaşları, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər adıçəkilən medalla təltif oluna bilərlər.

# Nikol–Araik qarşıdurması: kələfin ucu Şimala uzanır

## *Sülh sazişini tanımayacağını bəyan edən separatçı rejimin hansı diktə ilə hərəkət etdiyi məlumdur*

**Prezident İlham Əliyevin mayın 28-də Laçın şəhərinə qayıdan əhali ilə görüşdəki çıxışı Azərbaycanın Qarabağ iqtisadi rayonunun Rusiya sülhməramlılarının müvəqqəti məsuliyyəti altında olan hissəsindəki etnik ermənilər arasında böyük rezonans doğurduğu məlumdur. Qeyd edək ki, dövlətimizin başçısı Vətən müharibəsindən ötən müddət ərzində bütün planlarımızın ardıcıllıqla, tədricən həyata keçdiyini bildirmişdi. Prezident əlavə etmişdi ki, biz öz planlarımızın son addımlığındayıq və o addım da atılacaq. Cənab İlham Əliyevin qətiyyəti Azərbaycanın suverenliyinin Qarabağ iqtisadi rayonunun bütün ərazisində tam bərqərar olacağına, Xankəndidə dövlət bayrağımızın ucaldılacağına, habelə yaxın vaxtlarda Ermənistanla sülh sazişinin imzalanacağına əminlik yaradır. Təsadüfi deyil ki, ölkənin xarici işlər naziri Ceyhun Bayramov iyunun 6-da ATƏT-in Daimi Şurasının xüsusi iclasında çıxışı zamanı Bakı və İrəvanın sülhə yaxın olduğunu bildirib. Onun sözlərinə görə, son danışıqlar tərəflərə bir-birini daha yaxşı başa düşməyə kömək edib: "Ermənistanın təcavüzü nəticəsində, təxminən otuz il davam etmiş silahlı münaqişənin başa çatması və öz müstəqilliklərini bərpa etdikdən sonra ilk dəfə olaraq bir-birinin suverenliyinə, ərazi bütövlüyünə və sərhədlərinin toxunulmazlığına qarşılıqlı hörmət öhdəliyi ilə iki ölkə sülhün astanasındadır".**

### Separatçıların yuxusu ərşə çəkilib



Ancaq Ermənistan cəmiyyətində Azərbaycanla sülhə, eləcə də Qarabağdakı ermənilər arasında reinteqrasiya prosesinə münasibət birmənalı deyil. Sadə ermənilər sülh tərəfdarıdırlar. Ermənistan əhalisinin müharibədəki məğlubiyyətə rəğmən, iki il öncə – 2021-ci il iyunun 20-də keçirilmiş növbədənkənar parlament seçkisində Nikol Paşinyana səs verməsi də bunun göstəricisi sayıla bilər. Ancaq başında Qarabağ klanının dayandığı radikallar, revanşistlər, daşnaklar və Paşinyana müxalif olan digər qüvvələr mütərəqqi prosesin reallaşmasına imkan vermək istəmirlər.

Cənab İlham Əliyevin təslim olacaqları təqdirdə separatçı rejimin nümayəndələrinə amnistiya şamil oluna biləcəyinə dair fikirlərinin ABŞ tərəfindən alqışlanması isə separatçıları lap hiddətləndirib. Necə deyərlər, yuxuları ərşə çəkilib.

### Vardanyan var gücü ilə reinteqrasiyanın qarşısını almağa çalışır

Qarabağda yuxusu ərşə çəkilənlərdən biri xüsusi missiya ilə bölgəyə göndərilmiş, oğurluq milyardlara sahib Ruben Vardanyandır. Azərbaycanın qəti tələbi, prinsipial mövqeyi Vardanyanın 2023-cü ilin fevral ayında qondarma rejimin "dövlət naziri" postundan getməsi ilə nəticələndi. Bu "istefa"dan cəmi 5 gün əvvəl – fevralın 18-də Münxen Təhlükəsizlik Konfransı çərçivəsində "Dağları aşmaq? Cənubi Qafqazda təhlükəsizliyin qurulması" mövzusunda plenar iclasda Prezident İlham Əliyev demişdi: "Biz Qarabağdakı erməni icmasının nümayəndələri ilə praktiki təmaslara başlamağa hazırıq. Bu gün Dövlət katibi Blinkenin qarşısında mən Ermənistandan olan həmkarıma bu barədə dedim. Lakin biz bunu o zaman edə bilərik ki, Rusiya vətəndaşı, cinayətkar oliqarx, Avropada çirkli pulların yuyulmasında əli olan şəxs – Vardanyan bizim ərazimizi tərk etsin". Beləliklə, "status" tarixin arxivinə gömüldüyü, müstəqillik xülyası statusun dalınca getdiyi, "Miatsum", separatizm kitabı bağlandığı kimi, Vardanyan da "dəfnə yarpağı"tək çıxdaş durumdadır. Ancaq o, son vaxtlar yenidən siyasi proseslərə boz rəng qatmaq istəyir. Ruben iyunun 1-də, yəni Kişineuda beştərəfli görüşün keçirildiyi gün "Artsax təhlükəsizlik və inkişaf cəbhəsi" adlı qondarma ictimai hərəkatın təsis yığıncağını keçirib. Görünür, rəsmi Bakının tələbi ilə "vəzifə"sindən uzaqlaşdırıldığı üçün Azərbaycana və azərbaycanlılara nifrəti artıq şəxsi müstəviyə keçib.

Vardanyan son vaxtlar verdiyi açıqlamalarda hətta separatçı rejimin "qlavar"ı Arayik Arutyunyandan da "irəli gedir". Necə deyərlər, papadan daha artıq katoliklik edir. Məsələn, rəhbəri olduğu qurama təşkilat iyunun 6-da A.Arutyunyana tələblər ünvanlayıb. "Artsax vətəndaşları"nın Laçın yolunda yerləşən Azərbaycanın sərhəd nəzarət-buraxılış məntəqəsindən keçməsi ilə bağlı qərara dərhal yenidən baxılmasını tələb edib. İyunun 4-dən etibarən Qarabağ erməniləri Laçın yolunda yerləşən Azərbaycanın nəzarət-buraxılış məntəqəsindən keçməklə Ermənistana gedib-gəlirlər. Vardanyanın sarsaq məntiqinə görə, bu, qırmızı xəttin keçilməsidir. Sən demə, "Artsax prezidenti" nə zamansa Ermənistanla fasiləsiz və məhdudiyyətsiz əlaqəni təmin etməyi qırmızı xətt elan edibmiş. "Mövcud vəziyyəti nəzərə alaraq minlərlə tərəfdarımız (?) adından "Artsax hakimiyyətindən" tələb edirik ki, Laçın yolunda yerləşən Azərbaycan buraxılış məntəqəsindən vətəndaşlarımızın keçirilməsi ilə bağlı qərara dərhal yenidən baxılsın. Həmçinin, ictimai müzakirələr aparılmadan, həmin qərarlardan irəli gələn təhlükələri araşdırmadan strateji əhəmiyyət kəsb edən qərarların qəbul edilməsi kimi çirkin fenomendən əl çəkilsin", – deyə tələbdə bildirilib.

R.Vardanyan deyib ki, Ermənistanda heç bir hökumət Qarabağ erməniləri və bütün ermənilər olmadan "Artsax"ın taleyi ilə bağlı qərar qəbul etmək səlahiyyətinə malik deyil: "Bu barədə danışan tək mən deyiləm. Bunu Ermənistanın, "Artsax"ın və erməni dünyasının müxtəlif təşkilatlarının və ayrı-ayrı şəxslərinin, bizim kilsəmizin, Kilikiya Böyük Evinin ali ruhani şurasının və katolikosluğunun Ermənistan hakimiyyətinin "Artsax"ın Azərbaycan ərazisi kimi tanınması ilə bağlı açıqlamasını pisləyən bəyanatları sübut edir".

Sözsüz ki, R.Vardanyanın bu tələbi və səsləndirdiyi fikirlər absurdun kulminasiyasıdır və faktiki olaraq prosesləri qəsdən gərginləşdirmək məqsədi daşıyır. Həmçinin, Qarabağ ermənilərinin Azərbaycan cəmiyyətinə reinteqrasiyasının qarşısını almağa xidmət edir.

### Paşinyanla Arayikin münasibətləri soyuyub

Son dövrlər Nikol Paşinyanla A.Arutyunyanın bir vaxtlar mövcud olmuş isti münasibətlərindən əsər-əlamət qalmayıb. Görünür, N.Paşinyanın mayın 22-də keçirdiyi mətbuat konfransında Azərbaycanın 86,6 min kvadratkilometrlik ərazisinə Qarabağın da daxil olduğunu bəyan etməsi öz sözünü deyib. A.Arutyunyan baş nazirin açıqlamalarına yalnız iki gün sonra münasibət bildirib və Ermənistan hakimiyyətinə müraciətində yenə də "müstəqillik, xalqın öz müqəddəratını təyinetmə hüququ və suverenlik" nağılından dəm vurub: "Vəziyyət çətindir, lakin ümidsiz deyil və "Artsax hakimiyyəti" xarici və daxili çağırışlarla üzləşməmək üçün mümkün praktiki addımlar atır və atacaq. Biz Ermənistan hakimiyyətini "Artsax"ı Azərbaycanın bir hissəsi kimi tanımaq üçün hər hansı hərəkət və bəyanatdan çəkinməyə çağırırıq". Arutyunyan müraciətində Paşinyanın adını çəkməməsi, sadəcə Ermənistan rəhbərliyinə çağırış etməsi də diqqəti çəkməkdədir. Digərlərindən fərqli olaraq, o, Paşinyanı milli maraqlara xəyanət etməkdə suçlamayıb.

Bu arada Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanın iyunun 5-də parlamentdə müzakirələr zamanı səsləndirdiyi fikirlər geniş müzakirələr doğurub. O qeyd edib ki, rəsmi İrəvan Qarabağ xalqından (?) onun gələcəyi ilə bağlı danışıqlar aparmaq üçün mandat almayıb. "Ona görə də bizim onların statusu ilə bağlı məsələni həll etmək hüququmuz yoxdur, biz bunu iddia etməmişik və etməyə çalışmırıq. Ermənistan-Azərbaycan nizamlanması prosesində təmin etməyə çalışdığımız yeganə şey budur: bu nizamlanma Azərbaycan və Qarabağ xalqı (?) üçün vacib olan bütün məsələlərlə bağlı dialoqun başlanması üçün platforma yaratmasa, real, tamhüquqlu, uzunmüddətli və davamlı ola bilməz".

Beləliklə, proseslər separatçı rejimin İrəvanın tabeliyindən çıxmağa doğru getdiyini göstərir. Onsuz da tabeçilik indiyədək maddi maraqlar əsasında idi. Bakı–İrəvan danışıqlarının son mərhələsində isə ziddiyyətlər özünün kulminasiya nöqtəsinə çatıb. Separatçıların müxtəlif nümayəndələrinin oxşar bəyanatlarının haradan körükləndiyi, haradan diktə edildiyi bəllidir. Bunu İrəvanda da, Bakıda da, o cümlədən Brüssel və Vaşinqtonda da çox yaxşı bilirlər. Bakının Qarabağdakı erməni icması ilə dialoq təşəbbüslərini iflasa uğradan da həmin güc mərkəzidir. Ancaq Şimalın soyuq küləkləri Qarabağda mülayim mehin əsməsinə maneçilik törətməyəcək.

**Səxavət HƏMİD, "Xalq qəzeti"**

### *Ekspert rəyi*



**İlqar VƏLİZADƏ, politoloq**

– Ermənistan hakimiyyəti təzadlı siyasət aparır. Bir tərəfdən Qarabağ ermənilərinin adından danışmağa mandat almadıqlarını, digər tərəfdən bölgənin blokadada olduğunu, məsələni tənzimləmək üçün hansısa beynəlxalq qüvvələrin regiona gəlməsinin zəruriliyini bildirirlər. Digər tərəfdən, qondarma rejim İrəvanı onu müdafiə etməməkdə ittiham edir. Eyni zamanda, rejimin adından heç kimin danışmağa hüququnun olmadığını car çəkirlər. Yalan üzərində qurulan saxta ideologiyanın axırı belə də olmalıdır.

Nikol Paşinyan Qarabağ adlı yükü üzərindən atmağa çalışır. Digər tərəfdən, bunu edə bilmir. Buna cəsarət lazımdır. Yarımçıq addımlarla, söz-söhbətlə nə isə etmək olmaz. İrəvandan yenə də separatçı rejimə yardımlar gəlir. Onun təxminən yarım milyard dollarlıq büdcəsini Ermənistan təmin edir. Separatçıların özlərini dolandırmaları üçün heç bir resursları yoxdur. Belə təzadlı siyasət son nəticədə bu cür çaxnaşmalara gətirib çıxarır. Eyni zamanda, qondarma rejim özü daha çox Rusiyadakı erməni diaspor və lobbisinə bağlıdır. Fikir verisinizsə, son vaxtlar Rusiyadakı erməni lobbisinə bağlı şəxslərin bir çox nümayəndəsi rejimi, orada yaşayan erməniləri müdafiə edir. Bu, ona görə baş verir ki, illərdir Qarabağda separatizmi dəstəkləyən əsas qüvvələr Rusiyadadır. Bunu Konstantin Zatulinin və digərlərinin fikirlərindən də görmək mümkündür. Ancaq onlar başa düşməlidirlər ki, 44 günlük müharibə regionda yeni reallıq yaradıb. Dünyada və regionda gedən geosiyasi proseslər illərlə yalan üzərində qurulmuş tandemləri darmadağın edib. Nəticədə həm dünya erməniləri daxilində siyasi böhran yaranıb, həm də İrəvanla separatçı rejim arasında.

# Ümummilli liderin halallıq sevgisi

**...Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyev 1980-ci ildə Əməkdar inşaatçı Məmməd Hüseynova Sosialist Əməyi Qəhrəmanının "Qızıl Ulduz"unu və ikinci Lenin ordenini təqdim etdi. 18 il sonra – 1998-ci ildə tale onları yenidən, bu dəfə Masallıda görüşdürdü. Prezident və onun seçicisi kimi. Zəhmətə layiqli qiymət verən dahi rəhbər və zəhməti ilə tanınmış sadə fəhlə obrazları beləcə göz önündə yenidən canlandı. Bu tarixi görüşün sonuncu olacağını heç kim bilməzdi. Haqq olan əcəlin nə zaman, nə də məkan anlayışı var.**



Bəxtinə Ulu öndərlə eyni gündə – mayın 10-da anadan olmaq düşmüş Məmməd Hüseynov Masallı rayonunun Xırmandalı kəndindən Bakıya köçərək orada tikdiyi binalarda, sözün əsl mənasında, silinməz avtoqraflar qoyub. AzTV-nin inzibati binası, A.Şərifzadə adına "Aktyorlar evi", "Yaşıl teatr", Parlament binası, C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyası, geoloqlar üçün doqquzmərtəbəli yaşayış evi, Respublika Eksperimental Tibb Mərkəzi, Lökbatan, Sahil, Korgöz qəsəbələrində orta məktəb binaları, Gəmi təmiri zavodu, Binəqədi, Suraxanı, Yasamal və Qaradağ rayonlarında onlarca məktəb binaları, körpələr evi, uşaq bağçaları, mədəni-məişət obyektləri onun əlinin izlərini yaşadır.

Ulu öndərlə canlı ünsiyyətləri barədə Məmməd əmi həmişə iftixarla danışar, diqqət və qayğısını yüksək dəyərləndirərdi. Bu barədə onun özəl xatirələri, eləcə də şahidlərin söylədikləri kitab və qəzet materiallarında özünə yer edib. Məsələn, mərhum yazıçı-publisist Hacı Ağəddin Mənsurzadənin qələmə aldığı xatirədən bir fraqmentdə oxuyuruq: "Biz onunla mərhum Nəsir İmanquliyevin sayəsində tanış olmuşduq. Nəsir müəllim çox istəyirdi ki, Məmməd Hüseynov haqqında o vaxt – 1984-cü ildə kitab yazılsın..." Elə də oldu. Həmin kitaba M. Hüseynovun şərəfli ömür yolundan bəhs edən "Halal adam" sənədli povesti ilə yanaşı, onun Azərbaycan KP MK-nın birinci katibi Heydər Əliyevlə görüşləri haqqında xatirələr də daxil edilib.

Həmin xatirələrin birini dövlət xadimi, tarix elmləri doktoru Həsən Həsənov belə qələmə almışdır: "Mən Gəncə Şəhər Partiya Komitəsinin birinci katibi olanda bir dəfə MK-dan zəng vurub, Məmməd Hüseynovun Gəncədə olduğunu və Heydər Əliyevin onu axtardığını bildirdilər... O vaxt Məmmədin bir inşaatçı dostu vardı – İlyas Quliyev. Gəncə Şəhər Sovetinin sədri seçilmişdi. Ona zəng etdim... Dedi, Həsən müəllim, elə indi kabinetimin qapısı açıldı, Məmməd içəri girdi... Bir neçə dəqiqədən sonra Məmməd gəldi... O mənim kabinetimdən Heydər Əliyevlə danışdı. Məlum oldu ki, respublika rəhbərinin başçılıq etdiyi nümayəndə heyəti qonşu ölkəyə yola düşməyə hazırlaşır. Nümayəndə heyətinin tərkibində olan Sosialist Əməyi Qəhrəmanı Məmməd Hüseynovu Bakıda axtarıblar, soraqını Gəncədən alıblar. Hiss etdim ki, Heydər Əliyev səfərqabağı onu görmək istəyir. Ona görə də Məmməd təcili Bakıya yola düşdü..."

Həmin nümayəndə heyətində görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyeva, akademik Cəmil Quliyev, Azərbaycan KP Lənkəran Şəhər Komitəsinin birinci katibi İsa Məmmədov da təmsil olunmuşdu. Qonşu respublikaya səfər zamanı Heydər Əliyev xəbər tutur ki, Məmməd Hüseynovun oğlu burada hərbi xidmətdədir. Və öz qol saatını əsgərə hədiyyə etmək üçün Məmməd Hüseynova verir.

Bu fikir isə vaxtilə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri vəzifəsində çalışmış Süleyman Tatlıyevə məxsusdur: "Mənim fikrimcə, M.Hüseynov öz xeyirxah əməlləri ilə Hacı titulunu elə Bakıda – quruculuq işləri göründə qazanmışdı."

Xalq yazıçısı İmran Qasımov isə deyirdi: "Məmməd hazırca qəhrəmandır ki, gözümüzün qarşısında durub. Eləcə "əlindən tutub" povest, roman səhifələrinə gətirən lazımdır".

Məmməd Hüseynov Xalq artisti Nəsibə xanım Zeynalova, Xalq rəssamı Mikayıl Abdullayev, Əməkdar elm xadimi, AMEA-nın müxbir üzvü Qaraş Mədətovla qonşuluqda yaşayırdı. İnşaat meydançasında bu zəhmətkeş insanın portretini yaradan M. Abdullayev qonşusu haqqında deyirdi ki, insan həyatda müşahidəçi yox, iştirakçı olmalıdır. Məmməd məni ikinci mənada çox düşündürdü... Axır ki, ürəyim güc gəldi. Ürəyim məni fırçaya, kətana sarı çəkdi...

Mərhum şair-publisist Səyavuş Sərxanlının "Əməkdar inşaatçı", "Sosialist Əməyi Qəhrəmanı" fəxri adlarını şərəflə daşımış Məmməd Hüseynovun haqqında "Ulduz" jurnalının 1976-cı il 6-cı sayında dərc etdirdiyi "Yaxşılıq poeması" bu sözlərlə bitir: "Yaxşılıq əks-səda kimidir, mütləq sahibinə qayıdır..." Professor Zeydulla Ağayev M.Hüseynovu "Allahın seçdiyi adam" adlandırırdı.

Ulu öndər Məmməd Hüseynovu təkcə zəhmət adamı kimi tanımırdı, həm də onun Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin sədri olmuş Mirbəşir Qasımovla qohumluq əlaqələrindən, el-oba üçün etdiyi xeyirxahlıqlardan xəbərdar idi.

Qarabağ münaqişəsi başlananda o bir ictimai xadim kimi millətimizin üzləşdiyi çətinlikləri ürək ağrısı ilə yaşadı. 28 iyun 1988-ci il tarixli "Veçernaya Moskva" qəzetində XIX Ümumittifaq partiya konfransının nümayəndəsi kimi çıxışında "Emosiyalar pis məsləhətçidir", – deyərək Dağlıq Qarabağda baş verən oyuncaq tətillərə etirazını bildirmişdi.

Bəli, kişilər getsə də, dünyada kişilik qalır, insan ölsə də, insanlıq qalır. Ömür yoluna ümummilli liderin nur saçdığı M.Hüseynovun həyatı böyük bir sənədli romanın, kino əsərinin mövzusudur.

***Nurəddin ƏDİLOĞLU,***
***yazıçı-publisist***

# Ulu öndərin vətənində unudulmaz görüşlər

**Ölkəmizdə "2023 – Heydər Əliyev İli" çərçivəsində ümummilli liderin anadan olmasının 100 illiyi ilə bağlı onun vətəni Naxçıvanda keçirilən silsilə tədbirlərdə paytaxtdan getmiş ziyalı qrupları da fəal iştirak edir. Ölkənin tanınmış alim, pedaqoq və yaradıcı adamlarının qədim diyarda olması yubiley mərasimlərinə yüksək təntənə gətirir, müxtəlif görüşlərə və səmimi təmaslara da səbəb olur.**

Tanınmış dilçi alim və şairə, Azərbaycan Dövlət Pedaqoji Universitetinin beynəlxalq əlaqələr üzrə prorektoru, filologiya elmləri doktoru, professor Mahirə Nağıqızı muxtar respublikaya budəfəki gəlişi zamanı Naxçıvan Dövlət Universitetində keçirilən yubiley mərasimində və elmi konfransda ulu öndərin liderlik fəaliyyətində önəmli yer tutan ana dili siyasəti barədə məruzələrlə çıxış etdi, bu mövzuda yeni çapdan çıxmış kitabını iştirakçılara və tələbələrə hədiyyə etdi.



Sonrakı gün Naxçıvan Dövlət Universitetində keçirilən, 15 ölkədən 300-dən çox məruzəçinin iştirak etdiyi I Beynəlxalq İpək yolu konfransında isə çalışdığı ADPU-nun heyətinə rəhbərlik edən professor Mahirə Nağıqızı ulu öndər Heydər Əliyevin türk dünyası qarşısında tarixi xidmətlərindən, dostluq və əməkdaşlıq çərçivəsində türk dünyası ilə bağlı tədbirlərin, eyni zamanda, tarixi İpək yolunun canlandırılmasına dair müxtəlif layihələrin həyata keçirilməsinin vacibliyini vurğuladı.



Muxtar respublikanın təhsil ocaqları, xüsusən ali məktəbləri ilə sıx əlaqə saxlayan Mahirə xanımın NDU-da olması fürsətini qaçırmayan tələbələr Azərbaycan dilinin cəfakeş tədqiqatçısı, Prezident təqaüdçüsü, populyar şeirlər və bir sıra mahnı mətnlərinin müəllifi ilə səmimi görüş də keçirdilər.

Görüşdə NDU-nun kollektivindən əlavə, AMEA Naxçıvan bölməsi və Azərbaycan Yazıçılar Birliyi Naxçıvan şöbəsinin təmsilçiləri, şəhərdə təhsil alan digər tələbələr, eləcə də ictimaiyyət nümayəndələri də iştirak edirdi. Məclisi giriş sözü ilə açan NDU-nun rektoru, dosent Elbrus İsayev Mahirə Nağıqızının elmi və bədii yaradıcılığı, ölkə və xarici təhsil layihələrində fəal iştirakı haqqında danışdı.

Tarix-filologiya fakültəsinin dekanı, dosent Arif Ağalarov Mahirə Nağıqızı yaradıcılığı haqqında geniş məruzə etdi. NDU-nun dosenti Xanəli Kərimov, AMEA-nın aparıcı elmi işçisi Ramiz Qasımov, AMEA Naxçıvan bölməsi Dilçilik İnstitutunun direktor müavini, dosent Elxan Yurdoğlu, Naxçıvan Müəllimlər İnstitutunun dil və ədəbiyyat kafedrasının müdiri, dosent Həsənəli Eyvazov, dosent Ruhəngiz Əliyeva Mahirə Nağıqızının elmi və bədii yaradıcılığının ali məktəb üçün önəmli tərəflərindən, tələbələr üçün elmi və estetik dəyərindən söz açdılar.

NDU-da Mahirə Nağıqızının sözlərinə bəstələnmiş mahnılardan ibarət "Qarabağ Azərbaycandır" adlı konsert də keçirildi. "Azərbaycan", "Vətən", "Qarabağım güləcək", "Qarabağ Azərbaycandır", "Könlümdə biri var", "Gözlərimin etibarı çox imiş", "Dönüm başına dolanım", "Gözəl", "Yar" mahnıları tamaşaçılarda yüksək əhval yaratdı, alqışlarla qarşılandı.

Səfər zamanı Mahirə Nağıqızı AMEA Naxçıvan Bölməsinin nailiyyətləri ilə də tanış oldu. Burada keçirilən görüşdə bölmənin sədri, akademik İsmayıl Hacıyev və digər çıxış edənlər fəxri qonağın elmi və bədii yaradıcılığına, geniş ictimai fəaliyyətinə nəzər saldılar, alimə daha böyük yaradıcılıq uğurları arzuladılar.

Sonda Mahirə Nağıqızı göstərilən diqqətə və xoş sözlərə görə minnətdarlığını bildirdi, ulu öndərin vətənində keçən günlərin, yubiley tədbirlərinin, elmi məclislərin və görüşlərin onda unudulmaz təəssürat yaratdığını, muxtar respublikaya sevgisini daha da artırdığını söylədi.

***Gülşən BEHBUD,***
***"Milli Dəyərlər üzrə Maarifləndirmə" İctimai Birliyinin sədri***

# Los-Ancelesdə yubiley mərasimi



**Azərbaycanın Müstəqillik Günü və ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi Los-Ancelesdə təntənəli şəkildə qeyd olunub.**

Tədbirdə ABŞ siyasi xadimləri, Dövlət Departamentinin və Los-Anceles Vilayətinin rəsmiləri, müxtəlif xarici ölkələrin baş konsulları, tanınmış elm və mədəniyyət xadimləri, jurnalistlər, Azərbaycan icmasının üzvləri, həmçinin dost türk, yəhudi, Pakistan və digər icmaların rəhbərləri iştirak ediblər.

Azərbaycanın baş konsulu Ramil Qurbanov Azərbaycan tarixində olduqca əlamətdar olan iki hadisə, ilk respublikamızın yaranması, nailiyyətləri və ümummilli lider Heydər Əliyevin müasir Azərbaycanın dövlət quruculuğunda rolu haqqında məlumat verib.

Sonra çıxış edən Los-Anceles Konsulluq Korpusunun duayeni Kosmin Dimitresku (Cosmin Dimitrescu), konsulluq korpusu adından bütün azərbaycanlıları Müstəqillik Günü və ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə təbrik edib.

Tədbirdə, həmçinin Heydər Əliyevin həyatı ilə bağlı film təqdim edilib və şəkillərdən ibarət sərgi təşkil olunub.

# Əfsanəvi azərbaycanlı Braziliya mətbuatında



**Azərbaycanın Braziliyadakı səfirliyinin dəstəyi ilə ölkənin paytaxtında ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyi ilə əlaqədar tədbir keçirilib.**

Azərbaycan həqiqətlərinin Braziliyada təbliğ olunması və məlumatlılığın artırılması üçün daim çalışan Braziliya Beynəlxalq Münasibətlər üzrə Jurnalistlər Assosiasiyasının prezidenti Fabiana Ceyhanın dəstəyi ilə 20 nüfuzlu media orqanının, o cümlədən "TV Globo", "Jornal O Globo", "São Paulo Band", "Poder 360", "Jovem Pam", "Brasilia in Foco", "Embassy News", "Brazilian News", "Alo Brasilia", "Radar digital", "Portal R10"un təmsilçilərinin tədbirdə iştirakı təmin edilib.

Səfiri Rəşad Novruz ümummilli liderin zəngin və çoxşaxəli irsi barədə məlumat verib. Görüşdə əfsanəvi azərbaycanlıya həsr olunmuş videogörüntülər nümayiş etdirilib, onun həyatını və siyasi fəaliyyətini əks etdirən fotoşəkillər sərgilənib.

Tədbirdən sonra Heydər Əliyevin anadan olmasının 100 illiyi ilə əlaqədar yerli TV-lərdə süjetlər yayımlanıb, KİV-də məqalələr dərc olunub.

***"Xalq qəzeti"***

# İordaniyada Heydər Əliyevə həsr olunmuş poçt markalarının sərgisi olacaq

**Azərbaycanın İordaniya Haşimilər Krallığındakı səfirliyi və İordaniya Dövlət Poçt Departamentinin birgə təşkilatçılığı ilə paytaxt Əmman şəhərində ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə və Azərbaycan–İordaniya diplomatik münasibətlərinin qurulmasının 30-cu ildönümünə həsr olunmuş "Azərbaycanın poçt markaları" adlı sərgi keçiriləcək. Açılış mərasimi iyunun 13-də İordaniya Poçt muzeyində olacaq.**

İyunun 21-dək davam edəcək sərgidə Azərbaycanın sovet dövründə və müstəqillik illərində nailiyyətlərini əks etdirən, həmçinin görkəmli şəxsiyyətlərə həsr olunmuş poçt markaları nümayiş etdiriləcək.

Sərgi haqqında anons materialı İordaniyanın "Petra" rəsmi informasiya agentliyi, müxtəlif qəzet və saytlarda dərc olunub.

***"Xalq qəzeti"***



# Sülhdən qorxanların “Şər nəğmələri”



*Ekspert rəyi*



**Rasim MUSABƏYOV, Milli Məclisin deputatı, politoloq**

Moskvada ekspertlərin nə danışdıqlarının bizim üçün heç bir əhəmiyyəti yoxdur. Onlara şərh verməyə də dəyməz. O ki qaldı Kremlin mövqeyinə, biz Azərbaycan-Ermənistan münasibətlərində onun rolunu inkar etmirik. Bəli, Rusiyanın Qarabağda sülhməramlı hərbi kontingenti mövcuddur və hələ iki il yarım orda qalacaqlar. Faktı hələlik kənara qoya bilmərik. Moskva həm də Ermənistanın sərhədlərini mühafizə edən, dəmir yollarını idarə edən bir dövlətdir. Yəni, bu amilləri mütləq nəzərə almaq lazımdır.

Azərbaycan süni şəkildə Rusiyanı sülh danışıqlarından kənarlaşdırmağa səy göstərmir. Əslində, bu yöndə mənfi impulslar ora İrəvandan gedir. Moskva və İrəvan arasında davam edən gərginlik isə xeyrimizədir. Amma Bakı Avropa İttifaqının və Vaşinqtonun dialoq üçün pozitiv səylərini də kənara qoymur. Yəni, Azərbaycan sülh prosesinin hər üç platformasında danışıqları aparmağa hazırdır. Bizə real nəticə lazımdır. İyunun 12-də Vaşinqtonda keçiriləcək Ermənistan-Azərbaycan danışıqları da buna xidmət edir. İyulun 21-də isə Brüsseldə Şarl Mişelin moderatorluğu ilə yüksək səviyyəli görüş gözlənilir. Nəqliyyat kommunikasiyalarının açılması ilə bağlı Moskvada keçirilən üç ölkənin baş nazirlərinin müavinlərindən ibarət işçi qrupunun toplantısında da iştirak edirik. Bakı üçün müsbət səylərin haradan gəldiyinin o qədər fərqi yoxdur. Eləcə də sülh danışıqlarının əleyhinə kimlərinsə nələrisə bəyan etməsi heç bir əhəmiyyət kəsb eləmir.

*Ekspert rəyi*



**Fərhad MƏMMƏDOV, politoloq**

Ötən ilin yayında Rusiya sülh layihəsinin öz variantını hazırladı və tərəflərə təqdim elədi. Həmin layihədə Qarabağın “statusu” ilə bağlı məsələ də qeyd olunmuşdu. Məsələyə gələcəkdə baxılacağı və həll ediləcəyi əksini tapmışdı. Yəni, o dövr gələnədək Rusiya özünün sülhməramlı hərbi kontingentini bölgədə saxlamağı düşünürdü. Azərbaycan bu müddəanı rədd etdi və beləliklə danışıqların fəlsəfəsi dəyişdi. Moskvanın mövqeyinə görə, əvvəlcə Rusiyanın tərəf kimi çıxış etdiyi kommunikasiya məsələləri həllini tapmalı, ardınca sərhədlərin müəyyənləşmə prosesi başlamalı idi. Moskva burada tərəf olaraq qalır. Sülhməramlılar da öz yerlərində dururlar. Faktiki olaraq, Rusiya prosesin bütün mərhələlərində iştirakçı olur. Amma danışıqlar Azərbaycanın təkidi ilə tamamilə fərqli məcrada inkişaf etməyə başladı və indi artıq sülh sazişinin imzalanması, ərazi bütövlüyü məsələsi aktuallaşıb.

Kremlə yaxın siyasi ekspertlərin çıxışları həm danışıqlar prosesinə, həm də sülh müqaviləsinin imzalanmasına maneə yaratmaqdan başqa bir şey deyil. Rusiya rəhbərliyi iki ölkənin XİN rəhbərlərinin, həmçinin dövlət başçılarının Qərb təmaslarından məlumatlıdır və Moskva görüşündən sonra rusiyalı ekspertlərin İrəvana səfəri təsadüfi deyildi. Bununla Ermənistan iqtidarını və ictimaiyyətini sülh müqaviləsini imzalamaqdan daşındırmağa çalışırdı. Əslində sülh prosesinin sürəti qarşısında acizliyini göstərmiş olurdu. Dəyirmi masaya toplaşan ekspertlərin çıxışları da Kremlin sülh sazişinin imzalanmasına maneçilk törətməyə hesablanmış fəaliyyətinin tərkib hissəsidir.

*(əvvəli 1-ci səhifədə)*

## “Sülhün real əsası yoxdur”,- deyirlər?

Rəsmi Moskvanın Ermənistan və Azərbaycan arasında davam edən sülh danışıqlarının müxtəlif məqamlarında sülh prosesinin müsbət dinamikasına xələl gətirə biləcək “jestlərinin” şahidi oluruq. Prosesə töhfəsini verməyə çalışan yardımçı aktorlar fəallaşdıqca, Rusiya bunda Cənubi Qafqazdakı nüfuzuna və maraqlarına təhlükənin təzahürlərini görür. Kreml əndişəsini diplomatik müstəvidə açıqlamağa çətinlik çəkəndə, dildə deyə bilmədiyini hökumətə yaxın qurumların və fərdlərin dili ilə çatdırır. Bu günlərdə “Russia Today” beynəlxalq media mərkəzində düzənlənmiş “Kişinyovda böyük görüş: Ermənistan-Azərbaycan nizamlanmasının perspektivləri” mövzusunda dəyirmi masa iştirakçılarının kontingentinə və statusuna diqqət yetirmək kifayətdir ki, onların əsl funksiyalarının nədən ibarət olduğunu biləsən. Rəsmi Moskvanın tapşırığını yerinə yetirən politoloqlar – Aleksey Muxin (Siyasi İnformasiya Mərkəzinin baş direktoru Aleksey Martınov (Yeni Dövlətlər Beynəlxalq İnstitutunun direktoru) və Nikolay Silayev (RF hökuməti yanında Beynəlxalq Araşdırmalar İnstitutunun məlumatların tədqiqi laboratoriyasının direktoru) qərbli vasitəçilərin fəaliyyətini əməlli-başlı təftiş etməyə və “qiymətləndirməyə” çalışıblar. Onların gəldiyi “yekdil qənaətə” görə, “hazırda sülh müqaviləsi bağlamaq üçün heç bir real əsas görünmür”. Sifarişli dəyirmi masanın iştirakçıları hətta tərəflərin hansısa sənədə imza atacaqları təqdirdə belə, bunun problemlərin həllinə gətirib çıxarmayacağını “əminliklə” bəyan ediblər. Kremlin layihəsi olan “elmi konfransın” məruzəçiləri bir az da irəli gedərək, tərəflərin sülh sazişini imzalamaları ilə yeni münaqişələrin əsasının qoyulacağı ehtimalını irəli sürüblər. Avropa İttifaqının və Vaşinqtonun sülh təşəbbüslərinin səmərəsizliyindən danışan “politoloqlar” diqqəti kənar güclərin Rusiyanın vasitəçi və sülhməramlı kimi nüfuzuna zərbə vurmağa çalışdıqları üzərinə yönəldiblər.

Bütün kənar təşəbbüsləri buxovlamaq istəyən Kremlin siyasi züytutanları sifarişi icra edərkən, bəzən “özfəaliyyətə yol verərək”, birtərəfli, qərəzli mövqe nümayiş etdirməkdən də çəkinməyiblər. Dəyirmi masanın ekspertləri açıq mətnlə izhar ediblər ki, Moskva Bakı və İrəvan arasında imzalanacaq istənilən xarakterli sazişin, yaxud çərçivə sənədinin icrasına imkan verməyəcək.

## Qarşıdurma yeni müstəviyə keçmək üzrədir

İkinci sualın məqamı yetişdi: bəs Rusiya nəyə nail olmaq istəyir? Bəli, Azərbaycan-Ermənistan münasibətlərinin normal məcraya düşməsi Rusiyanı narahat edir. Bunun səbəbləri çoxdur. Ən vacib saydığımız üç məqam üzərində dayanaq. Moskva Bakı və İrəvan arasında sülh sazişinin imzalanmasına, iki dövlət arasında münasibətlərin normallaşmasına, onlara təzyiq imkanını itirmək perspektivi kimi baxır. Bölgədə sülh və daxili sabitlik artıq keçmiş münaqişə tərəflərinin kənardan asılılığını sıfıra endirə bilər. İkinci məqam Cənubi Qafqaza sülhün Rusiyanın başı üzərindən gətirilməsini Kremlin özünə qarşı təhdid kimi qəbul etməsidir. Moskvada yaxşı bilirlər ki, yekun sazişin imzalanmasından dərhal sonra Qarabağda müvəqqəti yerləşdirilmiş rus sülhməramlı kontingentinin tezliklə ərazini tərk etməsi zərurəti gündəmə gələcək. Axı sülhün bərqərar olduğu bölgədə hərbi mövcudluq avtomatik aradan qalxır. Üçüncü məqam isə sülhə gələnlərin Qərblə inteqrasiyanı daha da genişləndirməyə meyillənməsi ilə paralel olaraq, Rusiyanın bölgədəki nüfuzuna sarsıdıcı zərbənin vurulma ehtimalıdır. Bakı və İrəvanın ortaq məxrəcə gəlməsi Türkiyə–Ermənistan münasibətlərinin də normallaşmasına yol açacaq və bu halda Rusiyanın Gümrüdəki hərbi bazasına ehtiyac qalmayacaq. Üzünü indidən Qərbə çevirən İrəvan iqtidarının uzaq olmayan perspektivdə Rusiyanın 102 saylı hərbi hissəsinin ərazisindən çıxarılması məsələsini müzakirə mövzusuna çevirəcəyi heç kəsdə şübhə doğurmamalıdır. Rusiya-Qərb qarşıdurmasını tamamilə yeni fazaya daşıyacaq bu perspektivi önləməkdən ötrü Kreml sülh sazişinin imzalanması çağırışlarına belə irticaçı reaksiya göstərir.

## Öhdəliyi yerinə yetirməyəndə...

Üçtərəfli Bəyanatda göstərilən bəndlərin icrasını İrəvandan daha təkidlə tələb etmək əvəzinə, sülh prosesini ən müxtəlif bəhanələrlə ləngitməyə çalışan Moskva indi dilemma qarşısında qalıb. Danışıqlarda təşəbbüsü əldən versin, bunun müqabilində açılacaq kommunikasiyalara nəzarətə sahib olsun, yoxsa üzünə ağ olan İrəvanla məqbul bildiyi dil və üsulla danışmağa başlasın. İntəhası, bu variantların hər ikisində uğursuz finalla üzləşmək ehtimalı çox böyükdür. Axı iki il yeddi ay əvvəllə müqayisədə indi bölgədə siyasi vəziyyət və yerli şərtlər kifayət qədər dəyişib.

Qayıdaq Moskvada “Russia Today” beynəlxalq media mərkəzində düzənlənmiş dəyirmi masaya. Daha doğrusu, tədbir iştirakçılarının söylədikləri fikirlərə. Bildirdiyim kimi, onların hamısı hökumətə yaxın adamlar idi və Kremlin mövqeyini ifadə edirdilər. Yəni, Rusiya istebleşmenti dəyirmi masaya toplaşanların vasitəsilə həm Azərbaycana, həm də Ermənistana ciddi mesaj vermiş oldu: “Mən istəməyənə qədər bölgədə sülh olmayacaq!”. İntəhası, Bakı və İrəvanın siyasi iradəsi ilə sülh sazişinin imzalanacağı təqdirdə, Moskvanın reallıqla barışmaqdan savayı imkanı qalmayacaq. Bunu da açıq söyləməliyik: Rusiya özünün ənənəvi siyasətindən əl çəkməyib və bu gün də imperialist siyasətini davam etdirir.

Dörd gündən sonra Azərbaycan və Ermənistan XİN başçılarının Vaşinqtonda tet-a-tet görüşü planlaşdırılıb. ABŞ problemin həll edilməsinin, möhkəm sülhün əldə olunmasının açarı kimi Bakı və İrəvan arasında birbaşa dialoqu görür. Fəqət Birləşmiş Ştatlar sülh danışıqlarının Vaşinqton trekində Ermənistanı o siyasi iradəni göstərməyə, sənədə imzasını atmağa məcbur edə biləcəkmi? Bu, heç də ritorik sual deyil. Əlbəttə, Ağ ev vasitəçisi olduğu ikitərəfli danışıqların indiki mərhələsində real nəticəyə nail olmağı çox istəyir. Bununla o, həm də sülh təşəbbüsünü Moskvanın əlindən qoparmış olacaq. Mövcud perspektivi isə birmənalı proqnozlaşdırmaq asan deyil.

Azərbaycan sülhə hansı müstəvidə və kimin vasitəçiliyi ilə çatılmasından asılı olmayaraq, müsbət nəticədə maraqlıdır. İrəvanda da bununla bağlı müəyyən kövrək pozitivlər var. Sülhə aparan yolun ortasına kötük diyirlətməyə çalışanlar gec-tez bu reallıqla barışmalı olacaqlar.

**İmran BƏDİRXANLI,**
**“Xalq qəzeti”**

*Siyasi replika*

# Ölkəmiz özü bilər ...bəlkə başlamayaq?

**Belə çıxır ki, Azərbaycanın Xarici İşlər Nazirliyinin ölkəmizin vətəndaşlarının başqa məmləkətə səfərlərinə məhdudiyyət qoymalarının vacibliyi ilə bağlı çağırış yayması düzgün deyilmiş. Burada söhbət heç də yalnız ondan getmir ki, çağırış İrana səfərlə bağlı idi. Yəni, İranın Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Nasser Kannaninin özünün sosial şəbəkə hesabında yazdıqlarının məntiqini anlamaq çətindir. Nəhayət, haranı öz vətəndaşı üçün təhlükəli görməsi Azərbaycan XİN-in öz işidir. Nəzərə alaq ki, qurumun açıqlamasında səbəblər də sadalanmaqdadır. Üstəlik, Azərbaycan vətəndaşı olan tələbə gəncin İranda qanunsuz saxlanılması və ona cinayət işi açılması faktı var. Amma məsələ təkcə bu deyil.**

Əlbəttə, N.Kannaninin etiraz haqqına sözümüz yoxdur. Hərçənd, onun başqa dövlətin rəsmi qurumunun öz vətəndaşlarına səslənməsindən narahatlıq keçirməli olmadığı düşüncəsindəyik. Həm də o düşüncədəyik ki, İran kimi ölkənin xarici siyasətindən məsul şəxsin söylədikləri köhnə stereotiplərə əsaslanmamalıdır. Hansı köhnə stereotiplərə, bu barədə söz açmazdan əvvəl bildirək ki, İran XİN-in rəsmi nümayəndəsinin fikirlərində xoş niyyət ifadəsinə oxşayan məqamlar da var.



Məsələn, Kannani bildirir ki, İslam Respublikası qarşılıqlı hörmət çərçivəsində dostluq xarakteri daşıyan siyasətini davam etdirmək niyyətindədir. Onun mövcud xüsusda vizanın ləğvi və azərbaycanlı bacı-qardaşlara qucaq açmaq kimi müsbət ritorikasını təqdir etmək mümkündür. Ancaq o deməməlidir ki, “Azərbaycan xalqı sivil islami İrandan deyil, İsrail rejimindən qorxmalıdır”. Niyə belə deməməlidir, çünki Azərbaycan XİN-in açıqlamasında kifayət qədər konkretlik var. Yaxşı olardı ki, İran rəsmisi bu konkretliyə reaksiya verəydi. O zaman daha səmimi təsir bağışlayardı. İndilik isə onun mövqeyi səmimi yox, qıcıq ehtimalı olan hərəkət kimi qiymətləndirilməkdədir.

***

Azərbaycan dövləti öz vətəndaşlarını zərurət olmadığı təqdirdə, İrana səfər etməməyə çağırmaqla, vurğunu bu il yanvarın 27-də Tehranda səfirliyimizə olunmuş silahlı basqının üzərinə qoyur. Məlum olduğu kimi, sözügedən terror aktı zamanı İran vətəndaşı Yasin Hüseynzadə əlindəki avtomat silahla ali diplomatik missiyamızın binasına daxil olmuş, mühafizə xidmətinin rəisi Orxan Əsgərovu qətlə yetirmişdi. Hadisə nəticəsində daha bir şəxs yaralanmışdı. Yalnız mühafizə xidmətinin əməkdaşı Vasif Tağıyevin cəsarəti - yalın əllə silahlı terrorçunu zərərsizləşdirməsindən sonra hücumun qarşısı alınmışdı. Həmin vaxt səfirliyimizin binasının qarşısında dayanmış İran polisinin terrorçuya loyal yanaşması, sərbəst şəkildə qapıdan içəri girməsinə göz yumması diqqət çəkmişdi. Bunu təhlükəsizlik kameraları da qeydə almışdı.

Azərbaycanın XİN-in məlumatı bir məqamın üzərinə yenidən qayıdılmasını zəruriləşdirməkdədir. Əlbəttə, məlum terror aktından əvvəl də İranın Ermənistan təəssübü, eləcə də ölkədəki bəzi siyasi dairələrin anti-Azərbaycan çıxışları səbəbindən, Bakı ilə Tehran arasında gərginlik hökm sürürdü. Lakin sözügedən qanlı olay gərginliyi daha yüksək səviyyəyə qaldırdı desək, yanılmarıq. Hətta, müəyyən beynəlxalq dairələrdə ölkəmizlə İslam Respublikası arasında müharibə riskinin yarandığı da vurğulanmağa başlandı. Bu sayaq mülahizələr fonunda terrorçunun, bir növ, kultlaşdırılması, eləcə də onun barəsində zəruri hüquqi ölçü tədbirinin götürülməməsi, guya psixi problemlərinin olduğu önə çəkilib məsuliyyətdən uzaq tutulması əsəbləri bir qədər də tarıma çəkdi.

Nəhayət, Azərbaycanın İrandakı səfirliyi fəaliyyətini dayandırdı. Diplomatik missiyamızın əməkdaşları və onların ailələri xüsusi reyslə ölkəmizə gətirildi. Hazırda səfirliyin missiyasını Təbrizdəki konsulluğumuz yerinə yetirməkdədir. Azərbaycan XİN həm də buna görə İrana səfərə getməməyi tövsiyə edir. Nəzərə alaq ki, Təbrizdəki konsulluq məhdud təmsilçilik deməkdir və onun vətəndaşlarımızın hüquqlarının qorunmasında aktiv iştirak edə bilməməsi anlaşılandır. Axı İran böyükdür və kiçik diplomatik missiya ölkənin hər yerində təsirə malik deyil.

Azərbaycan XİN-in açıqlamasındakı vacib xüsuslardan biri də İrana məcburiyyət qarşısında səfər edənlərin yüksək ehtiyatlılıq nümayiş etdirmələrinin vacibliyinin vurğulanmasıdır. Nazirlik bunu kəskin şəkildə tövsiyə edir. Qurumun məlumatında, həmçinin, İslam Respublikasında olan vətəndaşlarımıza mühafizə və təhlükəsizlik qaydalarına riayət etmək də tələb olunur ki, bu da özlüyündə diqqətçəkən məqam sayıla bilər. Görünür, cənab Kannanini bu da narahat edir.

Yazımızda Azərbaycan cəmiyyətini İrandan narazı salan məqamları açıqladıq. Yaxşı olardı ki, ölkənin XİN rəsmisi həmin məqamlardan da danışaydı. Məsələn o, bildirə bilərdi ki, Azərbaycan səfirliyinə hücum faktı araşdırılır. Tədbirlər görülür ki, nəinki azərbaycanlılar, digər dövlətlərin vətəndaşları da terror xofundan uzaq dursunlar, İranda özlərini təhlükəsiz mühitdə hiss etsinlər. Yəni, cənab Kannani bunları deyə, daha doğrusu, yaza bilərdi. Yazmadı və İranın Azərbaycan dövlətinə ittihamındakı ənənəvi İsrail xəttini əsas götürdü. Bu isə onun fikirlərindəki xoş məqamları da ikinci plana keçirdi. İndi biz neynəyək? İran-Ermənistan sarsılmaz qardaşlığının “İslamdan irəli gələn ən böyük məziyyət olduğunu tirajlayaq? Bildirək ki, İrəvana qucaq açmaq Tehran üçün həyati vacib məsələdir? İstəmirik axı, belə şeyləri yada salıb qan qaraldaq. Arzu edərdik ki, cənab Kannani də bunu düşünsün.

**R.ƏVƏZ. “Xalq qəzeti”**

# Kreml Bakı və İrəvanı alternativ axtarmamağa çağırır

**Rusiya XİN-in rəsmisi Mariya Zaxarova ənənəvi həftəlik birifinqdə üçtərəfli bəyanatların Bakı ilə İrəvan arasında barışıq üçün alternativsiz “yol xəritəsi” olduğunu bəyan edib.**



Rusiya Xarici İşlər Nazirliyinin sözçüsü Mariya Zaxarovanın bu açıqlamasını əslində Vaşinqtonda sülh dialoqunun növbəti raunduna hazırlaşan İrəvan və Bakıya xəbərdarlıq mesajı kimi qəbul etmək lazımdır. Azərbaycan və Ermənistan arasında sülh danışıqlarının əsas vasitəçi misiyasını boynuna götürən Kreml XİN rəsmisinin dili ilə barışığın onun iştirakı olmadan, kənar təşəbbüskarların dəstəyi ilə əldə olunmasının mümkünsüzlüyünü bir daha tərəflərin diqqətinə çatdırır. “Rusiya üçtərəfli bəyanatları Azərbaycan və Ermənistan arasında barışıq prosesi üçün alternativi olmayan “yol xəritəsi” hesab edir”, – deməklə Zaxarova həmçinin sülh danışıqlarının Brüssel və Vaşinqton platformalarının heç bir nəticə verməyəcəyini da vurğulamağa çalışır.

“Biz dəfələrlə bəyan etmişik ki, üçtərəfli formatda - Rusiya, Ermənistan və Azərbaycan arasında münasibətlərin normallaşdırılması üzərində işləyirik. Biz üçtərəfli bəyanatlar toplusunu proses üçün alternativsiz “yol xəritəsi” hesab edirik. Bu işin öz trekləri, danışıqlar prosesinin dinamikası, formatları və əlavə alətləri var. Biz heç nəyə məcbur etməyə çalışmırıq, plana əməl edirik”, – deyə xanım Zaxarova vurğulayıb.

XİN rəsmisinin sözlərinə görə, Azərbaycan və Ermənistanın mövqelərində yanaşmaların yaxınlaşması Rusiya üçün həmişə prioritet olaraq qalır.

Moskvanın sülh danışıqlarının intensivləşən indiki mərhələsində təşəbbüsü okeanın o üzündəki ortaq vasitəçilərə verməək istəməməsi başadüşüləndir. Amma artıq həm Bakı, həm də İrəvan sülh prosesini məntiqi sonluğa çatdırmaqda qərarlıdırlar. Bunu Moskvanın arzulamadığı məkanda baş verməsi isə onun öz problemi idi. Zamanında bu gedişatı görməli idi.

**“Xalq qəzeti”**

# Utilizasiya ölkənin avtomobil parkını yeniləşdirəcək

**Dünyanın inkişaf etmiş ölkələrində nəqliyyat parkının yenilənməsi məqsədilə istismar müddəti keçmiş avtomobillər utilizasiya prosesinə cəlb edilir. Artıq bu sahədə beynəlxalq təcrübə də formalaşıb. Hətta köhnə avtomobillərin utilizasiyası ilə məşğul olan iri şirkətlərin sayı 200-ü ötüb.**



Son illər ölkəmizdə də bu məsələ getdikcə aktuallığını artırır. Belə ki, "Azərbaycan Respublikasında yol hərəkətinin təhlükəsizliyinə dair 2019-2023-cü illər üçün Dövlət Proqramı"nda ölkəmizdə yol hərəkətinin təhlükəsizlik səviyyəsini yüksəltmək, ekoloji vəziyyəti yaxşılaşdırmaq, eləcə də yerli avtomobil istehsalını stimullaşdırmaq məqsədilə köhnə, texniki-təhlükəsizlik və ekoloji cəhətdən yararsız nəqliyyat vasitələrinin utilizasiya proqramının hazırlanması və tətbiqi nəzərdə tutulub. Bundan əlavə, "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda istismarı ekoloji cəhətdən zərərli sayılan fiziki və mənəvi cəhətdən köhnəlmiş nəqliyyat vasitələrinin idxalının və istifadəsinin məhdudlaşdırılmasına dair tədbirlərin görülməsi qeyd olunur.

Milli Məclisin iyunun 6-da keçirilən iclasında "İstehsalat və məişət tullantıları haqqında" qanuna dəyişikliklər müzakirəyə çıxarılıb. Dəyişikliklərdə Azərbaycanda istehsal-buraxılış vaxtından 4 il keçən minik avtomobilləri üçün utilizasiya haqqının müəyyənləşdirilməsi, köhnə avtomobillərin utilizasiyası fondunun yaradılması, köhnə avtomobilləri utilizasiyaya verən şəxslərə yeni avtomobil alan zaman güzəşt tətbiq edilməsi, avtomobillərin utilizasiyaya verilməsi prosedurunun müəyyənləşdirilməsi, avtomobillərin utilizatorlarının reyestrinin aparılması və s. nəzərdə tutulur. Xatırladaq ki, qanun layihəsi səsverməyə çıxarılaraq birinci oxunuşda qəbul edilib. Dəyişikliklər isə 2024-cü il sentyabrın 1-dən qüvvəyə minəcək.

Qeyd edək ki, layihəyə əsasən, "Tullantılar haqqında" qanunla müəyyənləşdirilmiş qaydada utilizasiyaya verilməzdən əvvəl nəqliyyat vasitəsi dövlət qeydiyyatı üzrə daimi uçotdan çıxarılmalıdır. Bu məqsədlə nəqliyyat vasitəsinin sahibi və ya sərəncam vermək hüququ olan digər şəxs tərəfindən aidiyyəti orqanlara müraciət edilir. Müraciət qəbul edildikdən sonra 3 iş günü müddətində həmin orqan tərəfindən araşdırma aparılaraq nəqliyyat vasitəsinin dövlət qeydiyyatı üzrə daimi uçotdan çıxarılması və ya səbəblər göstərilməklə dövlət qeydiyyatı üzrə daimi uçotdan çıxarılmasından imtinası barədə qərar qəbul edilir və müraciət edən şəxsə bu barədə yazılı məlumat verilir.

Eyni zamanda, "İstehsalat və məişət tullantıları haqqında" qanuna edilən dəyişiklikdə Azərbaycanda güzəştin və birdəfəlik ödənişin maliyyələşdirilməsi, habelə nəqliyyat vasitələrinin utilizasiyası üzrə tədbirlərin stimullaşdırılması və təşviqi məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən nəqliyyat vasitələrinin utilizasiya fondunun yaradılması nəzərdə tutulur. Yeri gəlmişkən, nəqliyyat vasitələrinin utilizasiyası fondu məqsədli büdcə fondu sayılır. Fondun utilizasiya haqqı, kreditlər və qrantlar, hüquqi və fiziki şəxslərin könüllü ianələri, beynəlxalq təşkilatların və digər donorların ayırmaları, eləcə də qanunla qadağan olunmayan digər mənbələr kimi müstəqil mədaxil mənbələri hesabına maliyyələşəcəyi nəzərdə tutulur. Nəqliyyat vasitələrinin utilizasiyası fondunun vəsaitinin formalaşdırılması və istifadə qaydasını müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qurum müəyyən edəcək.

Bununla belə, Milli Məclisin deputatı Vüqar Bayramov hesab edir ki, ölkəmizdə utilizasiya ilə bağlı ayrıca qanunun qəbul olunmasına ehtiyac var. İstehsalat tullantılarının utilizasiyası ilə maşınların utilizasiyasının fərqli proses olduğunu düşünən deputat bildirib ki, ABŞ və Avropa ölkələrində utilizasiya prosesi 12 il müəyyən edildiyi halda, bizim layihədə bu, 4 il nəzərdə tutulur. Bunun əsaslandırılmasına ehtiyac duyulduğunu vurğulayan deputat bildirib ki, müddətin az götürülməsi idxal avtomobillərinin xərclərini də artıracaq.

***Mirbağır YAQUBZADƏ,***
***"Xalq qəzeti"***

### Ekspert rəyi



**Ərşad HÜSEYNOV,**
**nəqliyyat üzrə ekspert**

Utilizasiya müasir dövrdə istifadəyə yararsız avtomobillərin yığışdırılmasının texnoloji qaydalara uyğun mədəni bir prosedurudur. Qabaqcıl ölkələrdə yararsız avtomobillərin dövriyyədən çıxarılması, onun müəyyən materiallarının təkrar emal edilməsi və onlardan imkan daxilində yenidən istifadə olunması üçün belə bir üsul tapılıb. Utilizasiyanın əsas hədəfi odur ki, həm yol hərəkətinin təhlükəsizliyi, həm də ekoloji baxımdan istismara yararsız avtomobillər dövriyyədən çıxarılsın. Onların müəyyən materialları: metal, polimer və plastik materialdan olan hissələri, təkərləri, şüşələri təkrar emala yönəldilsin, yaxud da ətraf mühit üçün zərərsiz hala gətirilsin.

Ölkəmizdə avtomobilləşmə prosesi sürətlənməkdədir. Ona görə də köhnə, istismara yarasız avtomobillərin sayı artdıqca utilizasiyaya ehtiyac yaranır. Artıq bu ehtiyacın qarşılanması üçün müəyyən hüquqi addımların atılmasına başlanılıb. Prinsipcə utilizasiya könüllü bir prosesdir. Utilizasiya xüsusi ayrılmış subyektlər, yəni utiluzator tərəfindən həyata keçirilməlidir. Utilizatorun əsas funksiyası isə köhnə, istismara yararsız avtomobilləri təhvil almaq, onları imkan daxilində təkrar emal etməkdən ibarət olacaq. Bundan başqa, utilizasiya könüllü proses olmaqla yanaşı, onun həyata keçirilməsində müəyyən bir inzibatçılıq və həvəsləndirmə tədbirlərinin də tətbiqi nəzərdə tutulur. Həvəsləndirmə tədbirləri isə ondan ibarət olacaq ki, özünün köhnə, yararsız avtomobilini utilizasiyaya verən vətəndaş təsdiqləyici sənəd əldə edəcək. Həmin sənəddə də utilizasiyaya verilmiş avtomobilin əvəzində avtomobil sahibinə müəyyən güzəşt nəzərdə tutulacaq. Güzəştin məbləğini isə Prezidentin müəyyən etdiyi orqan təyin edəcək. Böyük ehtimalla bu orqan Nazirlər Kabineti olacaq.

Vətəndaşlara ödəniləcək güzəşt utilizasiya fondunun vəsaitləri hesabına təmin ediləcək. Bunun üçün Nazirlər Kabineti müəyyən qaydalar qəbul edəcək. Utilizasiya fondunun vəsaitləri isə, avtomobil sahibləri tərəfindən edilmiş ödənişlər hesabına formalaşdırılacaq. İstehsal olunduğu vaxtdan 4 ildən çox müddət keçmiş avtomobillər istər ölkəyə gətirilərkən, istərsə də ölkə daxilində istismar olunarkən utilizasiya fonduna ödənişlər edilməlidir. Yeri gəlmişkən, xaricdən idxal olunan avtomobillərə görə utilizasiya fonduna ödəniş gömrük rəsmiləşdirilməsi, daxildə dövriyyədə olan avtomobillərə görə utilizasiya fonduna ödəniş isə texniki baxış zamanı ediləcək.

Bütövlükdə isə, utilizasiya ilə bağlı lazımi təbliğat və təşviqat işləri aparılsa, həvəsləndirmə tədbirləri qaydasında olsa, ölkənin avtomobil parkında istismara yararsız, ömrünü başa vurmuş maşınların dövriyyədən çıxarılması xeyli asanlaşacaq. Bu da ölkənin ayrı-ayrı yerlərini köhnə avtomobillərin qəbristanlığına çevirməkdən xilas edər. Yeri gəlmişkən, bu problem planetimizin hər yerində olduğu kimi, ölkəmizdə də müşahidə olunur. Düzdür, bizdə əhali sayı o qədər də çox deyil, avtomobilləşmə səviyyəsi cəmi 13-14 faiz təşkil edir. Amma planetimizdə 1 milyarddan artıq minik avtomobili var. Bununla yanaşı, hər il 80-100 milyona yaxın yeni minik avtomobili istehsal olunur. Təsəvvür edin, utilizasiya olmasa, bir neçə ildən sonra milyardlarla avtomobil haralardasa yığılıb qala bilər. Ölkəmizdə bu məsələ, hələlik, ciddi narahatlıq yaratmasa da, yaxın illərdə vəziyyət dəyişə bilər. Düşünürəm ki, utilizasiya könüllü və digər prinsiplər əsasında ədalətli şəkildə həyata keçirilsə, köhnə, istismara yararsız avtomobillərin küçələrdən, yollardan yığışdırılması işi rahat olar.

## "Avro-5" dizel yanacağının istehsalına başlanılıb

**Cari ilin ikinci rübündən etibarən ölkəmizdə "Avro-5" standartına uyğun dizel yanacağının istehsalına başlanılıb. Yeni növ yanacağın istehsalına Heydər Əliyev adına Neft Emalı Zavodunda (NEZ) həyata keçirilən yenidənqurma və modernləşdirmə layihəsi çərçivəsində görülən işlərdən sonra nail olunub.**



Bu barədə ilkin məlumat SOCAR-ın Bakı Enerji Həftəsi çərçivəsində keçirilən Xəzər neft-qaz sərgisindəki stendində əksini tapıb.

Məlumata görə, 1953-cü ildə fəaliyyətə başlayan zavodda indiyədək 364 milyon ton neft emal edilib. Hazırda müəssisədə 30 adda məhsul istehsal edilir. Ümumi istehsalın isə 10 faizi ixraca yönəldilir.

Qeyd edək ki, Heydər Əliyev adına Bakı Neft Emalı Zavodu ölkəmizin neft məhsullarına olan tələbatını tam ödəyir. Hazırda NEZ-də yenidənqurma və modernləşdirmə işləri davam etdirilir.

## 20 ilə üçqat artım

**Azərbaycan iqtisadiyyatı son 20 ildə 3 dəfədən çox artıb. Bu artımda bank sektorunda investisiyalar mühüm rol oynayıb.**

Bu barədə Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili məlumat verib. "Hazırda Azərbaycanda 24 bank fəaliyyət göstərir, onların 45 milyard manata yaxın aktivləri var. Bankların Azərbaycan iqtisadiyyatına kredit qoyuluşları 20 milyon manata yaxındır ki, bu da ÜDM-in 18 faizini təşkil edir", – deyə deputat bildirib.

**"Xalq qəzeti"**

# Rəqəmsallaşmaya keçid məhsuldarlığı artırır

**Ötən əsrin 90-cı illərindən start götürən rəqəmsallaşma prosesi cəmiyyətin yüksək tərəqqisi üçün yeni imkanlar yaradıb. Xatırladaq ki, rəqəmsallaşma kağız daşıyıcılarındakı məlumatların elektronlaşdırılması, internet resursuna çevrilməsidir. Artıq dünya ölkələri "Dördüncü Sənaye İnqilabı" prosesində lider mövqeyinə yüksəlmək üçün innovativ texnologiyaların, elektronlaşmanın bütün imkanlarından maksimum yararlanmağa çalışırlar.**



Son illər dünya iqtisadiyyatına inteqrasiya yolunu seçmiş Azərbaycan Respublikası da mühüm enerji və nəqliyyat-logistika layihələrinin təşəbbüskarı və əsas iştirakçısı kimi bütün sahələrdə rəqəmsallaşmaya keçid mərhələsinə qədəm qoyub. Hazırda ölkəmizdə rəqəmsal texnologiyalardan istifadəyə daha çox üstünlük verilir, bu istiqamətdə mühüm tədbirlər həyata keçirilir. Məhz bunun nəticəsidir ki, ölkəmizdə rəqəmsal iqtisadiyyatın qurulması, innovasiyaların tətbiqi getdikcə daha çox aktuallıq kəsb edir.

Müasir neft-qaz sənayesini innovativ texnologiyalardan ayrı təsəvvür etmək çətindir. Artıq beynəlxalq təcrübə də bu sahədə əldə olunmuş yüksək uğurlardan xəbər verir. Belə ki, bir sıra qabaqcıl konsaltinq şirkətlərinin araşdırmaları sübut edir ki, rəqəmsallaşma neft-qaz sahəsində 100 milyard dolladək vəsaitə qənaət etməyə imkan verə bilər. Bununla yanaşı, audit və konsaltinq xidmətləri göstərən tanınmış beynəlxalq şirkətlərin analitikləri də hesab edirlər ki, hazırda bazarda təmsil olunan rəqəmsal həllərin əksəriyyəti məhz neft-qaz sənayesində əməliyyat xərclərinin azalmasına xidmət edir. Neft və qaz sənayesində rəqəmsal keçid istehsal gücünün artması, vaxta və vəsaitlərə qənaət, daha təhlükəsiz əməliyyatlar, eləcə də resursların rasional idarə olunmasına imkan yaradır. Eyni zamanda, süni intellektə qoyulan investisiyaların neft və qaz sahələrində məhsuldarlığı artırmağa imkan verəcəyi də bu üstünlüklər sırasındadır.

Azərbaycanın karbohidrogen ehtiyatlarının xarici şirkətlərlə birgə işlənməsini nəzərdə tutan neft-qaz sazişlərinin işlək platformaya çevrilməsi ilə əlaqədar ölkəmizə mütərəqqi texnologiyaların, qabaqcıl təcrübələrin axını xeyli güclənib. Belə bir şəraitdə ölkəmizin neft-qaz sənayesi də rəqəmsal texnologiyalara keçid etməyə başlayıb. Elə mayın 31-də neft, qaz və enerji sektorunda əhəmiyyətli bir platformaya çevrilmiş Bakı Enerji Həftəsi çərçivəsində keçirilmiş "Neft və qaz sənayesində rəqəmsallaşma və avtomatlaşdırma sahəsində innovasiyalar" mövzusunda xüsusi panel müzakirəsinin keçirilməsi də təsadüfi deyildi.

Məlum olduğu kimi, bir neçə il əvvəl Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) rəqəmsal transformasiya proseslərinin idarə olunması üçün Xəzər İnnovasiya Mərkəzini (CIC) təsis edib. Artıq CIC SOCAR-da istifadə olunan bütün proqram təminatını ətraflı təhlil edib və optimallaşdırmaya ehtiyac olan sferaları müəyyənləşdirib. Mərkəz 2018-ci ildən isə kəşfiyyat və hasilat sahəsində rəqəmsal layihələrin reallaşdırılmasına başlayıb. Hazırda çoxsaylı risk və qeyri-müəyyənliklərin mövcud olduğu qazma sektoru tamamilə SAP ERP platformasına arxalanır. Burada bütün proseslər, o cümlədən planlaşdırma, qazma və buruqların istismara verilməsi prosesləri avtomatlaşdırılıb.

2021-ci il aprelin 9-da "SOCAR Tower"də istehsalat əməliyyatlarının vahid rəqəmsal mərkəzdən idarə olunması, ixtisaslaşmış sahələr üzrə xüsusi toplantıların keçirilməsi, iri həcmli və kritik layihələr üzrə müzakirələr aparılması, operativ qərarların qəbul edilməsi, eləcə də böhran vəziyyətləri və fövqəladə halların idarə olunması funksiyalarının yerinə yetirilməsi üçün nəzərdə tutulmuş Vizualizasiya Mərkəzi istifadəyə verilib. Bundan əlavə, artıq uzun illərdir ki, SOCAR-da biznes proseslərinin avtomatlaşdırılması ilə yanaşı, korporativ rəqəmsal idarəetmə platformasının yaradılması da uğurla davam etdirilir. Bu proses hazırda şirkətin bütün əsas fəaliyyət sahələrini əhatə edir. Yeri gəlmişkən, şirkətin Neft Mədən Korporativ Verilənlər Bazasında Azərbaycanın neft-qaz sənayesi tarixində indiyədək qazılmış, hazırda istismarda olan və istismar fondundan çıxarılmış 44 min quyunun 50 faizdən çoxu artıq rəqəmsallaşdırılıb. Hazırda mütəxəssislər həmin bazadan istifadə edərək interpretasiya proqram təminatı vasitəsilə yataqların modelini qura bilirlər.

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi İnformasiya Texnologiyaları İnstitutunun şöbə müdiri, dosent Yadigar İmamverdiyev hesab edir ki, rəqəmsallaşma ilə neftvermə əmsalını 45-50 faizə çatdırmaq mümkündür. Hazırda ölkəmizə yüksək texnologiyaların həm "Əsrin müqaviləsi"nin iştirakçısı olan şirkətlər, həm də Azərbaycan Dövlət Neft Şirkəti vasitəsilə gətirildiyini xatırladan Y. İmamverdiyev SOCAR-ın bəzi neft yataqlarında ağıllı neft-mədən konsepsiyasının həyata keçirilməsini təqdirəlayiq addım hesab edir. Onun fikrincə, real proseslərin rəqəmsal platformada onlayn rejimdə əks olunması insan faktorunu minumuma endirməklə risklərin azalmasına gətirib çıxarır.

***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***

### Ekspert rəyi



**İlham ŞABAN,**
**Neft Araşdırmaları Mərkəzinin rəhbəri**

Hazırda köhnə neft yataqlarına kapital qoymaqdansa yenilərini axtarmaq daha məqbuldur. Amma Azərbaycanın yerli istehsalçı şirkəti GL-in rəhbəri Asif Zeynalovun fikrincə, karbohidrogen yatağı özü canlı orqanizm kimidir. Hər insanın sağlamlığının bərpası tibbi nöqteyi-nəzərdən individual xarakter daşıdığı kimi, yataqların neftverimliyinin artırılması da onun xüsusiyyəti və geoloji xarakterinə bağlıdır.

Ona görə də yeni yataq axtarışı və ya köhnəsinə kapital yatırımı sırf yerin təkində müəyyən limitlənmiş hissədə baş verənlərlə əlaqəlidir. A.Zeynalov buna misal kimi "Salyan Oil" əməliyyat şirkətindəki yataqlarda davamlı olaraq 21 illik hasilat azalmasının GL-in quyuların mənimsənilməsinə tətbiq etdiyi innovativ həllər hesabına artım nümayiş etdirdiyini diqqətə çatdırıb.

Yeri gəlmişkən, bir məqamı da diqqətə çatdırım ki, innovasiya işçilər arasında qorxu, hürkü yaradan amil kimi də özünü göstərir. Çünki onun əsasında yenilik var və bir çoxları hesab edirlər ki, yeniliyin tətbiqi ilə iş yerlərini itirə bilərlər. "Neft-qaz sənayesində avtomatlaşdırma və rəqəmsallaşdırma" mövzusunda moderatorluq etdiyim paneldə SOCAR-ın baş geoloqu Arzu Cavadova bu məsələyə toxunaraq bildirdi ki, rəqəmsal texnologiyalar, ilk növbədə, əmək məhsuldarlığının artırılmasına hesablanıb. O isə insan kapitalına bağlı məfhumdur. Yəni xəsarətsiz iş şəraiti, minimum boşdayanmalar və nəticədə gəlirlik artır. Hətta bu halda iş yerini kimsə itirsə belə, gəlirlərin artması hesabına məşğulluq imkanları genişlənir.

# Ərdoğan: Türkiyə dünyanın ən güclü 10 dövlətindən biri olacaq



**Türkiyədə olduqca gərgin və kəskin rəqabət şəraitində keçən parlament və prezident seçkilərindən dərhal sonra ölkə iqtidarı vaxt itirmədən qarşıda duran vacib məsələlərin həlli üçün qüvvələrini səfərbər etməyə başlayıb. Zaman gözləmir, işlər isə çoxdur!**

Vəzifə və çağırışlar, həqiqətən, az deyil. Ölkədə son illər ərzində sürətlə artan inflyasiyanın qarşısını almaq, milli valyuta – lirənin dollara münasibətdə dəyər qazanmasına nail olmaq, miqrant problemini və s. çox sayda məsələləri həll etmək lazımdır. Görünən budur ki, R.T.Ərdoğan iqtidarı öz öhdəliklərini yerinə yetirməkdə qərarlıdır.

Təhlilçilər hesab edirlər ki, növbəti dəfə azad və şəffaf seçkilərdə xalqın etimadını qazanan R.T.Ərdoğanın komandası ölkə iqtisadiyyatını dirçəltmək, yaxın aylar, illər ərzində sürətli iqtisadi inkişafı təmin etmək üçün bugünkü reallıqlara və gələcək çağırışlara hesablanmış proqramlara malikdir. Bu layihələrin icrası üçün isə kifayət qədər kadr potensialı mövcuddur.

Bu il iyunun 6-da Prezident R.T.Ərdoğanın sədrliyi ilə keçirilən Nazirlər Kabinetinin ilk iclasında ölkənin mövcud sosial-iqtisadi durumu geniş müzakirə olunub, hədəflər müəyyən edilib. Tədbirdə çıxış edən dövlət başçısı əvvəlcə seçkilərin əhəmiyyətindən danışıb. Bildirib ki, mayın 14-ü və 28-i tarixlərində keçirilən və dünyaya səs salan demokratik seçkilər, siyasi mənsubiyyətindən asılı olmayaraq bütün 85 milyonluq türk xalqının qələbəsidir.

R.T.Ərdoğan sonra qədirbilənlik hissilə deyib: "Ölkəm və millətim adından Türkiyənin əsl dostlarına təşəkkürümüzü bildirirəm. 5 mindən çox qonağın iştirakı ilə andiçmə mərasimi keçirdik. Mərasimdə iştirak edən bütün dövlət və hökumət başçılarına, xüsusən də həmvətənlərimə təşəkkür etmək istəyirəm. Ölkəm və millətim adından Türkiyənin əsl dostlarına minnətdarlığımızı bildirirəm. Bildirmək istərdim ki, minlərlə kilometr uzaqdan gələrək göstərdikləri lütfkarlığı heç vaxt unutmayacağam".

Prezident, həmçinin əmin olduğunu bildirib ki, ölkənin bütün vətəndaşları öz səylərini səfərbər edərək iyirmi birinci yüzilliyi "Türkiyə əsri"nə çevirəcəklər. Türk xalqı istedadlı, güclü və yenilməzdir. Ölkə vətəndaşları üçün milli maraqların fövqündə heç nə yoxdur. Hər kəs bu həqiqəti dərk edir: Zaman Türkiyənin güclü və qüdrətli olmasını tələb edir!

"Türkiyə əsri" arzusunu reallaşdırmaq üçün hazırkı iqtidarın iki əsas konsepsiyası var. Bunlar sabitlik və etimaddır. R.T.Ərdoğan deyib ki, Türkiyə məhz bu iki əsas bünövrə üzərində sürətlə inkişaf və tərəqqi edəcək. Onun sözlərinə görə, Türkiyə seçkilərdə bütün dünyaya nümunə göstərib. Bu gün bu uğuru iqtisadi müstəvidə də təkrar etmək son dərəcə vacibdir.

Prezident fevralın 6-da ölkədə baş verən dəhşətli zəlzələnin fəsadlarını aradan qaldırmaq üçün iqtidarın gördüyü işlərdən də bəhs edib. Vurğulayıb ki, zəlzələ bölgəsində 650 min ev inşa ediləcək. Təkcə yaxın bir il ərzində 319 min ev zəlzələdən zərər görmüş ailələrə təhvil veriləcək.

Nazirlər Kabinetinin ilk iclasından sonra televiziya ilə xalqa müraciətində R.T.Ərdoğan deyib: "Bundan sonra da Türkiyə üçün çalışmağa davam edəcəyik. Hədəfimiz həm ağıllı mühafizəkarlıq, həm də yenilikçilikdir. Bəli, biz həm inkişaf edirik, həm də kökümüzə bağlıyıq".

Bir çox təhlilçilər hesab edirlər ki, son illər iqtisadiyyatda yaranan problemlərin həlli üçün rasional maliyyə sisteminə qayıtmaqdan və maliyyə intizamına riayət etməkdən başqa yol yoxdur. Yeni maliyyə və xəzinə naziri Mehmet Şimşəyin təyinatı ölkəyə xarici investorların cəlb edilməsinə hesablanıb.

Görünən budur ki, iqtidar bundan sonra da ölkədə ictimai-siyasi sabitliyin qorunması, terror təhlükəsinin kökünün kəsilməsi üçün əlindən gələni etməyə hazırdır. Çünki sabitlik və etimad olmayan yerdə inkişaf və tərəqqi ola bilməz. Yeni komanda, əlbəttə, öz sələfinin bu sahədəki ənənələrini davam etdirmək əzmindədir.

Yeri gəlmişkən, dünən Prezident Rəcəb Tayyib Ərdoğanın rəhbərliyi ilə Türkiyə Milli Təhlükəsizlik Şurasının iclası keçirilib. Tədbirə vitse-prezident Cevdət Yılmaz, ədliyyə naziri Yılmaz Tunç, xarici işlər naziri Hakan Fidan, daxili işlər naziri Ali Yerlikaya, milli müdafiə naziri Yaşar Gülər, Baş Qərargah rəisi, ordu generalı Musa Avsevər qatılıblar.

Məlumata əsasən, iclasda Şimali İraq və Suriyada həyata keçirilən terrorla mübarizə əməliyyatları başda olmaqla strateji, regional və milli təhlükəsizlik məsələləri müzakirə edilib. Müzakirələr zamanı qeyd olunub ki, Ankara Bakı ilə birlikdə Qarabağda daimi sülhün bərqərar olunması üçün bütün zəruri addımları atmağa hazırdır.

Yeri gəlmişkən, Türkiyədə siyasi islahatlar paketi də hazırlanır. Belə ki, konstitusiyaya dəyişikliklərlə bağlı parlamentdə məsələ qaldırılacaq. Türkiyə lideri ölkənin bütün siyasi qüvvələrini yeni konstitusiya layihəsinin hazırlanmasında fəal iştirak etməyə çağırıb.

***Məsaim ABDULLAYEV,***
***"Xalq qəzeti"***

# Cənubi Koreya ilə əməkdaşlıq genişlənir

**Cənubi Koreyanın Seul şəhərində Azərbaycan Respublikası Hökuməti və Koreya Respublikası Hökuməti arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Komissiyanın üçüncü iclası keçirilib.**



Birgə Komissiyanın Koreya Respublikası tərəfindən həmsədri, bu ölkənin ticarət, sənaye və energetika nazirinin müavini Jeong Daejin Azərbaycan nümayəndə heyətini salamlayaraq Azərbaycan və Koreyanın yüksək iqtisadi və mədəni əlaqələrə malik dost ölkələr olduğunu bildirib. Diqqətə çatdırıb ki, ötən il Azərbaycan Respublikası ilə Koreya Respublikası arasında diplomatik əlaqələrin qurulmasının 30 illiyi qeyd olunub.

İclasda Birgə Komissiyanın Azərbaycan Respublikası tərəfindən həmsədri, rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Samir Məmmədov ölkəmizin ötənilki makroiqtisadi göstəriciləri və iki ölkə arasında ticarət dövriyyəsinin həcmi barədə məlumat verib. Nazir müavini bildirib ki, Azərbaycan Koreyanın Cənubi Qafqaz regionunda ən böyük ticarət tərəfdaşıdır.

Samir Məmmədov Koreya nümayəndə heyətinə 44 günlük Vətən müharibəsi nəticəsində Ermənistan işğalından azad edilmiş Azərbaycan ərazilərində aparılan yenidənqurma və bərpa işlərindən danışıb. Diqqətə çatdırıb ki, işğaldan azad edilən ərazilər "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyası əsasında yenidən qurulur və bu region "yaşıl enerji" zonası elan olunub.

Nazir müavini Azərbaycanda nəqliyyat və rəqəmsallaşma sahəsində həyata keçirilən işlər, eləcə də Orta Dəhlizlə daşımaların asanlaşdırılması üçün görülən tədbirlər haqqında məlumat verib. Xüsusilə vurğulayıb ki, Zəngəzur dəhlizinin reallaşdırılması regionda sabitliyə, inkişafa öz töhfəsini verəcək və onun tranzit potensialını gücləndirəcək.

İclas zamanı qarşılıqlı investisiyalar, sənaye, ticarət, kənd təsərrüfatı, energetika, təhsil, səhiyyə, mədəniyyət və turizm sahələrində əməkdaşlıq imkanlarına dair geniş müzakirələr aparılıb.

Sonda Azərbaycan Respublikası Hökuməti və Koreya Respublikası Hökuməti arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Komissiyanın üçüncü iclasının Protokolu imzalanıb.

***"Xalq qəzeti"***

# Lənkəranda ilk dəfə aritmoloji prosedurlar həyata keçirilib



**Kardioloq – aritmoloqlar Ata Kırılmaz və Günay Rəhimova tərəfindən 3 pasiyentə ürəkdaxili cihaz implantasiyası, 2 pasiyentə isə ürək ritm pozğunluğunun (aritmiyanın) ablasiya metodu ilə invaziv müalicəsi icra edilib.**

Əməliyyatlar uğurla nəticələnib və pasiyentlər bir gün sonra ambulator müalicə üçün evə buraxılıblar. Bu xidmətlər Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) tabeliyində fəaliyyət göstərən Lənkəran Rayon Mərkəzi Xəstəxanasının İnvaziv kardiologiya şöbəsində ilk dəfə olaraq aritmoloji prosedurlar həyata keçirilərkən icra edilib.

Qeyd edək ki, İstanbul Gülhane Askeri Tıp Akademisinin məzunu, uzman kardioloq, professor doktor Ata Kırılmaz 2015-ci ildən Azərbaycanda ürək xəstələrinə xidmət edir. Ritm pozulmaları, nəfəs darlığı, aritmiya, aorta anevrizmi və bir sıra problemlə ona müraciət edənlərin ümidini doğruldur. Kardioloq aritmoloq Günay Rəhimova ürək döyüntülərinin həm dərman, həm əməliyyat yolu ilə ləğv edilməsi, ürəyə müxtəlif cihazların implantasiyası, ürək xəstəliklərinin müasir diaqnostikası, müalicəsi və ürək çatışmazlığı ilə məşğul olur. O, 2005-ci ildə Azərbaycan Tibb Universitetini bitirdikdən sonra, 2013-cü ilədək Mərkəzi Klinikada çalışıb. İstanbulda aritmologiya və cihaz implantasiyası üzrə ixtisasartırma kursunda və bir neçə dəfə Türkiyə və Avropada aritmologiya üzrə keçirilən ixtisasartırma kurslarında, seminar və konfranslarda iştirak edib. 2015– 2021-ci illərdə Avrasiya Hospitalda kardioloq-aritmoloq olaraq çalışıb. 2021-ci ildən isə peşəkar fəaliyyətinə Ege hospitalda davam edir.

Günay Rəhimova deyir: "Lənkəran Rayon Mərkəzi Xəstəxanasında çox əlamətdar işlər gördük. Aritmologiya bölümü olaraq ilk ablasiyalarımızı icra etdik, üç ədəd cihaz implantasiyası əməliyyatı etdik. Ölkədə, eləcə də Cənub zonası kimi böyük bir bölgədə bu əməliyyatların icrası, koronar angioqrafiyanın olması bir zamanlar xəyal idi, indi gerçək oldu. Bizə bu gün yardım edən hər kəsə təşəkkür edirik. Bu prosesdə Lənkəranın tanınmış həkimi Taleh Şahverdiyev və Vüsal Dənziyev də yanımızda idi. Ümumiyyətlə, bölgələrdə angioqrafiya laboratoriyalarının olması çox gözəl haldır. Kardiologiyanın inkişafında İcbari Tibbi Sığortanın dəstəyinin də rolu böyükdür. Biz birlikdə güclüyük."

Qeyd edək ki, Lənkəran Rayon Mərkəzi Xəstəxanasının İnvaziv kardiologiya şöbəsi 3 fevral 2023-cü il tarixindən fəaliyyətə başlayıb. İndiyədək şöbədə 233 xəstəyə kardiocərrahi xidmət göstərilib.

***Z.HÜSEYN,***
***"Xalq qəzeti"***



# Moldova səfiri İqtisadiyyat Nazirliyində

**İqtisadiyyat naziri Mikayıl Cabbarov Moldovanın ölkəmizdəki səfiri Aleksandr Esaulenko ilə görüşüb.**

Görüşdə Azərbaycan Respublikası ilə Moldova Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə birgə Hökumətlərarası Komissiyanın əməkdaşlığımızın dərinləşməsində önəmi vurğulanıb, iki ölkə arasında ticarət dövriyyəsinin artırılması ilə yanaşı, enerji, nəqliyyat-logistika, kənd təsərrüfatı, İKT, bərpaolunan enerji və digər istiqamətlərdə əməkdaşlıq imkanları müzakirə olunub. Qeyd edilib ki, Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi ilə bağlı Strateji Tərəfdaşlıq sazişinin həyata keçirilməsi Moldovanın da yerləşdiyi regionun enerji təhlükəsizliyində əhəmiyyətli rol oynayacaq.

Tərəflər qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

***"Xalq qəzeti"***

# Azərbaycanın xarici işlər naziri Slovakiyada



**İyunun 7-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Slovakiya Respublikasına səfəri çərçivəsində bu ölkənin xarici işlər və Avropa məsələləri üzrə naziri Miroslav Vlaxovski ilə görüşüb.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildirilib ki, Ceyhun Bayramov və Miroslav Vlaxovski arasında təkbətək müzakirələrdən sonra, hər iki tərəfin nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüş keçirilib.

Görüşdə tərəflər ölkələrimiz arasında siyasi, iqtisadi, energetika, turizm, təhsil, kənd təsərrüfatı, hüquq-müqavilə və mədəni-humanitar sahələrdə mövcud olan ikitərəfli əməkdaşlıq əlaqələri barədə fikir mübadiləsi aparıblar. Cari il diplomatik əlaqələrin 30 illiyinin qeyd olunduğu, bu çərçivədə bir sıra mədəni tədbirlərin keçiriləcəyi diqqətə çatdırılıb.

Geniştərkibli görüş zamanı aparılan hərtərəfli müzakirələr zamanı əməkdaşlığın hazırkı səviyyəsindən məmnunluq ifadə edən tərəflər diplomatik təmsilçiliklərin genişləndirilməsi və yüksək səviyyəli qarşılıqlı səfərlərin intensivləşdirilməsi də daxil olmaqla ikitərəfli əməkdaşlığın daha da inkişaf etdirilməsi yollarını müzakirə ediblər.

Nazir C.Bayramov həmkarını postmünaqişə dövründə Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması prosesi, Ermənistanla sülh müqaviləsi üzrə aparılan danışıqların cari statusu və Ermənistan tərəfinin müxtəlif bəhanə və təxribatlarla bu prosesi ləngitməsi, eləcə də mina təhdidləri barədə məlumat verilib. İşğaldan azad olunmuş Azərbaycan ərazilərində aparılan bərpa və yenidənqurma işləri və bu prosesdə Slovakiya şirkətlərinin iştirakı qeyd olunub. Bununla yanaşı, minaların təmizlənməsi sahəsində Slovakiyanın müvafiq mina təmizləyən avadanlıqlarının əldə edildiyi, bu sahədə əməkdaşlığın genişləndirilməsinin vacibliyi bildirilib.

Slovakiyalı nazir Azərbaycanla ikitərəfli münasibətlərə olduqca böyük əhəmiyyət verildiyini və bu əməkdaşlığın inkişaf etdirilməsi üçün əlverişli imkanların olduğunu qeyd edib. O, Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması və regionda davamlı sülhün təmin olunması istiqamətində Avropa İttifaqı tərəfindən həyata keçirilən səylərə ölkəsinin dəstəyini diqqətə çatdırıb.

Geniş tərkibli görüşdən sonra nazirlər Azərbaycan Respublikası ilə Slovakiya Respublikası arasında gəlirlərə görə vergilərə münasibətdə ikiqat vergitutmanın aradan qaldırılması və vergidən yayınmanın qarşısının alınması haqqında Sazişi imzalayıblar.

***

**İyunun 7-də Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Slovakiyaya işgüzar səfəri çərçivəsində Milli Assambleyasının sədri Boris Kollar ilə görüşüb.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən bildirilib ki, görüşdə Azərbaycan və Slovakiya arasında dostluq və əməkdaşlıq ruhunda inkişaf edən münasibətlərin hazırkı səviyyəsindən məmnunluq ifadə edilib. İki ölkə arasında əlaqələrin daha da inkişaf etdirilməsi, keyfiyyətcə yeni səviyyəyə - strateji tərəfdaşlıq səviyyəsinə yüksəldilməsi üçün səylərin birləşdirilməsinin vacibliyi vurğulanıb. Slovakiyada Azərbaycan səfirliyinin təsis edilməsi planlarının ikitərəfli münasibətlərin daha dərinləşdirilməsi nöqteyi-nəzərindən əlamətdar hadisə olduğu diqqətə çatdırılıb.

Görüşdə parlamentlərarası əlaqələrin, nümayəndə heyətlərinin qarşılıqlı səfər və görüşlərinin, o cümlədən beynəlxalq parlament təşkilatları çərçivəsində əməkdaşlığın inkişaf etdirilməsinin əhəmiyyətindən söz açılıb. Habelə, iki ölkə arasında çoxtərəfli formatlarda əməkdaşlığın davam etdirilməsinin əhəmiyyəti vurğulanıb.

Nazir Ceyhun Bayramov Azərbaycan və Ermənistan arasında normallaşma prosesi, sülh gündəliyinin irəli aparılması istiqamətində Azərbaycan tərəfindən atılan addımlar, Ermənistanın sülh prosesinə xələl gətirən hərbi-siyasi təxribatları barədə qarşı tərəfi məlumatlandırıb. Münaqişədən zərər çəkmiş ərazilərin reabilitasiyası və yenidən qurulması, habelə əhalinin reinteqrasiyası istiqamətində Azərbaycan tərəfindən atılan intensiv addımlardan bəhs edib. Slovakiya şirkətlərinin və investorlarının Azərbaycanın Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında birgə investisiya, bərpa və quruculuq layihələrində iştirak niyyəti yüksək qiymətləndirilib.

Görüşdə işğaldan azad edilmiş ərazilərin mina və partlayıcı maddələrlə kütləvi şəkildə çirklənməsinin bərpa və yenidənqurma işləri, habelə məcburi köçkünlərin öz evlərinə təhlükəsiz qayıtmasının təminatı üçün əsas maneə olduğu diqqətə çatdırılaraq, mina problemi ilə mübarizədə Slovakiya tərəfi ilə əməkdaşlıq məmnunluqla qeyd olunub.

Boris Kollar Azərbaycan-Slovakiya əlaqələrinin daha da inkişaf etdirilməsinə hərtərəfli dəstək verməyə hazır olduğunu bildirib. O, Azərbaycana səfərini məmnunluqla xatırlayıb və əməkdaşlıq üçün geniş potensialın mövcudluğunun şahidi olduğunu diqqətə çatdırıb.

***"Xalq qəzeti"***

# Ermənistan Naxçıvanla sərhəddə ekoloji təhlükə yaradır

**Ermənistan Naxçıvan Muxtar Respublikası ilə həmsərhəd bölgədə və Türkiyə ilə sərhədə çox yaxın ərazidə - Arazdəyəndə ABŞ sərmayəsi ilə 70 milyon dollarlıq iri metallurgiya zavodu inşa etməyə hazırlaşır. Bu günlərdə Ermənistan mətbuatında bu barədə çap olunmuş "Ermənistan Arazdəyəndə iri metallurgiya zavodu tikməyə hazırlaşır" sərlövhəli məqalə həmin ərazinin qonşuluğunda yerləşən Sədərəkdə ciddi narahatlığa və narazılığa səbəb olub.**

Zavodun inşası geniş zolaqda ətraf mühitin, ekosistemin pozulmasına, havanın zəhərli tullantılarla çirklənməsinə gətirib çıxaracaq. Sakinlər bildirirlər ki, zavodun yerləşəcəyi Arazdəyən kəndi Araz çayının kənarındadır. Zavoddan çıxan tullantılar, sözsüz ki, Araz çayına axıdılacaq. Bu da Naxçıvan, o cümlədən Sədərək sakinlərinin haqlı narazılığına səbəb olub.

Rayon sakinləri bildiriblər ki, bu, Ermənistanın növbəti ekoloji cinayətidir. Çünki Araz çayının bir qolu olan "Şir arxı" da dəfələrlə ermənilər tərəfindən çirkləndirilib, canlılar məhv olub. Ermənistan zavod tikmək istəyirsə, sərhəddən kənarda da tikə bilər.

Sədərək rayonunun ekofəalları bildiblər ki, ərazidə zavodun inşası sərhəddə yerləşən Sədərəkdə mal-qaranın və əkinlərin məhvinə, insanların ciddi xəstəliklərlə üzləşməsinə gətirib çıxara bilər. Mütəxəssislər isə qeyd edirlər ki, müvafiq beynəlxalq konvensiyanın şərtlərinə görə, hər bir dövlətin ərazisində planlaşdırdığı iri təsərrüfatın digər ölkələrin ərazisinə mənfi ekoloji təsiri ola bilərsə, bu fəaliyyət razılaşdırılmalı, ətraf mühitə təsirin qiymətləndirilməsi ilə bağlı sənəd hazırlanmalıdır. Azərbaycan və Ermənistan həmin Konvensiyanın tərəfləridir.

**"Xalq qəzeti"**

# Erməni elmi saxtakarlığı: uydurma tarixdən siyasi iddialara

**Bu yazıda erməni tarixçilərin VII–XVI əsrləri əhatə edən, təxminən, minillik bir dövrdə cəfəng "Böyük Ermənistan" iddiası üçün "elmi əsas" yaratmaq avantürasına qısaca aydınlıq gətirəcəyik.**

Tarixi həqiqət budur ki, əvvəlcə Ərəb xilafəti, sonra isə türk-müsəlman dövlətlərinin siyasəti ermənilərə nisbi inkişaf və sabitlik gətirdi. Məhz bunun nəticəsində ermənilər təhlükədən xilas oldular və bundan istifadə edərək həmin ərazilərdə möhkəmlənməyə başladılar. Erməni-qriqorian kilsəsi də bu prosesdə mühüm rola malik olub. Ermənistanda xristianlığın qəbulu ilə dövlətin ləğvi arasında elə də çox vaxt keçməyib.



Ümumiyyətlə, xristian dövlətlərinin tarixində bir vacib məqam olub. Xristian dini ilə dövlət sıx bağlı olub. Erməni xristianlığı isə dövlətdən məhrum olduqdan sonra onun naminə də fəaliyyətini genişləndirib. Azərbaycan torpaqlarının da "birləşmiş erməni dövlətinin" tərkibinə "daxil edilməsində" ruhanilərin böyük rolu olub və bu siyasət kilsə tərəfindən də davam etdirilib.

Ərəb xilafətinin yaxından iştirakı ilə erməni-qriqorian kilsəsinin Qarabağın dağlıq hissəsində alban əhalisinin qriqorianlaşdırılması və erməniləşdirilməsi siyasətinə dəstək verilib. Erməni-qriqorian kilsəsi alban kilsəsinə qarşı da amansız mübarizə aparıb. Bu, sadəcə, dini rəqabət deyil, siyasi məqsədlərdən irəli gəlib. Qriqorian kilsəsi İslamın əhatə dairəsindən kənarda qalan albanları qriqorianlaşdırmaqla alban xristian irsi ilə yanaşı, onun torpaqlarına da iddia irəli sürüb.



Məhz bunun nəticəsi idi ki, ermənilər Xilafətin dağılmasından sonra siyasi təşkilatlanmağa, hətta Azərbaycan ərazisində meydana gələn bəzi dövlət qurumlarını (Xaçın knyazlığı, Sünik çarlığı və s.) mənimsəməyə çalışıblar. Halbuki, burada yalnız kilsənin təsiri altında qriqorianlaşmış alban nəsillərindən bəhs oluna bilər.

Türk-müsəlman dövlətləri isə ermənilərə xeyirxah münasibətləri ilə fərqlənib. Səlcuqlar, necə deyərlər, erməniləri Bizansın əlindən xilas ediblər. Bir sıra erməni siyasi qurumları, o cümlədən Kilikiya çarlığı (108–1375) da bu dövrdə meydana gəlib. Daha mühüm bir hadisə isə Qaraqoyunlular dövründə baş verib. Cahanşah tərəfindən erməni–qriqorian kilsəsi mərkəzinin 1441-ci ildə Eçmiədzinə (Üçkilsəyə) köçürülməsi ilə ermənilərin mövqeyinin möhkəmlənməsinə yeni stimul yaranıb.

Ermənilər Ərəb xilafətinin dağılmasından sonrakı ənənəyə uyğun olaraq, bu dövrdə də Azərbaycan ərazisində meydana gələn məlikləri özününkü hesab etməyə çalışıblar. Beləliklə, ermənilərin Azərbaycan torpaqlarına qarşı siyasi iddiaları formalaşmağa başlayıb. Bütün bunlara baxmayaraq, istər Qaraqoyunlu, istərsə də Ağqoyunlular zamanında və 1501-ci ildə meydana gələn Mərkəzləşdirilmiş Azərbaycan Səfəvi dövlətinin ilk dövründə güclü hakimiyyət ermənilərin baş qaldırmasına imkan verməyib. Bununla da, ermənilərin Azərbaycan torpaqlarına siyasi iddiaları onun ələ keçirilməsi uğrunda xəyanətkar fəaliyyət üçün də zəmin hazırlayıb.

Ermənilərin Osmanlı hakimiyyətinə keçməsi ilə yeni bir şərait meydana gəlib. Yeni yaranmış geostrateji vəziyyətdə Avropa üçün onun rəqibi kimi Osmanlı dövlətinin xristian əhalisi olan ermənilərin əhəmiyyəti artıb. Ermənilər də fürsətdən istifadə edərək Avropa dövlətlərindən Osmanlı və Səfəvi hakimiyyətinə qarşı mübarizədə vasitəyə çevrilməyə başlayıb. Erməni tarixşünaslığı bunu azadlıq hərəkatı kimi qələmə verməyə çalışır. Bu məsələ erməni tarix konsepsiyasının fundamentlərindən birinə çevrilib. "Böyük Ermənistan" mifindən çox bəhs edildiyi halda bu məsələ diqqətdən kənarda qalıb.

Azadlıq hərəkatı prinsipcə əsarət altında olan xalqın müstəmləkəçilərə qarşı ümumxalq mübarizəsini, dövlət yaratması və ya bərpasını nəzərdə tutur. Ermənilər də bunu nəzərə alaraq belə bir mövzuya xüsusi önəm verməyə çalışırlar. Bu zaman da elmi baxımdan ciddi yanlışlığa yol verirlər. Erməni tarix kitablarında XVI–XVIII əsrlər "azadlıq hərəkatı"nın mühüm dövrü kimi ayrılır. Cənubi Qafqazda Rusiya işğalından sonra azadlıq hərəkatı yalnız Osmanlı dövlətinə aid edilir.

Erməni tarixşünaslığının "azadlıq hərəkatı" barədə konsepsiyasının formalaşmasının gedişi də bu məsələyə aydınlıq gətirir. A.R.İoannisiyanın kitabında XVIII əsrin 80-ci illərində azadlıq hərəkatından bəhs olunur, P.T.Arutyunyanın kitabında isə bu hərəkatın xronologiyası XVIII əsrin birinci rübünə aparılır. Daha sonra isə xronologiya bir qədər də dərinləşdirilir və XVI–XVII əsrlərə aparılır.

Erməni azadlıq hərəkatı kimi təqdim edilən mövzunun məzmunu da bu məsələnin mahiyyətinə uyğun gəlmir. Belə ki, bu barədə müddəaların ümumiləşdirildiyi erməni xalqının tarixinə dair kitabların müvafiq hissəsini nəzərdən keçirdikdə, əslində, "azadlıq hərəkatı"na aid bir elmi fakt da verilmir, yalnız bəzi gizli yığıncaqlardan bəhs olunur. Ən diqqətəlayiq məsələlərdən biri də odur ki, "azadlıq hərəkatı"nın ideologiyası kimi təqdim edilən heç bir fikir göstərilən coğrafiyada nə meydana gəlir, nə də dəstəklənir.

"Erməni azadlıq hərəkatı" kimi təqdim edilən məsələdə Azərbaycan torpaqlarına mühüm yer ayrılır. Bu məqsədlə əvvəllər olduğu kimi, Azərbaycan torpaqları və burada meydana gələn dövlət qurumları Ermənistan kimi qələmə verilir. 1555-ci il və onu təsdiq edən 1639-cu il müqaviləsi ilə Ermənistanın bölüşdürülməsi, onun qərb hissəsinin Osmanlı imperiyasına, şərq hissəsinin, yəni Qərbi Azərbaycan torpaqlarının isə Səfəvilərə çatması iddia olunur. Bununla da 387-ci il Roma-Sasani müqaviləsi ənənəsi davam etdirilir, bu hadisələr arasında varislik yaradılmasına cəhd olunur.

Tarixi faktlar 387-ci il müqaviləsi kimi, 1639-cu il müqaviləsi barədə də erməni müddəasını təsdiq etmir. Türkiyə – İran (əslində, Səfəvi) sərhədi üzrə komissiyanın komissar–vasitəçisi Y.İ.Çirikov bu barədə yazırdı ki, bu traktatın tam doğru mətni, məlum olduğuna görə, saxlanmamışdır. Onun kitabına müqavilənin tərcümə edərək əlavə etdiyi mətnində isə erməni ilə bağlı heç bir ifadə yoxdur.

"Şərqi Ermənistan"da, yəni Azərbaycan torpaqlarında hələ XV əsrdən mövcud olduğu bildirilən yarı muxtar erməni dövlət qurumlarına Xəmsə məlikləri (1603-XVIII əsr) də əlavə edilir. Xəmsə məlikliklərinin erməni dövlətçiliyinə aid edilməsi kimi, "yarı muxtar erməni dövlət qurumu" haqqında anlayışın özü də tamamilə səhv olub, dövrün heç bir hüquqi-siyasi sənədi ilə təsdiq olunmur və s.

Beləliklə, "erməni azadlıq hərəkatı" kimi təqdim edilən fəaliyyət mahiyyətcə xarici dəstək vasitəsilə Azərbaycan torpaqlarını işğal cəhdindən ibarət idi. Sonrakı dövrdə isə Qarabağ və İrəvan torpaqları Rusiya imperiyasına "erməni dövlət qurumları" kimi deyil, məhz Azərbaycanın əzəli əyalətləri kimi birləşdirilib.

***Kərim ŞÜKÜROV,***
***AMEA Tarix İnstitutunun baş direktoru, professor***

**"Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan və digər rəsmilər bu günlərdə verdikləri bəyanatlarında Azərbaycanda yaşayan ermənilərin hüquqları məsələsi ilə bağlı spekulyasiya edərək ölkəsinin aqressiv və riyakar siyasətini nümayiş etdirməkdə davam edirlər". Qərbi Azərbaycan İcmasının bu məsələ ilə bağlı yaydığı bəyanatın davamında deyilir:**

# Ermənistan Qərbi Azərbaycan İcmasına niyə cavab vermir?

– Xatırladaq ki, Ermənistan hökuməti bu ölkədə vaxtilə kompakt şəkildə yaşamış yüz minlərlə azərbaycanlının hamısını qovub və onların mədəni irsini sistemli şəkildə dağıdıb. Ermənistan hökuməti həmin insanların qanuni təmsilçisi olan Qərbi Azərbaycan İcmasının qayıdış hüququnun təmin edilməsi üzrə dialoqa başlamaq çağırışlarına cavab vermir.



Ermənistanın öz ərazisindən qovduğu azərbaycanlıların qayıtmaq hüququnu təmin etməkdən nümayişkaranə şəkildə imtina etməsi azmış kimi, Azərbaycanda yaşayan ermənilərin hüquqlarının qorunması bəhanəsi altında ölkəmizin ərazi bütövlüyünə zidd olan və dövlətlərin daxili işlərinə qarışmamaq prinsipini pozan yanaşma sərgiləyir. Ermənistan rəsmiləri Azərbaycanda yaşayan ermənilərlə bağlı hansısa beynəlxalq mexanizm yaradılması kimi sərsəm ideyalarını səsləndirməkdə davam edirlər.



Ermənistan hökumətinin Qərbi Azərbaycan İcmasının dialoq çağırışını cavabsız qoyması və Azərbaycan hökumətinin dialoq dəvətinə mənfi cavab vermiş və Azərbaycanın ərazi bütövlüyünə açıq-aşkar qarşı çıxan separatçı ünsürlər üçün hansısa beynəlxalq mexanizmin yaradılmasına çalışması bu ölkənin destruktiv siyasətini göstərir.

Bəyanat bu sözlərlə bitir: "Qərbi Azərbaycan İcması Ermənistan hökumətindən beynəlxalq hüquqa və insan haqlarına zidd siyasətdən əl çəkməyi, qovduğu azərbaycanlıların beynəlxalq verifikasiya və zəmanət mexanizmləri çərçivəsində öz evlərinə təhlükəsiz və ləyaqətli şəkildə qayıtmalarına şərait yaratmağı tələb edir".

***"Xalq qəzeti"***

# Ay durna



*Mən də qərib, sən də qərib,*
*Bu dərdimi qan, ay durna.*
*Göyçəmizdən keçər olsan*
*Şahdağına qon, ay durna.*

*Ağca güllər yerindisə,*
*Göycə göllər yerindəsə,*
*Bizim ellər yerindəsə*
*Məni orda an, ay durna.*

*Qoy dönüm sənin başına,*
*Gəl yuyum gözüm yaşına.*
*Dön bir səməndər quşuna,*
*Sən də məntək yan, ay durna.*

*Qəbristanı gəz ahəstə,*
*Ruhlar qərib, ruhlar xəstə.*
*Qon anamın qəbri üstə,*
*Ağla, sızla, can, ay durna.*

*Eldar çaşqın, həyat zəhər,*
*Dünya yalan, ömür qəhər.*
*Ağbulaqdan versən xəbər*
*Heç də olmaz qan, ay durna!*

***Eldar İSMAYIL***

**Göycədə doğulub-böyümüş, onun sadiq övladı olmuş, doğma yurddan aralı düşdüyü illərdə isə vətən həsrətini yaradıcılığının baş mövzusuna çevirmiş mərhum şair-publisist Eldar İsmayılın sözləridir: "Ulularımızın əməlləri yaddaşa, kökə, baba əxlaqına çağırır bizləri".**

# Ulu Göyçə, saza od ver, köz saxla

Azərbaycan türk mədəniyyətinin allı-güllü yaylağı sayılan ulu Göyçə həm də saz-söz, şeiriyyət sənəti səltənətidir. Göyçəninmi, yoxsa Azərbaycanınmı yaddaşıdır Eldar İsmayıl?! Daha dürüst desək, türkün minilliklərə enən, neçə-neçə minilliklərdən gələn qan yaddaşıdır Eldar İsmayıl şeiriyyəti. O yaddaş ki, halallıq, əzəmət, cəsarət, mərdlik kimi ülvi dəyərlərdən doğulmuşdur:

*Dədəm Qorqud soy soylayıb Ayğırda,*
*Qopuz tutub, boy boylayıb Ayğırda,*
*Salur Qazan oy oylayıb Ayğırda,*
*Qaraca Çoban burda sapand tutubdu,*
*"Qılınc Qaya" o sapanddan qopubdu.*

Eldar İsmayıl torpaqla, Vətənin daşı-çınqılı ilə nəfəs alan böyük şairimiz idi. Göyçə kimi bir Cənnət itirəsən, ilahi məkan itirəsən... sonra isə sakitcə evində oturub gözləyəsən ki, torpağım nə vaxt yağılardan azad olunacaq?!. Bu idi onu yandıran və həsrət tonqalına çevirən. Sözlər deyil, od–alov idi onun qəlbində qopan. O sözlər qanımızdan, genimizdən, Uca Türk adından – Göyçə ruhundan gəlirdi:

*Ulu Göyçə, bir qopuzun tufanı,*
*Çənlibeidən dönüb tökər dumanı...*
*Səndə yaşar Dədəm Qorqud imanı!*

Şəhriyar ruhlu şairin yaradıcılığı haqqında çox eşitmişdim. Eyni zamanda, vurğunu olduğum şairimiz Zəlimxan Yaqubun "Göyçə dərdi" poeması da məni çox kövrəltmişdi...



"Ulu Göyçə, de yatanlar ayılsın" poemasını oxuyur, oxuduqca isə yenidən o gözəl diyarı, o cənnət məkanı qarış-qarış gəzirəm. Təkcə tanış məkanlar, tanıdığım insanlar, bizlərə xas həyat tərzi deyil, o yerlərin şirin ləhcəsi, lətifələri, arxaik sözləri, sinələri folklorla, minilliklərdən axıb gələn dəyərlərlə dolu olan bir mahalın bizlərdən necə "ucuz" qoparıldığına dönə-dənə ağlayıram...

Bu Vətən ətrini mənim kimi minlərlə adamın köksünə, ruhuna ötürən isə bizləri yenidən Göyçəli dunyaya aparan Eldar İsmayıl Böyüktürk yaradıcılığıdır. Uzun hörüklü yatmış gözəli xatırladan Göyçə gölünün (bizlər ona dəniz deyərdik) firuzəyi rəngi – mavi gözləri gözlərim önündə bir daha canlanır. Tarixi məkanlar, etnoqrafiyalar, övliyalar–şəxsiyyətlər məkanı, üsyankar ruhlu–türk xislətli, cahillikdən–cəhalətdən uzaq bir mahal: "Ulu Göyçə, de, yatanlar ayılsın" adlı gözəl poemasındaşair Göyçədə qalan, yaşanmamış nakam sevgimizi, bu nakam istəyimizi obrazlı qaydada bu acı həsrətimizi necə də gözəl ifadə edir:

*Ulu Göyçə, saza od ver, köz saxla,*
*Mən gəlincə Oğuzlardan iz saxla.*
*Bir ad deyim, dəftərinə yaz, saxla,*
*Millət ünlü bir ozandı bu Eldar!*
*Göyçə adlı dərd qazandı bu Eldar!*

Qərbi Azərbaycan, ulu Göyçə mahalının neçə-neçə minilliklərdən bu yana yetirdiyi sazlı-söhbətli dünyanın daha bir istedadlı, zəhmətkeş oğludur Eldar müəllim. Elə birisi ki, yeni söz demir, daha doğrusu, içindən gəlir Göyçə sevgisi. Bu, sevgi dolu haray, üsyan idi. Göyçə adlı ilahi vergidən qaynaqlanıb Eldar İsmayıl dünyası. O dünya ki, halallıqdan, işıqdan, nurdan, bərəkətdən yoğrulub onun mənəviyyat aləmi. Eldar İsmayıl üçün dünyanan ən gözəl, ən ilahi Yer üzüdür Göyçə.

Göyçənin tarixi yatır onun yaradıcılıq dünyasında – istər şeiriyyət aləmində, istərsə də sənəd və faktlar əsasında yazılmış tarixi roman və nəsr əsərlərində. Onun göycə barədə poemasından duyduğum və anladığım odur ki, göyçəli doğulmaq da, göyçəli olmaq da bir xoşbəxtlik imiş:

*Göz önündə "Qara Quzey" örüşü,*
*Qartallarla palıdların görüşü,*
*"Korabulağa" ağır ellər gəlişi,*
*Abbas kişi bir gün elsiz olmayıb!*
*Onsuz burda şir də çəhlim salmayıb!*

Bu misralarda haqqında söhbət açılan kişi mənim Ana babam Abbas Yusif oğlu Əhmədovdur. Göyçənin mərd, çörək verən kişilərindən biri olub. Uzun illər Qərbi Azərbaycanda məsul vəzifələrdə çalışıb.

Tarixi məkanlar, tanış adlar, cığırlar, izlər–elə bil ki, üz tutub gəzirik–bütün Göyçə mahalını. Və mahalda yerləşən kəndlərin adları, hər kəndin isə özünəməxsus xarakteri. Bu yerləri gəzib dolaşdıqca isə içimizdəki nisgil azalmaq əvəzinə daha da artır: Ulu Göyçədən Ulu Şəhriyara göndərilən SALAM məni həm kövrəldir, həm də ki,... həm də ki, "Heydərbabaya Salam" xəyalımı uzaqlara–Göyçəli günlərə aparır:

*Bizdən də mümkünsə, bir yad eylə,*
*Açılmayan ürəkləri şad eylə...*

Eldar müəllimin göndərdiyi salam isə məhz sazlı-sözlü olmalıdır, lap elə Göyçənin özü kimi sazlı–söhbətli olmalıdır, çünki Göyçə təkcə aşıqlar yurdu deyil-aşiqlər, aşıqlar məkanıdır, Dədə Ələsgər sədalı, Aşıq Alı soraqlıdır! Miskin Abdal övliyalığı, Seyid Bayram Ağa ocaqlı, Mir Yaqub Ağa sədalı müqəddəs məkandır Göyçə. Bu aşıqlar-aşiqlər yurdunun şeiriyyət ruhlu Ozan Heydər ruhlu – Vətən sevdalı oğludur Eldar İsmayıl:

*Ulu Göyçə, Şəhriyara saz göndər,*
*Salamımı bir məktuba yaz göndər,*
*Şah dağından Savalana buz göndər*
*Ürəklərdə bir istilik, sərinlik.*
*Məhəbbətdə dəryalarca dərinlik…*

Onun yaradıcılığı o qədər şaxəli, hərtərəflidir ki, heç bilmirəm hansı səmtdən boylanam, hansı prizmadan yanaşam. Vətəndaş mövqeli, Azərbaycan–Göyçə sevgili Eldar İsmayılın yaradıcılıq dünyası olduqca geniş, əhatəlidir ki, bu Böyük türkün yaradıcılığının bütün istiqamətləri Azərbaycanın sabahı naminədir. İçərisində gəzdirdiyi, əsərlərində minbir məhəbbət və ehtiramla vəsf etdiyi Azərbaycan–Göyçə sevgisi Onunla yaşayır və hər birimizi təkrar-təkrar o gözəl, o ilahi yurda dönməyə çağırır.

***Məlahət İSMAYILQIZI,***
***şair-publisist***



# "Zəfər yürüşü"nün qalib şairləri




**Düz 30 il əvvəl çalışdığımız dövlət televiziyasından ağsaqqal yazıçımız Vidadi Babanlı ilə Qərb bölgəsinə ezamiyyətə getmiş, AYB Qazax bölməsinin sədri, şair Barat Vüsalla əsgərlərin görüşünə yollanmışdıq. O zaman oxunan şeirlər, söylənən fikirlər Vətən müdafiəçilərini xeyli ruhlandırdı, hətta onlardan bir neçəsi ürəklənərək səngər şeirlərindən nümunələr səsləndirdilər.**

Ötən ilin yayında Şuşada Vaqif Poeziya Günlərində "İgidlərin sözü" kompozisiyasında qazi-şairlərin muğamın müşayiəti ilə çıxışları bir daha həmin günləri, əsgərlərin barıt qoxulu misralarını yada saldı.

İkinci Qarabağ müharibəsinin səngərlərində neçə-neçə döyüşçü-şairimiz vuruşub. Onlardan bəziləri döyüş meydanlarında müqəddəs şəhidlik zirvəsinə ucalıb, sağ qalanlarsa, Barat Vüsalın təbirincə desək, hələ də səngərdədirlər: "Neçə ki, Vətən var, torpaq var, bayraq var, həmişə də səngərdə olacaqlar. Onlardan biri, istedadı yüksək qiymətləndirilmiş baş leytenant Emin Piri II Qarabağ müharibəsinin son dərəcə orijinal gündəliyini yazdı. Həm də yolboyu gedə-gedə şahanə misralar dedi:

*Formamda şair qardaşlarımın qanı,*
*Gözlərimdə 44 günlük gecənin yuxusuzluğu.*

Bu qazilərin qələmləri güllə gilizləri olub, onu öz qanlarına batırıb şeirlərini yazıblar. Varaqları olmadığı üçün duyğularını ürəklərinə, yaddaşlarına həkk ediblər. Sonradan vaxt tapıb "köçürə" biliblər, biz də xəbər tutaq, oxuyaq, bilək deyə!

*Allah üstümüzdən çəkməsə əlin,*
*Birgə yandırarıq zəfər məşəlin!*
*Hamının qorxduğu zalım əcəlin*
*Boyu boyumuzdan bəstədir, qızım!*

Həsən Kür adlı qazi-şairin bu misralarını oxuyuram və özümdən asılı olmadan ayağa dururam, "Azərbaycan əsgərinə (şəhidinə, qazisinə, şairinə) eşq olsun!" deyirəm. Düşünürəm ki, qazi şeirlərinin hər birini oxuduqca ayağa durmaq lazımdır. Şəhid önündə sayğı duruşuna dayanan kimi... Vətən müharibəsi haqqında şeirləri, qalib əsgər və zabitlərimizin ağrı-acılarını qazi-şairlər bizdən daha inandırıcı şəkildə ifadə edə bilirlər".

"Zəfər yürüşü"nə qoşulanlardan Eyvaz Əyyub, Səbuhi Qurbanov, Oğuz Alparslan, Nicat Ağayev, Cavid Əlioğlu, Orxan Səmədov, Elvin İntiqamoğlu və başqaları bu gün dinc quruculuq cəbhəsində çalışmaqda, həm də dava yaşantılarını özlərinə məxsus tərzdə yazmaqdadırlar. Onlardan bəzi nümunələrə nəzər salaq:

*Üçrəngli bayrağı sanc köksümə, övlad,*
*Fərz eylə, ağır xəstəyə imdad eləyirsən.*

***(Səbuhi Qurbanov)***

*

*Qurban bu can hər daşına,*
*Hər zərrənə, qarışına!*
*Bir gün ölsəm, başdaşıma*
*Yazılsın tarix daşıma:*
*"Canım qurban, Azərbaycan!"*

***(Oğuz Alparslan)***

*

*Şamaxıdan çıxdıq yola,*
*Baxmadıq heç sağa, sola.*
*Ermənidə niyə qalsın*
*Torpaq bizim ola-ola!*

***(Orxan Səmədov)***

*

*Noyabrın yeddisi,*
*Xocavənd ərazisi:*
*Bir tərəfdə əsgərlərin döyüşdən çıxardığı*
*baş leytenant Əsədov...*
*Bir tərəfdə yerə düşmüş rabitə:*
*- Qaya on bir... Qaya on bir...*
*Qaya on bir eşitmir!*

***(Elvin İntiqamoğlu)***

Göründüyü kimi, həm əsl Vətən övladları, Vətən əsgərləridir, həm də mənalı misralar yazır qazi-şairlərimiz. Onların şeirləri "Zəfər yürüşü"müzə, Böyük Qələbəmizə çox yaraşır. Ruhumuzun yaylım atəşləri kimi!

Nəhayət, qazi-şairlərimizdən seçdiyimiz iki şeirlə Vətən müharibəsində qələmini süngüyə çevirmiş soydaşlarımız haqqında qeydlərimizi tamamlayırıq.

***Əli NƏCƏFXANLI,***
***"Xalq qəzeti"***

## QARABAĞIM

*Verib sənə söz, gəlmişik,*
*Polad, Mübariz gəlmişik.*
*Qarabağım, biz gəlmişik,*
*Salam verir daşım, dağım,*
*Gözün aydın, Qarabağım!*

*Gözü qanlı qurdu gördüm,*
*Dəmir yumruq ordu gördüm.*
*Xalq ayağa durdu, gördüm,*
*Cəngi eşitdi qulağım,*
*Gözün aydın, Qarabağım!*

***Səbuhi QURBANOV***

## MƏN VƏTƏNƏM

*Adım bəlli, soyum bəlli, köküm bəlli,*
*Bir gün gedib Göyçə göldə*
*Qarmağımı atacağam,*
*Orda balıq tutacağam,*
*Bişirəcəm Ərdəbildə.*
*Mən Vətənəm!*
*Qapınızı döydüyümdə*
*Düşünmədən açın, mənəm.*
*Zəncan, Xoyam, Borçalıyam,*
*Şuşa mənəm, Laçın mənəm!*

***Nicat AĞAYEV***

**Haqqında söhbət açacağım qazi – Pərvin Namiq oğlu Rzayev 1989-cu ildə Sumqayıtda doğulub. 23 saylı məktəbi bitirib. Hərbi xidmətini 2007–2009-cu illərdə Salyanda N saylı hərbi hissənin Xüsusi Təyinatlı Bölüyündə keçib. Müharibədən öncə həvəskar futbolla və tennislə məşğul olub. Bank, sonra isə digər xidmət sektorlarında çalışıb.**

# "Təxliyə yerinədək ya qaçmalı, ya da sürünüb getməli idim"

Vətən müharibəsində döyüş yolu oktyabrın 3-də Füzuli istiqamətindən başlayan Pərvin deyir ki, düşmən orada 30 il ərzində çox çətin yarıla bilən beton bunkerlər inşa etmişdi. Elə bilirdilər ki, bu bunkerlər onlara kömək edəcək, amma Ali Baş Komandanın düzgün rəhbərliyilə rəşadətli ordumuz tərəfindən o bunkerlər darmadağın edildi. Bunkerlər çox çətin yarıla bilən beton sədlərdən ibarət idi, bəzən divarların qalınlığı 1–2 metrə qədər çatırdı. Bu müdafiə bunkerləri labirint formasında idi. Düşmən, hətta səngərlərin içində belə tülkü yuvaları kimi yerlər qazaraq gizlənirdi. Həmin yerlərə baxanda elə görünürdü ki, burada hansısa heyvan gizlənib. Bunkerlərdə çox sayda silah-sursat, mərmilər var idi. Səngərlər hamısı erməni leşləri ilə dolu idi.



Pərvin döyüşə oktyabrın 11-dək Füzulidə, sonra Qubadlı – Laçın istiqamətində davam edib. Ən çətin əməliyyatın Laçın istiqamətində olduğunu söyləyir:

– Noyabrın 3-də çox yağışlı hava idi. Göydən leysan yağırdı. Biz Laçın dəhlizini atəş altında saxlamalı idik. Çünki xüsusi təyinatlılarımız 2–3 istiqamətdən Şuşaya girməli idilər. İmkan verməməli idik ki, o yoldan Şuşaya kömək getsin.

Noyabrın 6-da bizə ağır artilleriya zərbələri endirməyə başladılar. Səhər saatlarında düşmənin 400-ə yaxın şəxsi heyəti əks-hücum əməliyyatına başladı. Onların niyyətini axşamdan anlamışdıq. Gecə havaya işıqlandırma atıb koordinatlarımızı öyrənmişdilər. Amma sayımız az olsa da, biz onlara elə zərbələr endirdik ki, geri çəkilməyə məcbur oldular və biz mövqeni əldə saxlaya bildik. O ağır döyüşdə çox şəhidlər, yaralılar oldu... Xocavənd, Xankəndi, Laçın istiqamətində döyüşlərdə cəsurcasına iştirak etdik. Tibb məntəqəsinin işçiləri də döyüş bölgəsində idi.

Noyabrın 8-də Laçın istiqamətində dəhliz deyilən yerdə düşmənin atdığı ağır artilleriya nəticəsində yaralandım. Döyüş yoldaşlarım Abdulla, Elçin ayağımı bağladılar ki, qan çox axmasın. Oradan çıxmaq mümkün deyildi. Çünki düşmən mövqeyimizi atəş altında saxlayırdı. Saat 12-də yaralanmışdım. Düşmən əks-hücuma keçmək istəyirdi. 200–300 metr aşağıda böyük qaya vardı. Oradan təxliyə edilirdik. Qaya da üzüaşağı idi. Oraya qədər yaralıları və şəhidləri çəkə-çəkə gətirirdik. Mən canlı-cəsədli olduğumdan onlara yük olmaq istəmirdim. Dedim ki, siz onları aparın, mən düşəcəm. Amma çox qan itirmişdim. Çaydan qalxdığımız təpənin altından atəşə tuş gəlməmək üçün 400–500 metrlik məsafəni ya qaçmalı idim, ya da sürünərək keçməli idim. Yolu vururdular. Uşaqlar razılaşmadılar. O 500 metrlik məsafəni məni çiyinlərində daşıdılar. Nəhayət təxliyə yerinə gəldik. Axşam saat 5-ə qalmış təxliyə oluna bildik. Özümü xoşbəxt hesab edirəm ki, dədə-baba yurdlarımızın, əcdadlarımızın doğulduğu torpaqların geri qaytarılmasında mənim də payım oldu.

Əslən Qubadlıdan olan qazi orada olanda atasına zəng vurub, gözaydınlığı verib.

Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə Pərvin Rzayev "Laçının azad olunmasına görə", "Qubadlının azad olunmasına görə", "Vətən uğrunda" və digər medallarla təltif edilib. Laçın döyüşlərində yaralanan qazi indi sol ayağında üç qəlpə ilə yaşayır. Müharibədə həmçinin qapalı kəllə-beyin travması alıb. Deyir müharibədən əvvəl evləri olmayıb, babasının evində yaşayırmışlar. Dövlətimiz ikinci qrup ömürlük əlil olan qazimizi Abşeron rayonundakı yeni yaşayış kompleksində üç otaqlı, tam təmirli mənzillə mükafatlandırıb. Dövlət Məşğulluq Agentliyinin özünüməşğulluq proqramı çərçivəsində isə lazım olan avadanlıqlarla təmin olunan qazi özünə yeni iş qurub. Vətənə lazım olan anda əlimdən gələn köməyi etməyə hazıram –deyir.

***Zərifə BƏŞİRQIZI, "Xalq qəzeti"***

# "Qarabağ" ordenli qazi

**Ehtiram Eldar oğlu Məmmədov səkkizillik təhsilini ata-baba yurdu Qubadlının Tarovlu kənd məktəbində alıb. Xain qonşularımızın o yerlərə sahib çıxmaq üçün törətdikləri fitnəkarlıqlara dözə bilməyən gənc peşəkar hərbçi kimi Vətəni qorumaq qərarına gəlib və 1992-ci ildə C.Naxçıvanski adına Hərbi Liseyə daxil olub.**

Sonra İstanbuldakı Küleli Əsgəri liseyinə göndərilib. Ardınca Ankara şəhərində yerləşən Quru Qoşunları Hərbi məktəbində oxuyub, daha sonra paraşütçülük və Dağ Komando kurslarını uğurla bitirib. Vətənə qayıdaraq hərbi hissələrdə müxtəlif vəzifələrdə xidmətini davam etdirib.

Vətən müharibəsi başlananda "N" saylı hərbi hissədə briqada komandirinin müavini olan Ehtiram Məmmədov Alxanlı–Füzuli istiqamətlərində döyüşlərə atılıb. Orada Azərbaycan Milli Ordusunun ilk əks-hücum əməliyyatları zamanı başından qəlpə yarası alıb, elə həmin yerdə ona tibbi yardım göstərilib. Tezliklə yenidən döyüşlərə qatılıb, Füzuli rayonunun Mahmudlu kəndinə qədər torpaqların düşməndən təmizlənməsində iştirak edib. Füzuli şəhəri alındıqdan sonra Ehtiram Məmmədov iki taborla digər kəndlər uğrunda döyüşlərdə hünər göstərib. Daha sonra Daşaltı–Şuşa istiqamətində gedən döyüşlərə qatılıb. Daşaltı kəndi işğaldan azad edilən zaman düşmən snayperinə tuş gələrək yaralanıb.

Müharibədən sonra Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin sərəncamları ilə "Qarabağ" ordeni, Füzulinin, Şuşanın və Xocavəndin azad olunmasına görə medallarla təltif edilib.

Onun 45 yaşı tamam olanda Sumqayıt stansiyası yaxınlığında məcburi köçkünlərin məskunlaşdığı qəsəbədə – Qubadlı rayon Əbülfəz Mehtiyev adına uşaq musiqi məktəbində tədbir keçirildi. Qubadlı Rayon İcra Hakimiyyəti başçısının müavini Allahverdi Haxverdiyev, YAP rayon təşkilatının sədri Təhmasib Rüstəmov, Azərbaycan Yazıçılar Birliyi Qubadlı regional bölməsinin sədri Namiq Məna, Sumqayıt Şəhər İcra Hakimiyyətinin Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsinin müdiri Tərlan Hacızadə, "Qartal" tikinti firmasının direktoru, Sumqayıt Şəhər Sahibkarlar Birliyinin sədri Şahin Məmmədov çıxışlarında Ehtiram Məmmədovun keçdiyi nümunəvi ömür yolundan, Vətən müharibəsində göstərdiyi şücaətindən ətraflı danışaraq ona uzun ömür, cansağlığı və uğurlar arzulayıblar. Qeyd edilib ki, 30 ilə yaxın işğal altında qalmış əzəli torpaqlarımız məhz şəhidlərimizin canı, Ehtiram kimi igid qazilərimizin qanı bahasına azad olunub. Təkcə İkinci Qarabağ müharibəsində Qubadlıdan 11 şəhid və 40-dan çox yaralı hərbçi öz adlarını şərəf tarixinə yazıblar.

**Onun dedikləri:**

– 2020-ci il sentyabrın 27-dən etibarən döyüşlərdə iştirak etmişəm. Elə davanın ilk günü düşmən tərəfindən atılan atəş nəticəsində yaralandım. Ancaq buna baxmayaraq, döyüşlərdə iştirakımı davam etdirdim. Daha 20 gün müddətində Füzuli istiqamətində döyüşlər getdi. Ermənilər orada çox möhkəm sədlər, yeraltı bunkerlər yaratmış, hər iki yüz metrdən bir səngərlər hazırlamışdılar. Ancaq bütün bunlara baxmayaraq, biz həmin istehkamları düşmənin başına yıxdıq. İşğalçı ordunu darmadağın etdik və dizini yerə qoyduq. Düşmən Azərbaycan əsgərinin inamının, şücaətinin qarşısında məhv oldu.

Cəsur polkovnik-leytenant Füzulinin ardınca Hadrut, Azıx və Tuğ kəndinin azad edilməsi uğrunda gedən döyüşlərə qatılıb. Həmin ərazilər də düşməndən təmizləndikdən sonra Şuşa istiqamətində döyüşlər başlanıb. Noyabrın 4-ü səhər saat 6-dan etibarən Daşaltı kəndindən Şuşa istiqamətində hücuma keçilib. Oradakı üçüncü düşmən mövqeyindən üzüaşağı sanki od yağırdı. Bu zaman Ehtiram snayper gülləsinə tuş gələrək ağır yaralanıb. Hadrutdakı hospitala təxliyə edilib və orada ilkin əməliyyat olunub. Ümumilikdə, yaralanması ilə əlaqədar beş dəfə əməliyyat olunub.



**Vətən müharibəsi qazisi hazırda dövlət tərəfindən diqqət və qayğı ilə əhatə olunduğunu qeyd edir:**

– Hazırda ehtiyatda olan zabitəm. Vətən müharibəsindən sonra dörd dəfə Ali Baş Komandanla görüşümüz olub. Həmin görüşlərdə Birinci vitse-prezident Mehriban Əliyeva da iştirak edib. Prezident və xanımı bizə çox böyük diqqət göstərdilər, qayğılarımızla maraqlandılar. Hesab edirəm ki, həmin görüşlər mənim həyatımın ən gözəl anlarından biridir. Mənə II dərəcəli əlillik təyin olunub, dövlət tərəfindən Sumqayıtda üçotaqlı mənzillə təmin edilmişəm. Sumqayıt şəhərinin və Qubadlı rayonunun icra hakimiyyətləri də məni hər zaman diqqətdə saxlayır, problemlərimlə, qayğılarımla maraqlanırlar. "YAŞAT" Fondu tərəfindən mənə maddi yardımlar olunub, həmçinin fond tərəfindən bütün xərclərim qarşılanmaqla Türkiyəyə bir həftəlik istirahətə göndərilmişəm. Sağ olsunlar, bütün müraciətlərimə operativ baxır və əllərindən gələni edirlər.

Ehtiram Məmmədov daha sonra bildirdi ki, şəhidlərimiz tariximizin unudulmaz səhifəsini yazıblar. Qəhrəman qazi qardaşlarım da hər cür alqışa layiqdirlər. Bu gün Vətən sərhədlərinin keşiyində duran silahdaşlarımız Azərbaycanın igid, mərd, vətənpərvər oğullarıdır. Biz də hər an gözümüzü qırpmadan Vətən üçün ölümə getməyə hazırıq.

***Əli ƏLİYEV, "Xalq qəzeti"***

# Ayağını itirsə də, özünə çoxlu mənəvi dayaqlar tapdı...

**Onun haqqında müfəssəl məlumatı mənə qohumum – Yardımlı Rayon Tarix-diyarşünaslıq muzeyinin direktoru Əli İskəndərov verdi və inamla dedi ki, Vətən müharibəsində Qələbəyə töhfələri olanlardan biri də qazi İlkin Ziyadovdur, imkan olsa, haqqında yazarsan.**



Adaşım əlavə etdi ki, ehtiyatda olan mayor İlkin Ziyadov həm də vaxtaşırı dəvət edildiyi telekanallardan yüksək vətənpərvərlik təbliğatı aparması ilə tanınır. Maraq mənə güc gəldi, qazinin həyat və döyüş yoluna işıq tutdum.

...Bu yaxınlarda Yardımlıda qeyd olunan doğum günündə Vətən üçün bir ayağından keçən İlkinin igid zabit kimi hünərindən danışıldı, həmçinin onun şəhid əmisi Famil Ziyadovun və şəhid qohumu Mahir İmanovun ölməz xatirələri yad edildi, 44 günlük Vətən müharibəsində intiqamlarının alındığı fəxrlə vurğulandı. Dostları dedilər ki, xidmət dövründə İlkinə dəfələrlə cəbhəyə göndərilən strateji əhəmiyyətli silah-sursat karvanını müşayiət etmək tapşırılıb. Həmişə də tapşırıqların öhdəsindən ər oğlu ər kimi, layiqincə gəlib. Cəbhə xəttində düz 12 il nümunəvi xidmət edib, Vətən və dövlət qarşısında da, el-oba yanında da alnıaçıq, üzüağdır.

O, 2015-ci il oktyabrın 28-də təmas xəttində erməni kəşfiyyatçılarının təxribatının qarşısını alarkən minaya düşərək sol ayağını dizdən yuxarı itirib, sağ ayaq və əlindən, üz nayihəsindən qəlpə yaraları alıb. Möcüzə sayəsində sağ qalıb. Həmin gün iki hərbçimizin qəhrəmanlıqla şəhid olması cəsur mayoru sarsıtsa da, Azərbaycanın itirilmiş torpaqlarının tezliklə azad olunacağına inamı qətiyyən azalmayıb.

İlkin Eldar oğlu Ziyadov 1982-ci il iyun ayının 1-də Yardımlı rayonunun Dələkli kəndində dünyaya göz açıb. Qonşu Ostayır kəndindəki orta məktəbdə əla qiymətlərlə təhsil alıb. Hərbçi olmaq arzusu onda 1-ci Qarabağ savaşında həmkəndlisi və yaxın qohumu Mahir İmanovun göstərdiyi şücaətdən xəbər tutandan sonra yaranıb. Çox keçmədən Mahirin düşmən tankını məhv edərkən igidliklə şəhid olması belə onda zərrəcə tərəddüd yaratmayıb, əksinə, fikri daha da qətiləşib. Daha sonra – 1995-ci ildə isə ermənilərin atəşkəsi novbəti dəfə pozması nəticəsində əmisi Famil Ziyadov da şəhid olanda onun torpaqlarımıza göz dikən mənfur düşmənə nifrəti daha da artıb və orta məktəb attestatını alan kimi sənədlərini Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə təqdim edib. Yüksək balla ora daxil olub. 2004-cü ildə Ali Hərbi Məktəbi bitirərək leytenant kimi Milli Orduda xidmətə ön cəhbədə başlaması ilə yeniyetməlik arzularının gerçəkləşməsinə nail olub. Vəzifə pillələri ilə yüksəlib, qısa müddətdə mayor rütbəsinə layiq görülüb.

Təmas xəttində sərasər Vətənə xidmət etmək çətin olsa da, İlkin Ziyadov daim bundan qürur duyub. Qüsursuz xidməti hər zaman komandanlıq tərəfindən diqqətə alınıb. Ayrı-ayrı illərdə xidmətdə fərqləndiyinə görə təltiflərə layiq görülüb. 2011-ci ildə isə Ali Baş Komandan İlham Əliyev tərəfindən ona "Hərbi xidmətlərə görə" medalı verilib. 2015-ci ilin bir payız günü xidmət başında olarkən minaya düşüb ağır yaralanması ilə istər-istəməz hərbçi karyerası sona çatıb.

Dözümü, güclü iradə sahibi olması sayəsində İlkin həyatda qalmağı bacarıb, Allahın lütfü, həkimlərimizin şəfalı əlləri ilə nicat tapıb. Bu gün İlkinin dövlətimizin yüksək qayğısı nəticəsində sağlamlığı da, xarici görünüşü də bərpa edilib, ağır yaralarının fəsadı, psixoloji sarsıntılarla müşayiət olunan şok durum anları artıq çoxdan arxada qalıb.

İlkin deyir ki, xəstəxanada yatdığı müddət ərzində dövlət ona ən yüksək səviyyədə qayğı göstərib. Bunu hər an hiss edib. Bütün çətinliklərə baxmayaraq, Milli Orduya qayıdıb zabit kimi Vətənə xidməti davam etdirmək istəsə də, bu, qeyri-mümkün sayılıb və o, ordu sıralarından ehtiyata buraxılıb.

Yaşadığı Dələkli kəndinin və qonşu Ostayırın qədirbilən sakinləri onu heç vaxt tək qoymur, tez-tez ziyarət edir, az qala başına dolanırlar. Zabit yoldaşları və keçmiş əsgərləri də tez-tez qazi mayorun yanına gəlirlər. Süfrə arxasında çay içə- içə cəbhə xatirələrinə dalır, qəhrəmanlıq səhifələrini vərəqləyirlər. İlkin və dostları 2-ci Qarabağ savaşında Silahlı Qüvvələrimizin rəşadətindən iftixarla danışır, şəhidlərimizə uca Tanrıdan rəhmət diləyirlər.

Əlbəttə, bütün bu ziyarətlər, canlı ünsiyyətlər İlkini həyata daha çox bağlayır. Mən də Yardımlıya gedən kimi onun görüşünə tələsəcəyəm.

***Ə.DOSTƏLİ, "Xalq qəzeti"***

Anar – 85

# Azərbaycanın Xalq yazıçısının yubileyi TÜRKSOY-da qeyd olundu



**Görkəmli Azərbaycan ədibi, Xalq yazıçısı Anar Rzayevin anadan olmasının 85-ci ildönümü münasibətilə Türkiyənin paytaxtı Ankarada Beynəlxalq Türk Mədəniyyət Təşkilatı – TÜRKSOY, Azərbaycan Respublikasının Ankaradakı Səfirliyi, Azərbaycan Yazıçılar Birliyi və Türk Ədəbiyyatı Vəqfinin birgə təşkilatçılığı ilə yubiley mərasimi keçirildi.**

TÜRKSOY-un baş katibi Sultan Raev çağdaş türk ədəbiyyatının ən tanınmış yazarlarından biri olan Azərbaycan Yazıçılar Birliyinin sədri Anarı anadan olmasının 85-ci ildönümü münasibətilə təbrik edərək onun ortaq türk mədəni irsinə töhfəsini vurğuladı: "Türk cümhuriyyətlərində fikir və sənət sahəsində yetişmiş çağdaş yazıçı və şairlər müxtəlif mövzulu əsərlərində keçmişimizi və indimizi ustalıqla işləmiş, ortaq mədəni gələcəyimizin üfüqünə ümid işarələri vermişlər. Onlardan biri də Azərbaycan türklərinin ideya və sənət sahəsində layiqli nüfuz qazanmış müdrik ağsaqqalı Anardır. Onun əsərləri qardaş türk xalqlarının dillərinə və bir çox başqa dillərə tərcümə edilərək türk mədəniyyətinin zəngin ədəbiyyatına töhfələr verib".

Sultan Raev Anara 85 illik yubileyi münasibətilə TÜRKSOY-un 30 illik yubiley medalını təqdim etdi.

Türk Ədəbiyyatı Vəqfi İdarə Heyətinin sədri Serhat Kabakçı bildirdi ki, Anarın anadan olmasının 85 illiyi münasibətilə təşkil etdilən bu tədbir türk mədəniyyətinin mühüm dəyərlərini qoruması deməkdir. Ölkəmizin Ankaradakı səfirliyinin müşaviri Eldar Əliyev Xalq yazıçısı Anarın Azərbaycan ədəbiyyatının inkişafında xidmətlərindən, türk dünyasının ədəbi-mədəni birliyinin möhkəmlənməsinə göstərdiyi köməkdən söhbət açdı.

TÜRKSOY çevrəsində yubileyinin təşkilinə görə minnətdarlığını bildirən Anar dedi: "Bu təşkilatın qurulmasına az da olsa töhfə verdiyimi xatırlamaq mənim üçün xoşdur. Türk birliyinin dünya gücünə çevrilməsində onun rolu və təsiri artır. Yaradıcılığıma və təşkilati fəaliyyətimə verilən yüksək qiymət isə məmnunluqla yanaşı, məni ümumtürk birliyinə xidmətlərimi artırmağada ruhlandırır".

Mərasimdə yubiliyarın "Çağın önündə bir yazıçı: Anar" və "İki əsrin qovşağında: Anar" kitablarının təntənəli təqdimatı oldu. Azərbaycan Yazıçılar Birliyinin sədr müavini Rəşad Məcid, yazıçılar İmdat Avşar, Pərvin Nurəliyeva və Günel Anarqızı təqdim edilən nəşrlər barədə mülahizələrini söylədilər, yazıçıya möhkəm cansağlığı və yeni yaradıcılıq uğurları arzuladılar.

Yubiley təntənəsinin bədii hissəsi solistlər Aynaz Rəhimzadə, Elçin Hətəmli (tar) və Areş Nəzəri (nağara) triosunun Anar Rzayevin anası Nigar Rəfibəyli və atası Rəsul Rzanın şeirlərinə bəstələnmiş və Azərbaycanın türk dünyasında məşhur olan mahnılarından ibarət konsertlə davam etdi.

**Xalq yazıçısı Anar qəzetimiz üçün kiçik müsahibəsində bildirdi:**

–Yubileyimin TÜRKSOY kimi nüfuzlu bir qurumun iqamətgahında keçirilməsi mənim üçün çox önəmlidir. Bu təşkilat yaranmazdan əvvəl çıxışlarımdan birində vurğulamışdım ki, o, türk dövlətləri arasında UNESCO kimi fəaliyyət göstərən, türk xalqlarının mədəniyyətinə, incəsənətinə önəm verən bir qurum olmalıdır. Bir müddət sonra TÜRKSOY yarananda onun ilk baş direktoru mənim də çox yaxın dostum olan məşhur azərbaycanlı sənətçi Polad Bülbüloğlu, ikinci baş katibi isə çox yaxın dostum, qazax musiqiçisi Düsen Kaseinov oldu. Təşkilatın hazırkı baş direktoru da yaxın dostum, Qırğızıstanın Xalq yazıçısı Sultan Raevdir. Mən musiqiçilərə qarşı deyiləm, amma TÜRKSOY-un bir yazıçı tərəfindən idarə olunması məni çox sevindirir.

Qırğızıstana da məni dərin sevgi bağlayır. Stalin repressiyaları zamanı qohumlarım Azərbaycanı tərk etmək məcburiyyətində qalanda, onların bir qismi könüllü olaraq yaşamaq üçün Türkiyəyə gəlib, digər hissəsi isə Qırğızıstana sürgün edilib. Mənin Qırğızıstan və qırğız xalqı ilə xüsusi yaxınlığım isə dünya şöhrətli qırğız yazıçısı Cingiz Aytmatov və hazırda TÜRKSOY-un baş katibi olan Sultan Raev kimi çox önəmli yazıçı dostlarla bağlıdır. Çingiz Aytmatovla dostluq əlaqələrim unudulmazdır. Həmişə bir-birimizə kitab hədiyyə edəndə Aytmatov kitabını mənə "Kiçik qardaşım Anara", mən isə "Böyük qardaşım Cingizə" deyə imzalayardıq".

***Mehparə SULTANOVA***

**Ankara**

Türk dünyasının Bakı festivalı

# Qardaş ölkələrin kitab və söz bayramında

**Ən qədim və zəngin mədəniyyətə malik türk xalqlarının ortaq mədəni sərvətlərinin təbliği, öyrənilməsi, inkişaf etdirilməsi mühüm əhəmiyyət daşıyır. Bu günlər Bakıda ulu öndər Heydər Əliyevin 100 illiyi çərçivəsində təşkil edilən İkinci Türk Dünyası Ədəbiyyat və Kitab Festivalı bu baxımdan xüsusən önəmlidir.**

Bir çox tədbirlərlə zəngin olan festivalın üçüncü günündə Azərbaycanın TÜRKSOY-dakı nümayəndəsi Elçin Qafarlı ilə görüşümüzdə də festivalın bu baxımdan önəmi xüsusi vurğulandı. E.Qafarlı Azərbaycanın görkəmli şairi Mikayıl Müşfiqin doğum günündə – iyunun 5-də başlayan festivalda türk dünyasının hər bölgəsindən alimlərin gəldiyini qeyd etdi. bu tədbirin, ümumilikdə türk dünyasının şair, yazar, ədəbiyyatşünaslarının görüşüb fikir mübadiləsi aparması, ortaq məsələləri müzakirə etmələri üçün gözəl platforma olduğunu dedi. Qeyd etdi ki, budəfəki tədbir daha geniş keçirilir. Festivala gələnlər ötən 3 gün ərzində yeni nəşrlərlə tanış olub və hər saatda keçirilən təqdimatlara qatılıblar.



**Sənətşünaslıq üzrə fəlsəfə doktoru Bəhruz Niftəliyevin** moderatorluğu ilə "Şairlik və alimlik" paneli keçirildi. Panellə bağlı fikirlərini bölüşən B.Niftəliyev dedi: "Şairlər söz uğrunda həyatlarını girov qoyaraq, dilə gətirə bilmədiyimiz hiss həyəcanlarımız, duyğu və düşüncələrimizdən poetik lövhələr yaradırlar. Sözdən ilmə vuran, naxışlar toxuyan şairlərimiz tək şer yazmırlar, onlar həm də, söz yaradırlar.

Böyük məna yükünü özündə daşıyan "Dünənin həqiqəti bu gün tərs yozum oldu, Niyə də yozulmasın, axı, dünya fırlanır" misralarının müəllifi Bəxtiyar Vahabzadənin şeir külliyyatı ilə yanaşı, Səməd Vurğunla bağlı araşdırmaları, tədqiqatları var.



**Naxçıvandan tədbirə qatılmış 5 kitab müəllifi gənc şairə Sabrina Mədətovanın** imza günü də çox maraqla keçdi. "Mənim anam bir mələkdir", "Şəhid Vüsalın dastanı", "Mahnın da, adın da dastana döndü", "Mənim doğma Naxçıvanım", ulu öndər Heydər Əliyevin xatirəsinə həsr olunmuş "Qurtuluş" kitablarının müəllifi festivaldan məmnunluğunu bildirdi.

**Türkmənistan Elmlər Akademiyasının Məhtumquli adına dil, ədəbiyyat və milli əlyazmalar institutunun şöbə müdiri Raxmanverdi Qodarov** festivalla bağlı təəssüratlarının heç zaman unudulmayacağını dedi: "Artıq neçə gündür ki, insanlar dəstə-dəstə gəlib sərgilərə tamaşa edir, təqdimatlarda, yubiley tədbirlərində, konsertlərdə iştirak edirlər. Azərbaycanda kitaba maraq bizdə də xoş təəssürat oyatdı. Elə özümüz də bir sıra maraqlı kitablar, eyni zamanda sərgilərdə nümayiş etdirilən əl işləri aldıq.

Festivalın üçüncü günü Türkmənistana həsr olunub və tədbir çərçivəsində görkəmli şairimiz Məhtimquli Fəraqinin təqdimatı keçirildi. Onun yaradıcılığı ilə bağlı çoxlu maraqlı çıxışlar dinlədik. Şeirlərindən nümunələr səsləndirildi.

Tədbirin bu qədər yüksək səviyyədə keçirilməsinə görə, təşkilatçılara minnətdarıq".

Türk dünyasının ortaq mədəni sərvətlərinin təbliğinə böyük töhfələr verən II Türk Dünyası Ədəbiyyat və Kitab Festivalı bir-birindən maraqlı tədbirlərlə davam edir. Festivalın üçüncü günündə, həmçinin Ramiz Rövşənin imza günü keçirilib, "Qızıl yaşmaq" filmi nümayiş etdirirlib.

Festival iyunun 11-dək davam edəcək.

***L.AZAD, "Xalq qəzeti"***

Fırça və süngü

**O, fırça tutan əlinin atəş açmağa da qadir olduğunu həm 2017–2018-ci illərdə hərbi xidmət zamanı təlimlərdə fərqlənməsi, həm də 2020-ci il iyul ayında könüllü olaraq qeydiyyata düşüb Tovuz döyüşlərinə qatılması ilə sübut edib. Beləcə, vətənpərvərlik mövzularını təbliğ etdiyi rəsmləri və molberti kənara qoyaraq şəxsi yurdsevərvərlik nümunəsi ilə seçilib.**

# Şəhid-rəssamın ruhunu yaşadan 44 rəsm



Azərbaycan Memarlıq və İnşaat Universitetinin məzunu olan gənc rəssam Rauf İbadovun Vətən müharibəsində cəsurluğuna, Füzuli, Cəbrayıl, Hadrut, Qubadlı cəbhələrində göstərdiyi şücaətinə görə manqa komandiri təyin edilməsi də onun əsl vətənpərvər olduğunun göstəricisi idi.

Sumqayıt Şəhər Heydər Əliyev Mərkəzində şəhid-rəssam Rauf Məhərrəm oğlu İbadovun "Sizə yadigar qalsın" adlı fərdi sərgisinin açılış mərasimində Xalq artisti Gülyanaq Məmmədovanın ifasında onun əziz xatirəsinə ithaf olunmuş "Qəhrəmanlıq dastanı..." adlı mahnının klipini izləyənlərin gözləri önündə anbaan qəhrəmanın işıqlı obrazı canlandı. Hər kəs bəstəkar Sevinc Tofiqqızının şair Baba Vəziroğlunun sözlərinə yazdığı musiqi əsərini elegiya deyil, qürur ifadəsi kimi maraqla qarşıladı.

Tədbiri Sumqayıt Regional Mədəniyyət İdarəsinə tabeli Sumqayıt Dövlət Rəsm Qalereyası və "Nəfəs" İctimai Birliyi təşkil etmişdi.

Şəhər ictimaiyyətinin nümayəndələri, rəssamlar, qazilər və məktəblilərin qatıldığı tədbirdə bildirildi ki, Rauf 1996-cı il mayın 4-də Abşeron rayonunun Saray qəsəbəsində doğulub. İnşaatçı mühəndis və gözəlliklər yaradan rəssam olsa da, zamanın gərdişi onu dağıdıcı müharibə ilə üzləşdirib, əlinə silah alıb döyüşlərə atılmağa vadar edib. Elə orada da çox sevdiyi həyatla vidalaşmalı olub. 2020-ci il oktyabrın 23-də Laçın rayonu ərazisində mühasirəyə düşdükləri zaman bir neçə düşməni məhv edib və qəhrəmancasına şəhid olub. Oktyabrın 30-da Saray qəsəbəsindəki Şəhidlər xiyabanında dəfninə bütün el-oba toplaşıb. Ölümündən sonra "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə" və "Füzulinin azad olunmasina görə" medalları ilə təltif edilib.

Sumqayıt Şəhər İcra Hakimiyyətinin Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsinin müdiri Tərlan Hacızadə, Sumqayıt Regional Mədəniyyət İdarəsinin məsləhətçisi, şəhid anası Ceyran Həsənova, "Nəfəs" İctimai Birliyinin rəhbəri Firəngiz Balakişiyeva, Azərbaycan Yazıçılar Birliyinin Sumqayıt bölməsinin sədri Gülnarə Cəmaləddin, şair, Prezidentin fərdi trəqaüdçücü Əşrəf Veysəlli, Memarlıq və İnşaat Universitetinin elmi katibi Tahirə Haqverdiyeva, professor İsmayıl Əliyev və başqaları çıxış edərək, torpaqlarımızın Rauf kimi qəhrəman oğullarımızın sayəsində işğaldan azad olunduğunu, xalqımızın 30 illik həsrətinə son qoyulduğunu bildirdilər. Sumqayıt Dövlət Rəsm Qalereyasının direktoru Ellada Həsənova Raufun rəsmlərindən söhbət açaraq, onun sevimli mövzusunun məhz vətənpərvərlik olduğunu diqqətə çatdırdı. Peşəkar rəssam Tofiq Əhmədovun nakam həmkarına həsr etdiyi portret şəhidin valideynlərinə təqdim olundu.

Şəhidin atası Məhərrəm İbadov, anası Zərnigar İbadova diqqət və qayğıya görə minnətdarlıq duyğularını ifadə etdilər.

Sonra sərgiyə baxış keçirildi. Ekspozisiyada rəssamın müxtəlif janrlarda yaratdığı 44 əsəri nümayiş olunur. Hamısı da həyat eşqli, işıqlı rəsmlərdir. Vətən üçün döyünən, elə Vətən yolunda da susan bir ürəyin çırpıntılarını yaşadan əsərlərdir. Rəng çalarları, koloriti diqqət çəkir.

Tədbir Ə.Bakıxanov adına 1 nömrəli Sumqayıt Uşaq İncəsənət Məktəbinin kollektivinin təqdim etdiyi musiqi nömrələri və Laçın rayon 5 saylı orta məktəbin Rauf İbadov adına sinfinin şagirdlərinin səsləndirdikləri şeirlərlə davam etdi.

***Əli NƏCƏFXANLI, "Xalq qəzeti"***

# Sularda xilasetmə çoxnövçülüyü

**Fövqəladə Hallar Nazirliyinin Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidmətinin struktur bölmələri arasında "Heydər Əliyev İli"nə həsr olunmuş sularda xilasetmə çoxnövçülüyü üzrə yarış keçirilib.**

Xidmətin "Buzovna" sularda xilasetmə məntəqəsində keçirilən yarışda Bakı və Abşeron yarımadasında yerləşən xilasetmə məntəqələrinin əməkdaşlarından ibarət 18 komanda mübarizə aparıb. Yarış açıq dənizdə və qapalı hovuzda təşkil edilib.

Gərgin idman mübarizəsi şəraitində keçən yarışda komanda hesabında "Pirşağı" məntəqəsinin komandası 1-ci, "Buzovna" məntəqəsinin komandası 2-ci, "Zuğulba" dalğıc-axtarış qrupunun komandası isə 3-cü yeri tutub. Şəxsi birincilikdə isə Qabil Həsənov 1-ci, Haşım Babayev və Rahib Ələkbərzadə müvafiq olaraq ikinci və üçüncü yerlərə layiq görülüblər.

Yarışların mükafatlandırma mərasimində çıxış edən Xidmətin rəis müavini daxili xidmət polkovniki Seymur Qaraşov qalibləri təbrik edib, onlara gələcək yarışlarda uğurlar arzulayıb.

Qaliblərə kubok, medal və diplomlar təqdim olunub.

***Qəzənfər QASIMOV, "Xalq qəzeti"***




## "Bakı İxtisaslaşdırılmış Mexanizasiya -7" ASC səhmdarlarının nəzərinə!

13 iyul 2023-cü il saat 10.00-da "Bakı İxtisaslaşdırılmış Mexanizasiya -7" ASC səhmdarlarının növbədənkənar ümumi yığıncağı Bakı, 7-ci mikrorayon, Xarici dairəvi küçəsi, 3121-ci məhəllədə keçiriləcəkdir.

**Gündəlikdəki məsələlər:**

**1.** "Bakı İxtisaslaşdırılmış Mexanizasiya -7" ASC-nin 2023-cü ilin yarım illik maliyyə hesabatının müzakirəsi və təsdiqi.

**2.** ASC-nin hesabında olan vəsaitin miqdarının müzakirəsi və bölüşdürülməsi.

**3.** Təşkilati məsələlər.

**4.** Digər məsələlər.

Səhmdarlar ümumi yığıncağın gündəliyinin materialları ilə iş günləri saat 10.00-dan 14.00-dək ASC-nin idarə heyətinin sədrinə müraciət etməklə tanış ola bilərlər.

Telefon- 050-212-16-13.

***İdarə heyəti***

## "EUROPEAN TOBACCO –BAKU" ASC səhmdarlarının nəzərinə!

Bakı şəhəri, Nizami rayonu, Keşlə qəsəbəsi, Köndələn küçəsi 21 nömrəli ünvanda yerləşən "EUROPEAN TOBACCO –BAKU "ASC-nin nizamnaməsinin 6.1 və 6.3-cü maddələrinə uygun olaraq səhmdarların növbəti ümumi yığıncağının "Qafqaz Business Center"-də, Bakı, Nərimanov rayonu, Heydər Əliyev prospekti 125 nömrəli ünvanda 18 iyun 2023-cü il saat 10.00-da keçiriləcəyi barədə əvvəlcədən sizə xəbərdarlıq edilmişdir.

Lakin texniki səbəblərdən iclasın keçiriləcəyi yerin ünvanı dəyişdirildiyindən məlumat üçün bildiririk ki, iclas 2023-cü il iyunun 18-i saat 10.00-da " Wyndham Baku Hoteli" Bakı, Ələsgər Qayıbov küçəsi 12 nömrəli ünvanda keçiriləcəkdir.

***İdarə heyəti***

## "Bərdə Yun" ASC səhmdarlarının nəzərinə!

"Bərdə Yun" ASC səhmdarlarının illik ümumi yığıncağı 30 iyul 2023-cü il saat 11.00-da Bərdə rayonunun Alpoud kəndində keçiriləcəkdir.

**İclasın gündəliyi:**

**1.** "Bərdə Yun" ASC –nin 2022-ci il üçün maliyyə-təsərrüfat fəaliyyətinin yekunlarının müzakirəsi və təsdiqi.

**2.** Digər məsələlər.

Ümumi yığıncaqda bütün səhmdarların şəxsiyyətini təsdiq edən sənədlə (nümayəndələr notarial qaydada təsdiqlənmiş etibarnamə və şəxsiyyətini təsdiqləyən sənədlə) iştirakı vacibdir.

***İdarə heyəti***

SON SƏHİFƏ

# Xalq qəzeti

Xalqın qəzeti!

№ 120 (30236) 8 iyun 2023-cü il, cümə axşamı

veb-sayt: www.xalqqazeti.az

*İdman xəbərləri*

## Yığmamızın şef-de-missionu müəyyənləşib




**“Paris-2024” XVII Yay Paralimpiya Oyunlarına yollanacaq Azərbaycan nümayəndə heyətinin rəhbəri (şef-de-mission) müəyyənləşib.**

Azərbaycan Milli Paralimpiya Komitəsinin beynəlxalq əlaqələr və marketinq şöbəsinin müdiri Rüfət Hacılı “Paris-2024” XVII Yay Paralimpiya Oyunlarına yollanacaq nümayəndə heyətinin rəhbəri təyin olunub.

Rauf Hacılı 2023-cü ildə X beynəlxalq Abilimpiya çempionatında iştirak etmiş Azərbaycan nümayəndə heyətinin rəhbəri olub.

Qeyd edək ki, XVII Yay Paralimpiya Oyunları gələn il avqustun 28-dən sentyabrın 8-dək Fransanın paytaxtı Paris şəhərində keçiriləcək.

## III Avropa Oyunları 50 ölkədə yayımlanacaq

**Polşada keçiriləcək III Avropa Oyunları 50 ölkədə birbaşa yayımlanacaq.**




Bu barədə yarışın rəsmi saytında məlumat verilib.

Məlumatda bildirilib ki, siyahıda Avropa ilə yanaşı, Cənubi və Mərkəzi Amerika ölkələri də yer alıb. Danışıqlar davam etdiyi üçün bu sayın artacağı gözlənilir.

III Avropa Oyunları iyunun 21-dən iyulun 2-dək Polşanın Krakov şəhərində təşkil olunacaq. Yarışda 48 ölkədən 7 minədək idmançı iştirak edəcək.

Xatırladaq ki, I Avropa Oyunları 2015-ci ildə Bakıda, II Avropa Oyunları isə 4 il sonra Minskdə təşkil olunub..

## “Əziz Şuşa”nın birinci mərhələsi başa çatıb

**Ulu öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş “Əziz Şuşa” beynəlxalq velosiped yarışının birinci mərhələsi keçirilib.**



Gənclər və İdman Nazirliyi və Azərbaycan Velosiped Federasiyasının birgə təşkilatçılığı ilə keçirilən və 100-dən artıq velosipedçinin qatıldığı yarışa Bakı şəhərinin Səbail rayonunda yerləşən Veloparkdan start verilib. İlk mərhələdə velosipedçilər 150 kilometr məsafə qət edərək Şamaxı rayonunda finiş xəttini keçiblər.

Yekun nəticələrə görə, bolqarıstanlı Martin Papanov bütün rəqiblərini qabaqlayaraq birinci yeri tutub. İtaliya təmsilçisi Ansalone Emanuele yarışı ikinci, rumıniyalı Sergey Tveçkov isə üçüncü yerdə tamamlayıblar.

Sonda qaliblər medal, diplom və qiymətli hədiyyələrlə təltif olunublar. Yarış iyunun 11-dək davam edəcək.

*L.QURBANOVA,“Xalq qəzeti”*

*Texnologiya yenilikləri*

## Fəzaya kiçik radar peykləri göndəriləcək

**Böyük Britaniyanın iki şirkəti fəzaya innovativ, ucuz radar peykləri uçuracaq. Maraqlısı odur ki, bu aparatın bir hissəsi trikotaj maşınında toxunacaq.**



“CarbSar” adlanan bu missiya gələn il başlayacaq və Britaniya kəşfiyyatının casusluq potensialındakı boşluğu doldurmağa kömək edəcək. Peyk buludların üzərindən müşahidə aparmaq üçün radar texnologiyasından istifadə edəcək və hətta gecə də işləyəcək.

Britaniyalı ekspertlər hesab edirlər ki, Ukrayna müharibəsi qarşı tərəfin mövqelərini izləmək üçün istifadə edilən belə sistemlərin dəyərini göstərib. Lakin Britaniya BMT Təhlükəsizlik Şurasının öz müşahidə sistemi olmayan yeganə daimi üzvüdür. Bunları nəzərə alaraq, Böyük Britaniyanın iki şirkəti – “Surrey Satellite Technology Limited” (SSTL) və “Oxford Space Systems” (OSS) kiçik və portativ radar peyki hazırlamağa başlayıb. Eyni zamanda, onlar bu il Britaniya hökumətinin dəstəyi ilə öz kosmik gəmilərini yaratmağa başlayacaq və artıq sifariş edilmiş Amerika raketi vasitəsilə kosmik fəzaya göndərəcək.

*S.RZAYEVA, “Xalq qəzeti”*

## “Microsoft”a 20 milyon dollar cərimə!

**“Microsoft” şirkəti Federal Ticarət Komissiyası tərəfindən 20 milyon dollar cərimələnib. Buna səbəb kimi uşaqların məxfi məlumatlarından istifadə edildiyi göstərilib. Məlumatı “abcnews.com” saytı paylaşıb.**




“Microsoft”un “Xbox” oyun sisteminə qeydiyyatdan keçmiş uşaqların şəxsi məlumatları toplanıb və reklamlar üçün istifadə edilib. On üç yaşdan yuxarı istifadəçilər oyuna daxil olarkən razılaşma müqaviləsi bağlanılır. Lakin 13 yaşdan kiçik olduqda bu barədə valideyn icazəsi olmalıdır. Şirkət isə 2015-2020-ci illər arasında 5 illik müddətdə bu qaydanı pozub.

Qeyd edək ki, “Microsoft” bu məsələdə səhvini etiraf edib. Federal Ticarət Komissiyasının qərarlarının icra ediləcəyi bildirilib.

*Ə.ƏHƏDLİ, “Xalq qəzeti”*

## “Android” telefon “iPad”ə qoşulacaq

**“WhatsApp” yenilikləri ilə istifadəçiləri sevindirməyə davam edir. Növbəti dəyişiklik “iPad” planşetinin xidməti hesablarla uzlaşmaq imkanı ilə bağlıdır.**



Yeni funksiya ilə “iPad” planşeti “Android” əməliyyat sistemli cihazlara bağlanacaq. Ekspertlərin sözlərinə görə, bu zaman “iPad” qoşulu cihaz kimi tanınacaq.

Bundan başqa, “WhatsApp”ın “iPad”a uyğun proqramlar hazırlayacağı da proqnozlaşdırılıb. Qeyd edilir ki, hazırda funksiya inkişaf mərhələsindədir və gələcək proqram yenilənməsində “beta” testerlərə təqdim olunacaq.

Yeniliyin bütün istifadəçilər üçün tam olaraq nə vaxt əlçatan olacağı hələ bildirilməyib.

*“Xalq qəzeti”*

*Sosial şəbəkələrdən seçmələr*

**AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Aynur Familqızı bu günlərdə özünün “Facebook” səhifəsində maraqlı bir paylaşım edib. Orada yazılır:**

## “Ədalət kainatın ruhudur”



“Ata iki övladı üçün bir şirin kökə alıb masanın üstünə qoyur və böyük övladına “bunu ikiyə böl!”, – deyir. Bölündükdən sonra dönüb kiçiyə “istədiyin birini seç, götür, ye!”, – deyir.

Ədalət məhz bu andan başlayır, əgər böyük övlad hiylə edib düz bölməyəcəksə, az yeyəcəkdir. Deməli, dəqiqlik, düzgünlük vicdana bağlı olduğu qədər, haqq və ədalət də sonrakı nəticəyə bağlıdır. Burada ata qanunun, böyük övlad dövlətin, kiçik övlad isə millətin simvoludur.

Aynur xanımın qənaətinə onu əlavə edək ki, dünyada ən çətin şey insanın nəfsinə qalib gəlməyi bacarmasıdır. Yalnız bu zaman ailədə, cəmiyyətdə, toplumda ədalət bərqərar oluna bilər. Bir görkəmli filosofun dediyi kimi, ədalət kainatın ruhudur.

*Tədqim etdi:*
*M.HACIXANLI,*
*“Xalq qəzeti”*

## Şillerin ilham mənbəyi – çürük alma

**Böyük alman şairi İohan Fridrix Şillerin şeir yazarkən mütləq masasının üstündə çürük alma olmalı idi. Şair alma qoxusunun onu başqa aləmə apardığını, özünü təbiətin qoynunda hiss etdirdiyini deyirdi.**



Masa üstündə milçəklər vızıldaşan çürük bir alma və oturub şeir yazan bir şair. Təsəvvür edə bilirsiniz? Bəli, təsəvvür etmək çətindir. Amma Şiller o qədər gözəl poeziya nümunələri yaradıb ki, onun bu qəribəliyini xatırlatmağa, bəlkə də, heç bir ehtiyac yox idi.

Şiller 1759-cu il noyabrın 10-da Almaniyanın Marbax şəhərində hərbi feldşer Qaspar Şillerin ailəsində dünyaya göz açmışdır. Şairin 1785-ci ildə yazdığı “Şadlığa mədhiyyə” əsərinə sonralar dahi alman bəstəkarı Lüdviq van Bethoven musiqi bəstələyib. Həmin musiqi əsəri hazırda Avropa İttifaqının rəsmi himnidir.

## Fitsceraldı nə öldürüb?

**Böyük Amerika yazıçısı Frensiz Skott Fitsceral caz dinləməyi, qadınlarla əylənməyi, xüsusilə də alkoqolu sevirdi. “Alkoqol olmasa, bircə cümlə də yaza bilmərəm”, – deyən yazıçının 44 yaşında ölümünə elə içki aludəçiliyi səbəb olub.**




Fitscerald 24 sentyabr 1896-cı ildə Minnesota ştatının Sent-Pol şəhərində, imkanlı katolik irland ailəsində dünyaya göz açmışdır. Onu ABŞ himninin sözlərinin -"Ulduzlarla bəzənmiş bayraq"ın müəllifi, ulu babası Frensis Skott Kinin (1779–1843) şərəfinə belə adlandırmışdılar.

Xatırladaq ki, “Böyük Qetsbi” və ya “Möhtəşəm Qetsbi” Fitsceraldın sayca üçüncü və ən məşhur romanıdır. Amerika ədəbiyyatında “Caz dövrünü” təsvir edən bu roman 1925-ci ildə işıq üzü görmüşdür. Əsər ötən əsrin 50-ci illərində, müəllifin ölümündən sonra gündəmə gələrək populyarlaşmışdır.

*M.QARAÇAYLI,*
*“Xalq qəzeti”*

## Lənətə gəlmiş alman şəhəri



**Arxeoloqlar Şimal dənizində orta əsrlərə aid alman şəhəri tapıblar. Ehtimal olunur ki, bu vaxtilə lənətlənmiş Runqholt şəhəridir.**

Qeyd olunub ki, Südfall adasının yaxınlığında yerləşən qədim yaşayış məskəninin ərazisi 10 kvadratkilometrdən artıqdır. Tədqiqat yerində elm adamları drenaj sistemlərini, dəniz bəndini və kiçik kilsələrin də yerini müəyyən ediblər.

Rəvayətə görə, bir gün qoca keşiş kilsəyə gedərək Allahdan əxlaqsız həyat sürən Runqholt şəhər sakinlərinin cəzalandırılmasını xahiş edir. Ertəsi gün o, şəhəri tərk edəndə şiddətli bir tufan qopur və Runqholt yerlə-yeksan olur.

Bu rəvayətin nə qədər dürüst olduğunu demək çətindir. Hər halda od olmayan yerdən tüstü çıxmır.

*Fidan SALMAN,*
*“Xalq qəzeti”*

*Sağlamlıq guşəsi*

## İsti havalarda necə sərinləyək?

**Mütəxəssislər bildirirlər ki, istilik bədənin həddindən artıq su və duz itkisinə reaksiyasıdır, adətən, tərləmə ilə xaric olunur. İsti havalarda intensiv məşq etmək və digər fiziki hərəkətlər sonda ürək çatışmazlığına gətirib çıxarır.**



Ürək çatışmazlığının əlamətləri: yorğunluq, başgicəllənmə, baş ağrısı, ümumi ağrı hissi, həddindən artıq tərləmə, dərinin solğun, nəmli və ya isti olması, təngənəfəslik və ya sürətli ürək döyüntüsü, güclü susuzluq və zəiflikdir.

Bu simptomlara məhəl qoymamaq istilik insultuna səbəb ola bilər. Bu zaman gün ərzində bol su içmək və önəmli qidalar qəbul etmək lazımdır.

Dondurulmuş protein qəlyanaltıları bədəni sərinləşdirir və əzələlərin bərpasına kömək edir. Qarpızın tərkibi 92 faiz sudan ibarətdir, susuzlaşmanın qarşısını almaq üçün əla vasitədir. Xiyar da yüksək su tərkibinə malikdir və isti havalarda bədəni nəmləndirmək və soyutmaq üçün əla seçimdir.

*Z.BAYRAM, “Xalq qəzeti”*

*Proqnoz*

## Rayonlara yağış yağacaq, dolu düşəcək



Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən iyunun 8-də Bakıda və Abşeron yarımadasında hava əsasən yağmursuz keçəcək.

Arabir güclənən şimal-qərb küləyi əsəcək, gündüz mülayimləşəcək. Gecə 16-20°, gündüz 23-27° isti olacaq. Atmosfer təzyiqi 762 mm civə sütunundan 765 mm civə sütununa yüksələcək, nisbi rütubət 65-75 faiz olacaq. Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Ayrı ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Axşama doğru yağıntılar tədricən kəsiləcək. Bəzi yerlərdə arabir duman olacaq. Şərq küləyi əsəcək, bəzi rayonlarda arabir güclənəcək. Havanın temperaturu gecə 15-19°, gündüz 25-30, dağlarda gecə 6-11°, gündüz 13-18°, bəzi yerlərdə isə 22°-dək isti olacaq.

*Q. QASIMOV, “Xalq qəzeti”*

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 5167
SİFARİŞ 1384
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Mirbağır YAQUBZADƏ

Çapa imzalanmışdır 00:00